www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 31 yanvar 2019-cu il Cümə axşamı № 23 (7193) Qiyməti 60 qəpik

**Xəbər**

**Azərbaycanda 100 min manatlıq it boğuşdurma yarışı başlayır**

yazısı səh.15-də

**Gündəm**

**Gömrük Komitəsinin sədrindən maraqlı açıqlamalar**



**Səfər Mehdiyev:** "Tamahını idarə edə bilməyənlər bizim aramızdan gedəcək"

yazısı səh.4-də

**ABŞ-ın "iqtidarla işləməkdə davam edəcəyik" mesajı - Boltonun zəngindən çıxan nəticə**

yazısı səh.9-da

**Şirməmməd Hüseynovun Rəsulzadə ilə bağlı ilginc xatirələri**

yazısı səh.6-da

**"Amerika Cənubi Qafqazla bağlı yeni strategiya hazırlayıb" - ekspert**

yazısı səh.9-da

**Qarabağdan olan deputatdan həmsədrlərə sərt sözlər**

yazısı səh.5-də

**Sabitliyi pozmaq istəyənlərin qarşısında ən böyük sədd**

yazısı səh.7-də

**İsgəndər Həmidov Sevinc Osmanqızı ilə qalmaqalı barədə danışdı**

yazısı səh.5-də

**Azərbaycanın Gürcüstana etdiyi jestlər və abidə nankorluğu...**

yazısı səh.11-də

**Polietilen torbaların pullu olması məsələsi yenidən gündəmdə**

yazısı səh.10-da

**Gürcüstanda 20 nəfərin "donuz qripi"ndən ölməsi təsdiqlənib**

yazısı səh.14-də

**"Hər bir iqtisadi region üzrə ayrıca proqram işlənməlidir" - iqtisadçı**

yazısı səh.10-da

# ABŞ-DAN BAKIYA KRİTİK ZƏNG - "BOLTON PLANI" İŞƏ DÜŞÜB?

Trampın milli təhlükəsizlik məsələləri üzrə köməkçisi İlham Əliyevə telefon açdı; ABŞ Milli Kəşfiyyatının rəhbəri isə Qarabağda böyük toqquşma riskini anons verdi; Ağ Ev müharibə xəbərdarlığı fonunda sülh təşəbbüskarlığını artırır - nonsens, yoxsa...




yazısı səh.8-də

## Prezidentin icra başçılarına xəbərdarlığını zəruri edən tək səbəb

**Bəxtiyar Sadıqov: "Bu, o deməkdir ki, belə bir problem həqiqətən var..."**

yazısı səh.7-də



**Bu gün Rəsulzadənin doğum günüdür**

yazısı səh.3-də



*İlham Şaban:*
**"Venesuela maraqlı olmalıdır ki, neftini ABŞ bazarına satsın"**

yazısı səh.13-də



**Əli Həsənov "Qaçqınkom"dan apardığı "BMW"yə görə cəza ala bilər**

yazısı səh.12-də

31 yanvar 2019

YENİ MÜSAVAT
N 23 (7193) 31 yanvar 2019



# Şəhid ailəsi üçün Azərbaycan prezidentinin təqaüdü artırıldı

**Prezident İlham Əliyev şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında fərman imzalayıb.**

Sərəncamda qeyd olunur ki, şəhid ailəsinin sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədilə şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği artırılaraq 2019-cu il fevralın 1-dən 300 manat müəyyən edilsin.

“Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 dekabr tarixli fərmanının 1-ci hissəsində “242 (iki yüz qırx iki)” sözləri “300 (üç yüz)” sözləri ilə əvəz edilir.

Nazirlər Kabinetinə bu fərmandan irəli gələn məsələləri həll etmək tapşırılıb.

# Novruz çərşənbələrinin qeyd olunacağı tarixlər açıqlandı



**Azərbaycanda bu il Novruz çərşənbələrinin qeyd olunacağı tarixlər açıqlanıb. AMEA-nın Şamaxı Astrofizika Rəsədxanasının elmi işlər üzrə direktor müavini, fizika üzrə fəlsəfə doktoru Xıdır Mikayılov özəl olaraq «Trend»ə bildirib ki, bu il ilk - Su çərşənbəsi fevralın 26-na təsadüf edəcək.**

X.Mikaylovun sözlərinə görə, martın 5-də Od, martın 12-də Yel çərşənbəsi olacaq.

Novruzun ilaxır - Torpaq çərşənbəsi isə martın 19-da qeyd ediləcək.

Bu il yaz fəsli ölkəyə martın 20-dən 21-nə keçən gecə saat 01:58-də gələcək.

X.Mikayılov qeyd edib ki, martın 20-si ölkəmizdə bayram axşamı, 21-i isə bayram günü kimi qeyd ediləcək.

Xatırladaq ki, bu il Novruz bayramı ilə əlaqədar 20, 21, 22, 23, 24 mart qeyri-iş günləri olacaq. Bu il bayram günü hesab edilən 23 və 24 mart həftələrarası istirahət günləri ilə üst-üstə düşdüyündən 25, 26 mart da qeyri-iş günü hesab ediləcək. Beləliklə, Novruz bayramı günlərində 20-26 mart tarixləri qeyri-iş günləri olacaq.

# Azərbaycan nefti 2 faiz bahalaşıb



**Azərbaycanın dünya bazarına çıxararaq satdığı “Azeri LT CIF” markalı xam neftin 1 barelinin qiyməti 1,41 dollar və yaxud 2,29% artıb. “Report” xəbər verir ki, “Azeri Light” markalı neftin bir barelinin qiyməti 62,89 dollar təşkil edib.**

Xatırladaq ki, “Azeri LT CIF” neftinin minimal qiyməti 2001-ci ilin dekabrında (19,15 dollar), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 dollar) qeydə alınıb.

# “Ləğv olunan qurumların işçiləri başqa vəzifələrə təyin ediləcək” - Əbülfəs Qarayev

**“Ləğv olunan qurumların işçilərinin nazirliyin tabeliyində olan digər qurumlarda müvafiq vakant vəzifələrə təyin edilməsi ilə bağlı tədbirlər görüləcək”.**

Mədəniyyət Nazirliyindən “Report”a verilən xəbərə görə, bunu nazir Əbülfəs Qarayev yanvarın 30-da keçirilən geniş müşavirədə deyib.



O bildirib ki, prezident İlham Əliyevin yanvarın 15-də imzaladığı “Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” fərmana uyğun olaraq, Mədəniyyət Nazirliyinin tabeliyindəki Mədəniyyətşünaslıq üzrə Elmi-Metodik Mərkəzin ləğvinin təmin edilməsi, nazirlik yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı işlər də həyata keçiriləcək.

**Nazir qeyd edib ki, həyata keçirilən islahatlar zamanı beynəlxalq təcrübədən istifadə olunması istiqamətində də zəruri addımlar atılacaq:** “Bu məsələ fərmanda da öz əksini tapıb. Biz xarici təcrübənin öyrənilməsi və ölkəmizdə tətbiq olunması istiqamətində Avropa İttifaqının Twinninq layihəsini həyata keçirmişik. Qarşımızda duran əsas məsələlərdən biri də hazırda qabaqcıl beynəlxalq təcrübəni öyrənib ölkəmizdə tətbiqini davam etdirməkdir”.

**Nazir vurğulayıb ki, aparılan islahatlar nəticəsində ölkənin mədəniyyət sahəsinin idarə olunması, mədəni xidmətlərin səviyyəsinin daha da artırılması və mədəni irsimizin təbliği istiqamətində yeni uğurlara nail olunacaq:** “Mədəniyyət Nazirliyi bu il də ölkədə keçiriləcək bir sıra nüfuzlu beynəlxalq tədbirlərin təşkilatçısı kimi çıxış edəcək. Bu tədbirlərin yüksək səviyyədə təşkili və ümumilikdə ölkəmizdə dövrün və zamanın tələblərinə cavab verən effektli mədəniyyət siyasətinin həyata keçirilməsi üçün prezident İlham Əliyevin yanvarın 15-də imzaladığı ”Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" fərman mədəniyyət sahəsində çalışan bütün əməkdaşların üzərinə böyük məsuliyyət qoyur".

**Ə.Qarayev sonda mədəniyyət sahəsində islahatların uğurla həyata keçirilməsi istiqamətində tapşırıq və tövsiyələrini verib.**

# İlkin hərbi qeydiyyata alınma proseduru asanlaşdırılır

**Azərbaycanda vətəndaşların ilkin hərbi qeydiyyata alınması zamanı sənədlərin təqdim edilməsi proseduru asanlaşdırılır.**

«Trend»in məlumatına görə, bununla bağlı “Hərbi vəzifə və hərbi xidmət haqqında” Qanuna dəyişiklik edilməsi nəzərdə tutulur.



Qüvvədə olan qanuna əsasən, hər il yanvar-mart ayları ərzində həmin il 15 yaşı tamam olan Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları yaşayış və ya olduğu yer üzrə müvafiq icra hakimiyyəti orqanında ilkin hərbi qeydiyyata alınmalıdırlar.

Bu zaman onlar müvafiq icra hakimiyyəti orqanına bir sıra sənədlərlə yanaşı, doğum haqqında şəhadətnamənin surətini də təqdim etməlidirlər. Lakin doğum haqqında şəhadətnamə ilə bağlı məlumatlar Ədliyyə Nazirliyinin elektron informasiya sistemində yerləşdirilib. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti isə bu sistemə inteqrasiya olunub.

Təklif edilən dəyişikliyə görə, doğum haqqında şəhadətnamə üzrə məlumatların elektron informasiya sistemindən əldə edilməsi mümkün olduğu hallarda həmin sənəd vətəndaşlardan tələb olunmayacaq. Dəyişiklik vaxta qənaət etmək, vətəndaş məmnunluğunu yüksəltmək, dövlət idarəçiliyinin səmərəliliyini artırmaq məqsədilə təklif edilir.

Məsələ Milli Məclisin fevralın 1-də keçiriləcək iclasının gündəliyinə daxil edilib.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.
**Telefon: (012) 434 93 01**

## Daha bir FETÖ-çü Azərbaycanda tutuldu, Türkiyəyə aparıldı

**Fətullahçı Terror Təşkilatının (FETÖ) Azərbaycandakı əlaqələndiricisi, hazırda bağlanmış “Zaman” qəzetinin Bakı mətbəəsinin sahibi İbrahim E. saxlanılıb.**

Virtualaz.org Türkiyənin “Hürriyet” qəzetinə istinadən xəbər verir ki, o, Türkiyə Milli Kəşfiyyat Təşkilatı (MİT) və Azərbaycan təhlükəsizlik əməkdaşlarının köməyi ilə Azərbaycanda saxlanılaraq Türkiyəyə aparılıb.

Mənbə yazır ki, haqqında daha əvvəl saxlanılma qərarı çıxarılan İbrahim E.-nin yeri təsbit edildikdən sonra bu barədə Azərbaycan tərəfi məlumatlandırıb. O, hər iki ölkənin xüsusi xidmət orqanları tərəfindən keçirilən əməliyyatda saxlanılıb və ötən həftə iki azərbaycanlı polisin müşayiəti ilə İstanbula yola salınıb.

Xatırladaq ki, ötən ilin iyun ayında Türkiyə hökuməti tərəfindən bağlanan müxalifətçi “Zaman” qəzetinin 4 sabiq əməkdaşı FETÖ ilə əlaqələrə görə İstanbul məhkəməsi tərəfindən müxtəlif müddətli həbs cəzalarına məhkum olunublar

Jurnalistlər Əli Bulac və Şahin Alpay 8 il 9 ay, onların həmkarları Müntəzir Nührənə və Mustafa Ünal 10,5 il dəmir barmaqlıqlar arxasında keçirəcəklər.

Xatırladaq ki, 2016-cı ilin iyulunda dövlət çevrilişinə cəhddən sonra “Zaman” qəzeti bağlanmış, 20-dən çox əməkdaşı isə həbs edilmişdi.

## Narkotik qəbul etdi, binanın girişində ölüb qaldı

**Sumqayıtda bina girişində kişi meyiti tapılıb. “Report”un Sumqayıt-Abşeron bürosunun xəbərinə görə, şəhərin 3-cü mikrorayonunda yerləşən binanın girişində bir nəfərin ölməsi barədə Sumqayıt Şəhər Polis İdarəsinə məlumat daxil olub.**

Araşdırma zamanı həmin şəxsin 1982-ci il təvəllüdlü Mirzəyev Səməd Rafael oğlu olduğu müəyyənləşib. Şəxsin qəbul etdiyi narkotik maddənin təsirindən dünyasını dəyişdiyi bildirilir.

Meyit müayinə olunması üçün aidiyyəti üzrə təhvil verilib.

Faktla bağlı araşdırma aparılır.

YENİ MÜSAVAT
N 23 (7193) 31 yanvar 2019

**Bu gün görkəmli dövlət xadimi, siyasətçi və publisist, Cümhuriyyətimizin qurucusu Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 135 ili tamam olur. Azərbaycan siyasi mühacirətinin liderlərindən sayılan M.Ə.Rəsulzadə 1884-cü ildə Bakının Novxanı kəndində anadan olub. O, ilk təhsilini rus-müsəlman məktəbində, sonra isə Bakı texniki məktəbində alıb.**

# Rəsulzadənin 135-ci doğum günü

## Cümhuriyyətimizin qurucusu Məhəmməd Əmin Rəsulzadə bu gün Novxanıdakı abidəsi önündə yad ediləcək



18 yaşında Azərbaycanda rus müstəmləkə üsul-idarəsinə qarşı gizli mübarizə aparan və ilk siyasi təşkilat sayılan Müsəlman Gənclik Təşkilatını qurub. Siyasi fəaliyyətinə görə, o, 24 yaşında vətəndən ayrılmaq məcburiyyətində qalıb. Beş ildən sonra Rəsulzadə vətənə qayıdır. Ölkədən kənarda olmasına baxmayaraq onun təşəbbüsü ilə 1911-ci ildə Müsavat Partiyası yaradılır. 1913-cü ildə ölkəsinə qayıdan Cümhuriyyətimizin banisi 1917-ci ilin oktyabrında Müsavat Partiyasının Bakıda keçirilən birinci qurultayında sədr seçilib.

Böyük dövlət xadimi yaşadığı 71 illik ömrün yarım əsrdən çoxunu daim xalqının və millətinin taleyindən narahatlıq duyulan əsərlər yazmağa həsr edib. Heç şübhəsiz ki, onun əsas şah əsəri 1918-cü il mayın 28-də silahdaşları ilə qurduğu Azərbaycan Xalq Cümhuriyyətidir. Qısa ömür sürən bu dövlət 1920-ci ilin aprelində sovet qoşunlarının müdaxiləsi ilə süqut edib. Elə həmin il M.Ə.Rəsulzadə Qırmızı Ordunun əsgərləri tərəfindən İsmayıllının Lahıc kəndində həbs olunur. 1922-ci ildə isə Rəsulzadə SSRİ sərhədlərini həmişəlik tərk edir.

1932-ci ildən M.Ə.Rəsulzadənin fəaliyyətinin Avropa dövrü başlayır. Bu illərdə o, Almaniyada "İstiqlal" qəzetini, "Qurtuluş" jurnalını nəşr etdirir, Polşada isə milli Azərbaycan nəşriyyatını yaradıb polyak dilində "Azərbaycan müstəqillik uğrunda mübarizədə" kitabını çap etdirir. 1934-cü ildə M.Ə.Rəsulzadə bütün mühacirləri bir araya gətirmək istiqamətində də çalışır, hamını Azərbaycanın müstəqilliyi probleminin həlli mücadiləsinə çağırır.

İkinci Dünya müharibəsi dövründə isə M.Ə.Rəsulzadə minlərlə əsir düşmüş azərbaycanlı həmvətənini xilas edir, almanlarla danışıqlar aparır. Burada onun əsas məqsədi Azərbaycanın müstəqilliyinin Almaniya hökuməti tərəfindən qəbul edilməsi olub. 1943-cü ilin avqustunda isə Almaniyanın Azərbaycanın müstəqilliyinə və ayrı-ayrı xalqların azadlığına saygı göstərmədiyinə əmin olub bu ölkədən uzaqlaşır.

İkinci Dünya müharibəsindən sonra bir müddət Almaniyanın ABŞ-ın nəzarətində olan hissəsində yaşadıqdan sonra 1948-ci ildə Türkiyəyə qayıdır. 1949-cu ildə Ankarada Azərbaycan Kültür Dərnəyini yaradır, azərbaycanlıları bir təşkilat ətrafında birləşdirir. 1952-ci ildə M.Ə.Rəsulzadənin birbaşa rəhbərliyi ilə "Azərbaycan" jurnalı nəşr edilməyə başlayır. Bu illərdə o, başda ABŞ dövləti olmaqla, Qərbin SSRİ-yə qarşı yürütdüyü "soyuq müharibə" proqramına dəstək verir, "Amerikanın səsi", "Azadlıq" radiolarında sovet dövlətini və kommunist rejimini tənqid edir.

M.Ə.Rəsulzadə 1955-ci il martın 6-da Türkiyənin Ankara şəhərində vəfat edib, onu "Əsri" məzarıstanlığında dəfn ediblər. M.Ə.Rəsulzadə 71 yaşında dünyadan köçərkən son olaraq üç dəfə "Azərbaycan, Azərbaycan, Azərbaycan!" sözlərini işlədib.

1993-cü il yanvarın 13-də Azərbaycan Respublikası Nazirlər Kabineti M.Ə.Rəsulzadənin abidəsinin layihələşdirilməsi və ucaldılması barədə qərar qəbul edib. O vaxt qərarın icrası Mədəniyyət Nazirliyi, Rəssamlar İttifaqı və Bakı Şəhər İcra Hakimiyyətinə tapşırılıb. Həmin qərardan sonra Mədəniyyət Nazirliyi hətta görkəmli heykəltəraş Ömər Eldarova müraciət edərək heykəlin layihəsinin hazırlanmasını ona həvalə edib. Daha sonra nazirlik Bakı İncəsənət Mərkəzi ilə müqavilə bağlayıb, heykəlin işçi modeli və layihəsi üçün müvafiq məbləğ də ödəyib. Lakin iş elə bu mərhələdəcə yarımçıq qalıb. 1993-cü ildə Rəsulzadəyə qoyulacaq heykəl üçün hətta Rusiyadan baha qiymətə mərmər daşları da alınıb gətirilib. Həmin daşlar bir müddət Ö.Eldarovun emalatxanasında saxlanıldıqdan sonra başqa iş üçün istifadə edilib.

M.Ə.Rəsulzadəyə Bakıda heykəl qoyulması məsələsi bir də 1993-cü ilin dekabrında yada düşüb. Həmin vaxt mərhum dövlət başçısı Heydər Əliyev Rəsulzadənin 110 illik yubileyinin təntənəli şəkildə qeyd olunması məqsədilə sərəncam verib. Sözügedən sərəncamda M.Ə.Rəsulzadəyə Bakıda heykəl qoyulması, onun əsərlərinin nəşri, vaxtilə yaşadığı evin muzeyə çevrilməsi, Novxanıdakı bağ evinin onun varislərinə qaytarılması nəzərdə tutulub. Amma ötən illər ərzində aidiyyəti qurumlar bu sərəncamın da müddəalarını yerinə yetirməyib.

Cümhuriyyət xadiminə heykəl qoyulması üçün dəfələrlə Bakı Şəhər İcra Hakimiyyətinə müraciət edilib. Amma hər dəfə meriyadan verilən cavabda bildirilib ki, heykəlin qoyulmasına guya maliyyə vəsaiti yoxdur.

2013-cü il noyabrın 22-də isə prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin banisi Rəsulzadənin 130 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

Qeyd edək ki, hər il olduğu kimi, bu il də Azərbaycan müxalifəti Cümhuriyyətimizin xadiminin Novxanıdakı abidəsinə ziyarətlər təşkil edəcək.

Klassik Xalq Cəbhəsi Partiyası saat 11:00-də abidəni ziyarət edəcək. Bu gün Müsavat Partiyası və Milli Şura da Rəsulzadənin abidəsinə ziyarət təşkil edəcəklər.

Azərbaycan Xalq Hərəkatının isə ziyarət planı olmasa da, hərəkat böyük zalda tədbir keçirməyi planlayır. Tədbirdən sonra hərəkat İstiqlal abidəsini ziyarət edəcək.

❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

# Cümhuriyyət banisinin günü



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Yanvar ayı müasir tariximizə təkcə müdhiş 20 Yanvar hadisələri ilə düşməyib. Bu ay bizə Məhəmməd Əmin Rəsulzadə kimi bir dühə, böyük şəxsiyyət də bəxş edib. Rəsulzadə şəksiz ki, Azərbaycanın ən parlaq, ən nurlu və şərəfli ömür yolu keçmiş simalarındandır. Dünyadakı bütün azərbaycanlılar üçün bir "tanınma nişanı", "brend"dir.**

Əmin olun ki, M.Ə.Rəsulzadənin rəhbərliyi ilə Azərbaycan Xalq Cümhuriyyəti (AXC) qurulmasaydı, SSRİ tərkibində Azərbaycan SSRİ kimi müttəfiq respublika, demək, indiki müstəqil dövlətimiz də olmayacaqdı. Ən yaxşı halda biz Rusiyanın tərkibində Tatarıstan, Dağıstan kimi muxtar qurum qismində qalacaqdıq.

Yoxdan bayraq və dövlət yaradan, Azərbaycanın imperiya Rusiyasından müstəqilliyinin bünövrəsini uğurla qoyan Rəsulzadənin bu misilsiz xidməti və tarixi fədakarlığı xalqın onu əbədiyyən minnətdarlıqla yad eləməsi üçün kifayətdir.

Bu gün sayəsində azad dövlətdə yaşadığımız həmin o insanın - istiqlal memarının doğum günüdür. Müsəlman Şərqində ilk demokratik respublikanın banisi, yeni tarixdə Azərbaycan adına ilk dəfə siyasi don biçib ona dünya xəritəsində dövlət statusu qazandıran bu işıqlı insanın dünyaya göz açmasından 135 il ötür.

Fəqət, illər ötdükcə M.Ə.Rəsulzadə bizdən uzaqlaşmır. Əksinə, yaxınlaşır, bizə daha doğma olur. Onu yanımızda, içimizdə daha çox hiss edirik. Yəqin o səbəbə ki, Rəsulzadə işığına ehtiyacımız getdikcə artır...

Rəsulzadə, bişəkk, dəyərdir. Novxanıdakı barelyef rəzaləti də Rəsulzadəni dəyər kimi bizə növbəti dəfə anlatdı. Söhbət təkcə onun barelyefinin oğurlanması kimi biabırçı olaydan getmir. Həm də təzə barelyefin hazırlanmasında yol verilən bağışlanmaz xətadan, "Azərbaycan Xalq Cümhuriyyətinin banisi" sözlərinin ixtisara salınmasından gedir. Qəsdən, yoxsa nadanlıqdan? Bu, qalıb barelyefi yeniləyənlərin və bu işə rəhbərlik edənlərin vicdanına.

Ancaq ixtisar qəsdən edilibsə də, bu cılızlıq Rəsulzadə əzəmətindən heç nə apara bilməz...

Nə xoş ki, müstəqilik dövründə doğulan gənc nəsil də M.Ə.Rəsulzadəni yaxşı tanıyır. Onun böyüklüyündən xəbərsiz böyümür. Təbii ki, bunda da ya məktəbin, ya da Rəsulzadəsevər ailələrin və valideynlərin müstəsna rolu var.

Rəsulzadə sadə həyat tərzi keçirdiyi qədər milyonlara örnək olacaq ömür sürmüş əzəmətli bir şəxsiyyətdir. Deyirlər, dünyasını dəyişəndə onun otağından çıxan ən qiymətli əşya üçrəngli bayrağımız olub.

M.Ə.Rəsulzadə hələ yüz illər boyu bu xalqın karına gələcək zəngin irs, bu milləti uğura apara biləcək "Yol xəritəsi" qoyub.

Onun ən böyük əsəri isə əlbəttə ki, cəmi 23 ay yaşayan AXC idi. Özünün dediyi kimi, "xalqa heç olmasa azca azadlıq dadızdırdı" həmin 23 ayda. Ancaq bu dad "damaq"dan 70 il getmədi və Azərbaycan xalqı təzədən öz müstəqilliyinə qovuşdu.

Həmin o azadlıq naminə Rəsulzadə şəxsi və ailə xoşbəxtliyindən, rahatlığından, ciyərparalarından keçdi. Sürgün həyatını Stalinin təklif elədiyi rahat, lakin miskin həyatdan üstün tutdu. Fəqət "Azərbaycan" adlı andına zərrəcə xilaf çıxmadı. İstiqlal banisi kimi gəldi, istiqlal şəhidi kimi dünyadan köç elədi. Allahın həm bioloji, həm də siyasi ömür payını şərəflə yaşadı.

İndi də yaşayır - milyonların, on milyonların könlündə. Üçrəngli bayrağımız var olduqca Rəsulzadə də, onun xalqın qəlbindəki abidəsi də daim yaşayacaq. Bu yerdə şairin öndər haqda aşağıdakı sözlərinə əlavə eləməyə, bizcə, heç nə qalmır:

***"Əzilməz xalqın kökü, dərindədir, dərində,***
***Zaman çəkib oturdar hər kəsi öz yerində,***
***İllər gəlib keçsə də, sən xalqın nəzərində***
***Yenə həmin oğulsan, yenə də həmin Kişi!***
***Bu böyük həqiqətə əmin ol, əmin, Kişi!.."***

YENİ MÜSAVAT
N 23 (7193) 31 yanvar 2019







**Yanvarın 30-da Dövlət Gömrük Komitəsinin yaradılmasından 27 il ötür. Musavat.com xəbər verir ki, gömrük əməkdaşları ilk olaraq Fəxri Xiyabana gələrək mərhum prezident Heydər Əliyevin və görkəmli oftalmoloq alim Zərifə Əliyevanın xatirələrini ehtiramla yad edib, məzarları önünə əklil qoyublar. Daha sonra Şəhidlər Xiyabanı ziyarət olunub.**

# Gömrük Komitəsinin sədrindən yeni açıqlamalar



## Səfər Mehdiyev: "Tamahını idarə edə bilməyənlər bizim aramızdan gedəcək"



Tədbir Dövlət Gömrük Komitəsinin inzibati binasında davam edib. Komitədə keçirilən tədbirdə çıxış edən **Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiye**v bildirib ki, 2018-ci il islahatların yekunlaşdığı il olaraq tarixə düşəcək: "Belə ki, ötən il gömrük sisteminin strukturu yeniləndi. Polis nəzarət funksiyasından xidmət funksiyası strukturuna keçildi. Ötür-ötür xidməti və bu fonda baş verən təkrarlanmalar artıq ortadan qaldırıldı. Kadrların düzgün seçilməsi ilə bağlı attestasiya keçirildi. Ötən il büdcəyə 1 milyard vəsait köçürülüb. 1 ton 200 kq olan narkotikin aşkarlanması qaçaqmalçılıq sahəsində ən böyük uğurlarımızdan biridir. Xidmətdə çalışan işçilərin sosial rifahının yaxşılaşdırılması nəticəsində gömrük əməkdaşlarının məvacibi artırıldı. Biz gömrük sistemində şəffaflığın təmin olunması üçün gecə-gündüz fəaliyyət göstərəcəyik və dövlət başçısının tapşırıqlarını sonuna kimi yerinə yetirəcəyik.

Korrupsiya və rüşvətxorluğa qarşı mübarizə davam edəcək. Gömrük əməkdaşlarının bəziləri ötən il cinayət məsuliyyətinə cəlb edildi. Onlar iclaslarda xəbərdarlıqlarımıza baxmayaraq, gömrük andına sadiq qalmadılar və bu işə xələl gətirdilər. Biz bu sahədə qəti addımlarımızı bu il də atacağıq. Tamahını idarə edə bilməyənlər bizim aramızdan gedəcək, özü də çox pis şəkildə gedəcək. Sahibkarlara da müraciət olunub ki, əməkdaşlarımızı korrupsiyaya və rüşvətə cəlb etməsinlər. Sahibkarların rüşvət təklifləri ilə bağlı xüsusi əməliyyatlar keçiriləcək. Sahibkarlar bu cür hallardan əl çəkmək istəmir. Cari ildə də belə faktlar mövcuddur. Bu sahədə ciddi tədbirlər keçiriləcək və icraçılar aidiyyəti qurumların rəisləri olacaq".

**Daha sonra məruzə nitqi ilə çıxış edən DGK sədrinin birinci müavini İsmayıl Hüseynov bildirib ki, 2018-ci ildə dövlət büdcəsinin gəlirlər hissəsinin formalaşmasında xüsusi rola malik olan Dövlət Gömrük Komitəsi idxal-ixrac əməliyyatları üzrə vergitutma bazasını düzgün müəyyənləşdirməklə büdcəyə 3 milyard 434 milyon manat gömrük ödənişlərinin köçürülməsini təmin edib:** "İlin əvvəlində nəzərdə tutulan proqnozla müqayisədə 1 milyard 4 milyon manat və ya 141 faiz artıq gömrük vergi və rüsumları toplanaraq dövlət büdcəsinə köçürülüb. 2018-ci ilin iyun ayında illik büdcə proqnozunun dürüstləşməsi zamanı Dövlət Gömrük Komitəsi üçün əlavə olaraq 760 mln. manat büdcə öhdəliyinin müəyyənləşdirilməsini nəzərə alsaq, bütövlükdə 3 mlrd. 190 mln. manat proqnoza qarşı müqayisədə faktiki olaraq 244 mln. manat və ya 107,6 faiz artıq gömrük ödənişləri dövlət büdcəsinə köçürülüb.

Hesabat dövründə ticarət dövriyyəsi 2017-ci illə müqayisədə 28.3 faiz və ya 6 milyard 821 milyon dollar artaraq 30 milyard 924 milyon ABŞ dolları təşkil edib. İxracın həcmi 27 faiz artmaqla 19 milyard 460 milyon dollar, idxalın həcmi isə 30.5 faiz artaraq 11 milyard 465 milyon ABŞ dolları olub. 2017-ci illə müqayisədə 2 milyard 682 milyon ABŞ dolları məbləğində artan idxalın həcminin heç də hamısı vergitutma bazası olmayıb. Aparılan təhlillərin nəticəsi olaraq qeyd etmək lazımdır ki, artan idxalın tərkibində Dövlət Neft Fondu və Mərkəzi Bank tərəfindən imtiyazlı qaydada idxal olunan 803.0 milyon dollar həcmində qızıl külçələr, eyni zamanda müxtəlif təsərrüfat subyektləri tərəfindən ölkə ərazisinə gətirilmiş 300 milyon dollar məbləğində avadanlıq, mexaniki qurğular və digər imtiyazlı mallar təşkil edib. Bununla yanaşı, idxalın dövriyyəsinin tərkibində vergitutma bazası olan 1 milyard 200 milyon dollar məbləğində artıma səbəb isə qanunvericiliyə uyğun qaydada malların real qiymətləndirmə əsasında düzgün dəyərləndirilməsi olub.

Hesabat ilində gömrük sistemində həyata keçirilən ən mühüm islahatlardan biri kimi malların və nəqliyyat vasitələrinin qeydiyyatının "bir pəncərə" prinsipinin həyata keçirilməsi üzrə "Bir inspektor - bir nəqliyyat vasitəsi", təyinat gömrük orqanlarında isə "Bir inspektor-bir bəyannamə" pilot layihələrinin tətbiqinə başlanılıb. "Yaşıl dəhliz" və digər buraxılış sistemlərindən istifadə edilməsi ilə bağlı mövcud qanunvericiliyin təkmilləşdirilməsi əsas hədəflərdən biri olub".

**Sədr müavini bildirib ki, hesabat ilində gömrük sistemində aparılan struktur dəyişiklikləri ilə əlaqədar kadr potensialından səmərəli şəkildə və uyğun olan sahədə istifadə olunması işi həyata keçirilib:** "Belə ki, 382 nəfər işə qəbul edilib, 445 nəfər əməkdaş işdən azad olunub, 417 nəfər tutduğu vəzifədən yüksək vəzifəyə təyin edilib, 58 nəfər isə tutduğu vəzifədən aşağı vəzifəyə keçirilib. Eyni zamanda bildirmək istərdim ki, aparılan və kadr islahatlarının davamı olaraq Dövlət Gömrük Komitəsi sistemində kadrların düzgün seçilməsi, yerləşdirilməsi, vəzifəli şəxslərin tutduğu vəzifəyə uyğun gəlib-gəlmədiyinin müəyyənləşdirilməsi, onların potensial imkanlardan istifadə etmək mümkünlüyünün aşkara çıxardılması və peşə səriştəliliyinin artırılmasının stimullaşdırılması məqsədilə müvafiq qanunvericiliyə uyğun olaraq 1446 əməkdaşın komitə sədrinin müvafiq sərəncamı ilə attestasiyası keçirilib.

Hesabat dövründə gömrük orqanlarına xidmətə qəbul üçün müraciətlər əsasında təşkil olunmuş test imtahanlarında 1342 nəfər iştirak edib. Təsdiq olunmuş qaydalara uyğun olaraq, 294 nəfər daha yüksək bal toplayanlar növbəti müsabiqə mərhələsinə buraxılıb, müsabiqədən keçənlər aidiyyəti üzrə vakant vəzifələrə təyin olunub. Araşdırmalar zamanı aşkar edilmiş xidməti pozuntulara yol verdiklərinə görə 316 gömrük orqanı əməkdaşı intizam məsuliyyətinə cəlb edilib. Bunlardan 15 nəfər gömrük orqanlarından xaric edilib, 5 nəfər tutduğu vəzifədən azad edilib, 6 nəfər aşağı vəzifəyə keçirilib, 5 nəfərin xüsusi rütbəsi bir pillə aşağı salınıb, 68 nəfərə sonuncu xəbərdarlıqla şiddətli töhmət, 171 nəfərə töhmət elan edilib, 46 nəfərə irad tutulub".

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**
**Fotolar müəllifindir**

# Qarabağdan olan deputatdan həmsədrlərə sərt sözlər

## Flora Qasımova: “"ATƏT Ermənistana hansı təzyiqi göstərib ki, ya müharibə olmalıdır, ya da..."

**Qarabağ problemi bütün Azərbaycanın dərdidir. Burada müxalifət və iqtidar yoxdur. Ona görə bəzən fikirlər səslənir ki, hakimiyyət Qarabağa azadlıq tələbi ilə özü mitinqlər təşkil etsin, cəmiyyətin bütün zümrələri təşviq olunsun, daha böyük izdiham yaşansın. Necə ki, 2012-ci ildə hakimiyyət Bakıda Xocalı abidəsinə 100 minlik yürüş təşkil etmişdi.**

Eləcə də Qarabağ münaqişənin həlli tələbi ilə bu yürüşlər və ya mitinqlər keçirilməsi mümkündür. Yeri gəlmişkən, həm Qarabağ Komitəsi, həm oradakı partiyalar hakim partiyanı mitinqdə iştiraka çağırır, bu məsələnin Azərbaycanın ümummilli problemi olduğunu bəyan edirlər. Yəni hər hansı siyasi şüarlar səsləndirilmir, hökumət əleyhinə tələblər irəli sürülmür. Hətta komitənin ilk mitinqinə YAP-dan müəyyən dəstək mesajları da olmuşdu.

Ancaq haqq səsimizi dünyaya ucaltmaq, beynəlxalq aləmin bu konfliktin həllində fəaliyyətsizliyinə etiraz etmək üçün birgə mitinqə zərurət var. Çünki nə ATƏT, nə ABŞ, nə də Qərbin ayrı-ayrı dövlətləri Dağlıq Qarabağ münaqişəsinin həlli üçün ciddi səylər göstərməyiblər.



**Xankəndindən olan deputat Flora Qasımova** "Yeni Müsavat"a bildirdi ki, bu məsələlərdən prezident daha məlumatlıdır və bizim hər hansı iradımız ola bilməz: "Hansı iradımız ola bilər? Bu gün Azərbaycan ordusu güclü ordular siyahısında yer alıb. Halbuki bir vaxtlar silah tapmırdıq. Ancaq dünya qəbul edir ki, bu gün Azərbaycanın hərbi gücü nəyə qadirdir. Eyni zamanda prezidentin iqtisadi siyasəti, regional layihələri həyata keçirməsi məhz Azərbaycanın güclənməsidir. Azərbaycanın bu illər ərzində müharibə aparmağa gücü çatardı. Apreldə bu gücü nümayiş etdirdik. Sadəcə, beynəlxalq münasibətləri nəzərə aldıq, dünyadakı güclərin ermənilərə dəstək olmasını hesabladıq. Amma bu müddətdə ATƏT-in Minsk Qrupunun gördüyü iş faydasızdır".

**Xanım deputat hesab edir ki, ATƏT bu müddətdə Ermənistanın beynəlxalq hüquq pozuntusuna yol verməsinə görə təzyiqlər göstərməyib:** "Qarabağa aid olmayan xaç abidəsi qoyublar, erməni kilsəsi tikiblər. Bunu ediblər ki, gələcəkdə desinlər bu ərazilər erməninin olub. Ancaq ATƏT Ermənistana hansı təzyiqi göstərib? Bu tikintiləri niyə edirsiniz? Xocalının adını İvanyan qoyublar. Axı o qətliamda günahsız ölən körpələrin ruhu Xocalıda gəzir. Amma şəhərin adını dəyişiblər, ATƏT bunun qarşısını almır. Ümumiyyətlə, ermənilərin Qarabağda fəaliyyətinə nəzarət edən yoxdur, beynəlxalq təşkilatlarda bu məsələlər qaldırılmır, göz görə-görə talana şahidlik edirik. Amma dünyada yenə erməninin səsi bərk çıxır".

**Deputat onu da bildirdi ki, Qarabağ münaqişəsi artıq regional məsələyə çevrilib:** "Mən xarici politoloqların şərhlərin oxuyuram, deyirlər ki, münaqişənin həlli çətindir. Bu gün doğrudan çətindir, illər əvvəl bəlkə bu dərəcədə çətin olmazdı. Ona görə ya müharibə olmalıdır, ya da ATƏT Ermənistanın Qarabağda etdikləri barədə hesabat hazırlamalıdır, çünki ermənilər beynəlxalq hüququ tanımırlar. Köçəryan deyir ki, Dağlıq Qarabağ 1988-ci ildə özünü müstəqil elan etmişdi. Bax belə yalanlar danışırlar. Azərbaycanın əraziləri 114 min kvadrat olub. O baxımdan gənclərimiz fəal olmalıdırlar. Əgər sülhə hazırıq deyiriksə və onlar bu dəfə də imtina etsələr, artıq bilmirəm necə olacaq. Biz tək 5 rayon üçün yox, Laçının, Kəlbəcərin azad olunması üçün çalışmalıyıq. Ümumiyyətlə, Qarabağ məsələsi ilə bağlı mürəkkəb vəziyyətdir, müxtəlif dövlətlərin maraqları var. Bu, təkcə Azərbaycan və Ermənistan xalqlarının məsələsi deyil".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

# İsgəndər Həmidov Sevinc Osmanqızı ilə qalmaqalı barədə danışdı

## "Onun rişxəndlə gülməsi mənə çox pis təsir etdi"

**Amerikada yaşayan jurnalist Sevinc Osmanqızı ilə sabiq daxili işlər naziri, Azərbaycan Xalq Hərəkatının yaradılmasının təşəbbüskarı, AMDP sədri İsgəndər Həmidov arasında son günlərdə yaranan qalmaqal səngimək bilmir. Qalmaqalın yaranmasına səbəb xanım jurnalistin internet üzərindən yayımlanan verilişinə İ.Həmidovu qonaq qismində çağırması və veriliş zamanı ona ünvanlandığı suallardır.**

Yarım saatlıq verilişdə S.Osmanqızı tərəf kimi daha çox görünüb və açıq şəkildə AXH-ni hədəf alıb. Bu azmış kimi, verilişdən sonra o, müsahibəni sabiq nazirin 1993-cü ildə insident yaşadığı və kadrlara düşən bir videosu ilə paylaşıb və başlığa "Davakar İsgəndər Həmidov" yazıb. Bütün bunlardan sonra S.Osmanqızının jurnalist etikasını pozduğu barədə sərt qınaqlar, etirazlar səslənməyə başlayıb. Öz həmkarları onu daha çox qınayıblar.

**Qalmaqalla bağlı "Yeni Müsavat"a danışan sabiq nazir bunun onun üçün gözlənilməz olduğunu söylədi:** "Açığı, Sevinc xanım verilişə dəvət edəndə düşünürdüm ki, son zamanlar ölkədə baş verənləri müzakirə edəcəyik. Belə vəziyyətin yaranacağını təsəvvür etməzdim. Amma ilk suallarından başa düşdüm ki, bu insan haradansa 5-10 sual əzbərləyib. Gözləməzdim ki, belə olsun. İstənilən halda canlı yayımı tərk etməzdim. Bir də niyə tərk etməliydim ki? Nədən qorxuram, yaxud çəkinirəm? Çəkinəcəyim heç nə olmadığı üçün rahat idim. Onu da düşündüm ki, növbəti suallarda yəqin hər şey düzələr. Öz sözümü dedim. Nə qədər sual versəydi, hamısına cavabım var idi. Verdiyim cavablara göstərilən reaksiyalar da pis deyil. Sevinc xanımın sifariş yerinə yetirdiyini dəqiq deyə bilmərəm. Amma onda Azərbaycan Xalq Hərəkatına qarşı bir qısqanclıq gördüm. Özü də çox böyük qısqanclıq idi. Sanki bu hərəkatın yaranması kimlərisə narahat edir. Bu narahatlıq da yəqin ki, iqtidarda olar. Başqa kimlərdə olsun ki? Sevinc xanımın Milli Şura, konkret olaraq Əli Kərimlinin sifarişini yerinə yetirdiyi barədə fikirlərə rast gəlirəm. Amma mən bunu hiss etmədim, hiss edə də bilməzdim. Açığı, mənə daha çox elə gəldi ki, o, iqtidarın tapşırığını yerinə yetirir. Çünki onun suallarında iqtidarın narahatlığı daha çox hiss olunurdu. Onu dedi ki, 19 yanvardakı mitinqə Xalq Hərəkatı alternativ deyildi. Hərəkat zatən həmin mitinqdən öncə yaranmışdı. Çağırış edib o mitinqə qoşuldum və çıxış da etdim. Canlı yayımda isə bildirdim ki, biz heç kəsə, heç bir quruma qarşı alternativ hərəkat yaratmırıq. Bizim məqsəd və məramımız ölkəmizdə demokratik düşərgəni dəstəkləmək və demokratik cəmiyyət yaratmaqdır. Canlı yayımda nələri hiss etdimsə, onu da dedim".



İsgəndər Həmidov

**İ.Həmidov S.Osmanqızının canlı yayımın videosunu paylaşarkən əvvələ və axıra "Davakar İsgəndər Həmidov" başlıqlı təqdimatına da münasibət bildirdi:** "Onun özünə dedim ki, əgər Azərbaycanda bütün bəlalar, çatışmazlıqlar mənim bir insidentimə görədirsə, özümü Xəzər dənizinə atmağa hazıram. Sevinc xanım bilmədi ki, hansı bostana girir sonu necə olacaq... Hər kəsə müraciət edirəm ki, o, xanımdır, çox üstünə getməyin. Onun düşüncəsi elədirsə, olsun. Onun nə üçün belə etdiyini hələ də düşünürəm və səbəbini anlaya bilmirəm. 10 ildə məni tapmamışdı, indi birdən-birə axtarıb tapıb, verilişə çıxarıb, belə suallar verməyi gözlənilməz oldu. Sevinc xanımla indiyə qədər aramızda heç bir soyuqluq olmayıb. Sevinc xanımın rəhmətlik atası Ayaz Mütəllibovun mətbuat xidmətinin rəhbəri idi. Allah ona rəhmət eləsin. Onun atası ilə aramızda ciddi bir soyuqluq olmayıb. Sadəcə, biz Xalq Cəbhəsində idik, Ayaz Mütəllibov isə iqtidar idi. Ayaza deyilən hər bir sözü Sevinc xanımın atası sanki öz üzərinə götürürdü. Sizləri tam əmin edirəm k, Sevinc xanımın suallarının o məsələlərə heç bir dəxli yoxdur. Sadəcə, sualları ancaq Xalq Hərəkatının yaranmasından doğan narahatlıqla bağlı idi. Çünki sualların hamısı Xalq Hərəkatının üzərində qurulmuşdu. Bu hərəkata görə narahat olanları isə anlamaq, sadəcə, çətindir. İqtidarın narahatlığı anlaşılandır. Sevinc xanımda yaranan narahatlığın səbəbi ondan soruşulsa daha yaxşı olar. Çünki ən doğru cavabı o verər. Jurnalist etikası baxımından Sevinc xanımın bu davranışlarını mətbuat təmsilçiləri dəyərləndirsələr daha düzgün olardı. Onun 71 yaşlı kişiyə belə suallar verərək, rişxəndlə gülməsi, açığı, mənə çox pis təsir etdi. Amma bu da Sevinc Osmanqızının öz şəxsi işidir. Eşitdiyim və bildiyim qədəri ilə jurnalistlərdən çoxu ona öz iradlarını bildiriblər. İstənilən halda, xanımdır, qürbətdə yaşayır. Allah köməyi olsun".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Müxalifətin daha bir toplantısına daha bir sözardı...



**Hüseynbala SƏLİMOV**

**Əslində unudulmuşların özlərini bir daha xatırlatması, hətta siyasi meyitlərin təkrar siyasi səhnəyə qayıtması üçün hazırda xeyli "şirnikləndirici şərait" yaranıbdır. "Sarı jiletli"lərin Avropanı bürümüş etirazlarından tutmuş uzaq Venesuelada Nikolas Maduroya və hətta bu yaxınlarda Bakıda səfərdə olmuş yoldaş Emmerson Mnanqvaya qarşı Afrika Zimbabvesində başlamış siyasi etirazlar kimi geniş etiraz dalğası bürüyübdür dünyanı.**

Hələ onu demirik ki, hörmətli C.Soros da son illərdə profilini bir qədər dəyişibdir, müxtəlif ölkələrin iqtisadiyyatını qarşıdırmaqdan bu və ya digər dövlətlərdə siyasi qarşıdurmalar və ya "rəngli inqilablar" törətmək sahəsində ixtisaslaşmağa başlayıbdır.

Bir sözlə, indi dünyada kardinal dəyişikliklərə tələb artıbdır, odur ki, qəti təəccüblənmək lazım deyil ki, hətta ən ağlagəlməz ölkələrdə belə onlara "adekvat təkliflər" və xidmətlər müşahidə olunmağa başlayıbdır.

Dünyanın kiçik bir parçası olsaq da, əlbəttə ki, bizləri daha çox Azərbaycan düşündürür. Burada da son aylarda ötən on illiklər ərzində tamamilə qəlpələnmiş, xırdalanmış müxalifət qalıqlarını yenidən bir araya gətirmək və hətta "birləşdirmək" meylləri sezilir.

Sözsüz ki, adicə toplantılar və bu toplantılarda meydana çıxan yeni adlar və abreviaturalar hələ təlaşlanmaq üçün əsas vermir.

Bir tərəfdən, bunlar da - bəli, kimlərlə oturub-durmaq məsələsi və ya özünə hansı adı qoymaq da "müxalifətçi" adlanan insanların konstitusion haqqıdır və gözəl konstitusiyamız düz üç dəfə dəyişsə də hələki heç kim bu haqqı onların əlindən almayıbdır.

Digər bir tərəfdənsə, geniş spektrdə götürəndə Azərbaycanda nəinki güclü etirazlar, hətta hiss olunacaq siyasi etiraz dinamikası üçün zəmin görünmür. Üstəlik, bu vaxtadək müxalifətin onlarla çeşidli siyasi adlar və ya formatlar yaratmasının şahidi olmasaydıq, ən başlıcası da bu yeni adlar altında təzədən "siyasi meydana" qayıdan adamları tanımasaydıq, bəlkə də hansısa fikrə düşə bilərdik, amma adlar da biz də tanışdır və bu adların arxasında qərar tutan personalar da...

Ən maraqlısı budur ki, daha fərasətli və daha böyük siyasi alverçilər haləki müxalifət qalıqlarının yenicə təsis etdiyi "xalq hərəkatının" çətiri altına yığışmağa tələsmirlər. Bunun bir səbəbi onların köhnə mərəzi ola bilər - ya böyük alverçilər böyük birlikləri öz ətraflarında görməyə alışıb, ya da onları çəkindirən hansısa başqa məqamlar var. Bütün hallarda, çox tez zamanda "yeni hərəkat"ın yaranma motivləri bizə də aydın olacaqdır.

İndilik isə yalnız onu demək olar ki, bunların qulağına kimsə nəsə pıçıldayıb. Amma kim pıçıldayıb və nə pıçıldayıb - etiraf edirik ki, hələ bizim üçün qaranlıqdır bu məsələ.

Amma tamam mümkündür ki, biz yenə tanış sindromun təkrar təzahürünü müşahidə edirik - vaxtilə Gürcüstanda, sonra Ukraynada, daha sonra ərəb ölkələrində baş verən rəngli siyasi təlatümlər və rəngli fəsillər müxalifətimizi qanadlandırdığı kimi yenə də haradasa baş verən hansısa bir olay bunları yerindən oynadıbdır.

Həm də açığı maraqlı deyil bizim üçün. "Xalq hərəkatı"nın təsis toplantısından fotoları nəzərdən keçirməklə özümüzdə yeni "hərəkat"la bağlı təsəvvür yaratmağa çalışdıq.

Amma tez də məyus olduq. Orada qəti yeni sima görmədik; fotolardan on illərlə gözümüzü qabar etmiş simalar baxırdı bizə...

Qərəz, yenə köhnə simalar və ya şüarlar, bəyanatlar! Odur ki, bu adamların sayəsində yaranan "təşkilat"ın nəyəsə qadir olduğunu zənn etmək üçün gərəkdir ki, tamamilə irrealist-sürrealist bir adam olasan.

Bunun özü də haradasa təskinlikverici bir məqamadır, amma rusların qədim bir məsəli var: ağılsızlıq hələ dözüləsi haldır, amma təşəbbüskar ağılsızlar artıq təhlükədir...

Fəqət, düşünmürük ki, bu adamlar hətta "güclü təhlükə" yaratmaq iqtidarında olsunlar. Bir daha deyirik ki, ortada bir alver predmeti var və ola bilsin ki, lap yaxın günlərdə peşəsi müxalifətin daha "əzəmətli və böyük birliklər"ini yaratmaq olan bəzi alverçi fərdlər də işə başlayacaq, çünki deyəsən, ortada qazanc imkanı var...

Amma neçə illər bundan əvvəl müxalifət düşərgəsindəki olayları siyasi kombinatorika kimi səciyyələndirmişdik, di gəl ki, onlar bundan hansısa nəticə çıxarmadılar - ya kombinatorika nə olduğunu bilmirlər, ya da ki, bacardıqları budur.

Odur ki, bir daha, təkrar ərz edirik. Qardaşlar, "yeni" siyasi adlar tapmaq, hətta bunları elan etmək üçün siyasi məkan tapmaq elə də çətin məsələ deyil, ən çətini bunlar üçün siyasi dəstək tapmaqdır. Bunu isə siz heç vaxt bacarmamısınız və indi də bacarmırsınız. Bircə anlığa adi bir sual üzərində yaxşı - yaxşı düşünün: sizin toplantınızdan fotolara baxan hansısa bir adam yenidən arxanızca düşərmi?..

Demirəm ki, bugünkü Azərbaycanda hər şey tamam-kamal əladır, hətta yaxşıdır - yox, o qədər problem var ki...

Amma gəl, siyasi praktikada da bəzən pislə sadəcə, babat-ortabab arasında seçim etməli olursan və inanın, hətta problemlərə, ən müxtəlif məsələlərə bu aspektdən yanaşan bəzi "narazı"lar belə yenə də sizinlə birgə olmaq istəməyəcək, çünki ingilislərin məşhur kəlamı var: istənilən qayda qaydasızlıqdan yaxşıdır. Bəli, nə uzaq illərdəki qaydasızlıq unudulubdur, nə də illər ərzində sizin qafalarınızda bir qayda yaranıbdır; odur ki, özünüzü yormayın, dağılışın evlərinizə...

YENİ MÜSAVAT
N 23(7193) 31 yanvar 2019

**Bu gün, 31 yanvarda Azərbaycan Xalq Cümhuriyyətinin banisi Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 135 ili tamam olur. Böyük dövlət adamının doğum günü münasibətilə Rəsulzadə irsinin yorulmaz araşdırıcısı, professor Şirməmməd Hüseynov "Yeni Müsavat"a çox dəyərli fikirlər söylədi. Şirməmməd müəllim 135 illiklə bağlı gördüyü işlərdən, qiymətli xatirələrindən, ürəyindən keçən arzu-istəklərindən danışdı. Öncə onu narahat edən fikirləri çatdırdı:**

# Şirməmməd Hüseynovun Rəsulzadə ilə bağlı ilginc xatirələri

## "Sovet dövründə hər il yanvarın 31-də Bəxtiyar, mən, bəzən Nurəddin Rzayev, bəzən Xudu Məmmədovla, digər yoldaşlarla birgə gedərdik Məhəmməd Əmin Rəsulzadənin atasının qəbri üstünə"

- 31 yanvar Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 135 illiyidir. Mən indi ora-bura zəng etdim öyrənim ki, Azərbaycan mühacir mətbuatının, yəni Məhəmməd Əminin redaktor olduğu məcmuələrin - "Yeni Qafqasiya", "Azəri türkü" "Odlu Yurd" və başqalarının orijinal sayları ölkədə var, ya yoxdur? Axundov kitabxanasına zəng etdim. Dedilər bizdə orijinalı yoxdur. Amma hərəsindən 4-5 nömrə elektron variantı var. İndi belə bir sual meydana çıxır ki, mühacirət dövründə nəşr olunmuş bu məcmuələri yığıb bu vətənə kim gətirəcək? Axı onun varisi bizik. İkincisi, orada yazılanlar, Azərbaycan milli istiqlal hərəkatı, Azərbaycan tarixinə dair o qədər dəyərli sənədlər, yazılar, məqalələr var ki, bunların burada olması bizim tariximizi öyrənmək üçün mütləq vacibdir. Ola bilsin ki, haradasa var, mənim xəbərim yoxdur. Amma hər halda, mən çox yerə zəng etdim, müsbət cavab almadım.

Ona görə də Azərbaycanda Məhəmməd Əmin Rəsulzadə irsini öyrənən xüsusi bir rəsmi təşkilat, yer olmalıdır. Bu, bizim tariximizdir. Mən hər həftə Məhəmməd Əmin Rəsulzadənin "Yeni Qafqasiya" və "Odlu yurd"da dərc olunmuş məqalələrini "525-ci qəzet"in şənbə nömrəsində verirəm. Artıq altı aydır. Məqsədim budur ki, sonra bunların hamısını yığıb kitab şəklində nəşr etdirim. Amma əvvəlcə qoy oxucular bu yazılarla tanış olsunlar. Nə yazıb, necə yazıb, hansı problemləri qoyub? Həmçinin Respublika ilə əlaqələri, əhali ilə münasibətləri necə olub? Bunlar vacib məsələlərdir .

***- Deməli, sizin də 135 illiyə hədiyyəniz budur, yoxsa başqa tədqiqatlarınız da var?***

- Yox. Mənim 135 illiyə ən böyük hədiyyəm... Mən Rəsulzadənin burada yaşadığı müddətdə, 1920-ci ilin aprelinə qədər nəşr olunmuş əsərlərini yığdım, 5 cildə çap elədim. İndi mühacirət dövrünü öyrənənlər var. Amma mərkəz olsun da. İkincisi, ən vacib məsələ budur ki, bunların xaricdə nəşr etdirdiyi əsərlər Bakıda olsun. Özü də bunu kim etməlidir? Məsələn, keçən il Türkiyədə Əli Yavuz Akpınar və onun dostları "Yeni Qafqasiya yazıları: Məhəmməd Əmin Rəsulzadə. 1923-1927" kitabını buraxdılar. İndi bu kitabı bizim respublikada çap eləmək olmaz? Soruşuram!

***- Təbii ki, olar.***

- Olar. İndi burada maraqlı məsələ nədir? Kitabda Məhəmməd Əminin yazılarıdır. 1923-27-ci illərdə nəşr olunan "Yeni Qafqasiya" jurnalının 95 nömrəsi çıxıb. Bu 95 nömrədə Məhəmməd Əminin 144 yazısı dərc olunub. Bax, bunlar da bunu ayrıca kitab şəklində çap ediblər. Özü də kitab 390 səhifədən artıqdır. Bu, hələ bir jurnalda çap olunan yazılardır. Mən 5 cild nəşr etdirdim. Sonra da onun parlamentdəki çıxışlarını ayrıca cild şəklində çap etdirmək istədim, amma etmədim. "Azərbaycan" qəzetindəki parlament hesabatları və şərhlərdən ibarət 5 cild buraxmışam. Orada onun parlamentdəki bütün fəaliyyəti əks olunub. Deməli, Azərbaycanda 1920-ci ilə qədər Məhəmməd Əmin Rəsulzadə və cümhuriyyətçilərlə, müsavatçılarla bağlı nə olubsa, bunlar üzdədir, öyrənilib və öyrənilir. Mühacirət dövrü ilə məşğul olanlar var, mən onları bilirəm. Türkiyədə xüsusilə məşğul olanlar çoxdur. Mənim bu saat məşğul olduğum "Yeni Qafqasiya"dır. Sağ olsunlar, türklər mənə göndəriblər. 1929-31-ci illərdə "Odlu yurd"un 32 sayı çıxıb. İki kitab şəklində buraxıblar. Bütün nömrələri, bütün yazıları olduğu kimi... Biz necə "Əkinçi", "Molla Nəsrəddin"i çap etmişik, o cür, özü də bizdən də əla çap ediblər. Hərəsi 800-dən artıq səhifədir. İndi bunu bizim respublikada çap etmək olmaz? Vallah olar.

***- Elə isə mane olan nədir?***

- Mən bilirəm, bu saat böyük problemlər, məsələlər çoxdur. Görülən işləri də çox yüksək qiymətləndirirəm. Amma elmi idarələrdir, müəssisələrdir, bunlar da bu işlə məşğul olsalar, daha yaxşı olar. Yəni fikrim heç kəsi ittiham etmək, heç kəsə göstəriş vermək deyil. Bu il mənim 95 illiyimdir. 95 yaşında kişi yenə də həftədə "525-ci qəzet"in şənbə nömrəsində iki səhifə yazı verir. Bunlar da hamısı Cümhuriyyət dövrünə aiddir. "Yeni Qafqasiya" və "Odlu Yurd" da məndə var. İndi 135-dir, 5 ildən sonra 140 illiyi olacaq.

***- Şirməmməd müəllim, illər öncə sizin ölkə prezidenti ilə görüşdə Rəsulzadə ilə bağlı da söhbət oldu, çox keçmədi ki, dövlət başçısı Məhəmməd Əminin 130 illiyi ilə bağlı sərəncam imzaladı. Bu dəfə ürəyinizdən müəyyən məsələlərin həlli ilə bağlı nə isə demək, müraciət etmək keçirmi?***

- Sağ olsun prezident, Məhəmməd Əminin anadan olmasının 130 illiyi ilə bağlı sərəncam verdi, müəyyən tədbirlər görüldü. Bilirsən, bu saat dünya vuruş meydanıdır. Bu dövləti, bu milləti qorumaq, yaşatmaq vaxtıdır. Yeni rəhbərliyin, prezidentin o qədər böyük işi, böyük problemləri var ki, onun tarixlə məşğul olmağa vaxtı yoxdur, qardaş!

***- Amma eyni zamanda ölkə başçısı bir sıra hallarda elə məsələlərə toxunub ki, bu qədər gərgin fəaliyyətin fonunda çox məsələlərdən xəbərdar olduğunu görmüşük...***

- Bəs sən görmədin, Məhəmməd Əminin 5 cildliyi ilə bağlı tapşırıq verdi, Mədəniyyət Nazirliyi "Təhsil" nəşriyyatında çap etdirdi. Yəni münasibətlə, danışanda, deyəndə əlindən nə gəlir, edir. Amma daha bu işləri onun, administrasiyasının boynuna qoymaq olmaz!

***- Yəni deyirsiniz prezident artıq Rəsulzadə ilə bağlı mövqeyini ifadə edib, müvafiq strukturlar öz işini görməlidir, eləmi?***

- Əlbəttə. Mövqeyini ortaya qoyub. Əgər Heydər Əliyev Məhəmməd Əminin anadan olmasının 110 illiyi ilə bağlı sərəncam veribsə, prezident İlham Əliyev 130 illiyini qeyd etmək haqqında sərəncam imzalayıbsa, daha hər dəfə ondan bu işləri gözləmək olmaz axı. Qardaş, özümüz görməli olduğumuz işi prezidentdən ummağa ehtiyac yoxdur. Mənim məqsədim budur ki, bir mərkəz olsun, bu məsələlər aydınlaşsın, işlər görülsün. Bilirəm, tarixçilərin də işi-gücü var. Amma bir qurum olsa, yaxşı olar. Məsələn, Müsavat Partiyasında Nəsiman Yaqublu bir mərkəz düzəldib. İndi o bir-iki adamla həll olunan şey deyil axı.

***- Deməli, Rəsulzadənin 135 illiyi auditoriyalarda, universitetlərdə keçirilə bilərdi, eləmi?***

- Söhbət iclasdan-zaddan getmir e. Söhbət bu kişinin qoyub getdiyi irsi öyrənmək və bu millətə öyrətməkdən gedir. Yoxsa yığışasan, iclas edəsən, hamı da desin ki, bəli, böyük adamdır, böyük şəxsiyyətdir-filandır, nə xeyri var?

***- Professor, siz bu yaşınızda da tədqiqatlarınızı davam etdirirsiniz, Məhəmməd Əmini təbliğ edirsiniz. Rəsulzadə irsinin neçə faizi tədqiq olunub?***

- Bu yerdə mən səndən soruşuram: Novxanı kəndində Rəsulzadənin ev muzeyi var?

***- Yoxdur. Təşəbbüs qaldırılıb ki, onun doğulduğu evdə ev muzeyi yaradılsın.***

- Orada heykəl də qoyulub. Evində də bir vaxtlar uşaq bağçası var idi. Bir dəfə Bəxtiyarla (Vahabzadə-E.P.) getdik ora... Hələ sovet dövründə e, 70-ci illərdə. Məlum oldu ki, ora Məhəmməd Əmin Rəsulzadənin anadan olduğu evdir. Sonra Bəxtiyar da getdi, Şəkidə ata evini uşaq bağçası elədi. (Gülür). Sonra Bəxtiyarın həyat yoldaşının adından yazdıq... Mən yazdım, o da qol çəkdi, prezidentə göndərdik, prezident sərəncam verdi, Şəkidə Bəxtiyarın ev muzeyi yaradıldı. Bəxtiyarın ata evi ki, var idi, Bəxtiyar onu uşaq bağçası etmişdi, məhəllədə yer tapdılar, əla bir uşaq bağçası tikdilər. Bəxtiyar Vahabzadənin evindəki bağçanı köçürtdülər ora, o evi də təmir etdilər, genişləndirdilər elədilər Bəxtiyar Vahabzadənin ev muzeyi.

***- Çox maraqlı hadisədir. Bəlkə də tarix təkrar oluna bilər...***

- Sovet dövründə, həmişə Məhəmməd Əminin anadan olduğu gün - yanvarın 31-də Bəxtiyar, mən, bəzən Nurəddin Rzayev, bəzən Xudu Məmmədovla, bəzi yoldaşlarla birgə gedərdik Məhəmməd Əmin Rəsulzadənin atasının qəbri üstünə. Amma həm də gedərdik Mehdi Hüseynzadənin atasının qəbri üstünə. Çünki rəsmi dairələr elə bilirdi Mehdi Hüseynzadənin atasını ziyarət etməyə gedirik. Qəbiristanlıqda əvvəlcə Mehdi Hüseynzadənin atasının qəbri üstə gedərdik, sonra hərlənib gələrdik Məhəmməd Əmin Rəsulzadənin atasının məzarı üstünə. Diqqəti yayındırmaq üçün, bildin? Onda öyrənərdik ki, bu, harada anadan olub, kimdir. Sonra oğlu Azər Qaraqandada dünyasını dəyişmişdi, Heydər Əliyev göstəriş verdi, onun nəşini Bakıya gətirdilər, apardılar Novxanıda, babasının yanında basdırdılar. İndi ayın 31-də yenə camaat yığışıb Novxanıya gedəcək, atasının və oğlunun qəbri üstünə. Özünün məzarının gətirilməsi söhbəti yoxdur. Amma Bəxtiyar Vahabzadənin Məhəmməd Əmin Rəsulzadəyə həsr olunmuş bir şeiri var:

*Bu torpağın özü boyda*
*Bu torpağa məhəbbətlə doluydun.*
*Bu torpağın yolunda da*
*Sən öz canını qoydun.*
*Borclu ikən Vətən sənə, xalq sənə*
*Hər şey döndü tərsinə.*
*Bu torpaqdan verəmmədik*
*Bir məzarlıq yer sənə.*
*Nə təhər şeirdir?*

***- Əla! Allah hər iki böyük kişiyə rəhmət eləsin! Şirməmməd müəllim, ev muzeyindən danışdınız. Bu günlərdə Rəsulzadənin ata evinin qarşısındakı lövhəni oğurladılar. Bələdiyyənin hazırladığı yeni lövhədə təqdimat ya yanlış yazıldı, sonda da, ümumiyyətlə, yazılmadı. Ümumən bu məsələyə münasibətiniz necədir, Rəsulzadənin necə təqdim olunmasını istərdiniz?***

- Bilirsən, Məhəmməd Əmin və Üzeyir bəy deyirdilər ki, hər bir azərbaycanlı üç müqəddəs şeyə qulluq etməlidir: bu vətən də bizimdir, bu millət də, bu dövlət də. Kim bu üç müqəddəs şeyə qulluq edirsə, Azərbaycanın mövcudiyyətini, varlığını onlar qoruyur. Məsələ budur.

***- Bəs yeni barelyefdə təqdimata münasibət necədir? Sizdən bu məsələ ilə bağlı məsləhət alan oldumu?***

- Yox, mənim bu işdən xəbərim yoxdur. O işlə məşğul olanları da qınamaq lazım deyil. Bilmirlər də. Haradan öyrənsinlər? İndi mən səndən soruşuram, Cümhuriyyət tarixini, Azərbaycan tarixini orta məktəblərdə necə tədris edirlər? İndi "Yeni Müsavat" qəzeti maraqlansın da, nə olar? Hansı dərsliklər var, nə yazıblar, necə yazıblar? Bu Vətən də bizimdir, millət də, bu dövlət də, ay qardaş? Bu məsələlərlə məşğul olan adam nə dövlətin əleyhinədir, nə indiki hakimiyyətin əleyhinədir. Əksinə, onların ən qadir, sadiq bəndələridir. Ən namuslu, ən qeyrətli... Nə oğurluqla, nə məddahlıqla işləri yoxdur. Bu milləti vətənə, millətə, dövlətə məhəbbət ruhunda tərbiyə etmək lazımdır. "525-ci qəzet"də "İlk cümhuriyyətimiz: olmuşlar və düşüncələr" məqaləmdə nə yazmışam: "Neçə min illik dövlətçilik tariximizdə ilk dəfə "Azərbaycan" adlı müstəqil dövlətimizi - Xalq Cümhuriyyətini yaratmış, qısa müddətdə olsa da, şərəflə yaşatmış və dünyaya tanıtmış istiqlal mücahidlərimiz məcburi fasilə dövründə mühacirətdə nələr yazmış, nə düşünmüş, bizlərə nəyi vəsiyyət etmişlər - oxuyaq, düşünək, bu günümüz üçün fəxr edək!"

Qardaş, gərək ona görə bunları öyrənək. Nə təhərdir?

***- Əla! Allah Sizə ömür versin!***



"Söhbət bu kişinin qoyub getdiyi irsi öyrənmək və bu millətə öyrətməkdən gedir"

**❑ Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

**Prezident İlham Əliyev regionların sosial-iqtisadi inkişafına dair üçüncü dövlət proqramının yekunlarına həsr olunmuş konfransda çıxış edərkən yerli icra məmurlarına ünvanlanan fikirlər səsləndirib. Bildirib ki, yerli icra orqanları vətəndaşlara daim diqqət və qayğı göstərməli və yaddan çıxarmamalıdırlar ki, onlar vətəndaşlar üçün çalışırlar, vətəndaşlara xidmət edirlər.**

# Prezidentin icra başçılarına xəbərdarlığını zəruri edən tək səbəb





**Bəxtiyar Sadıqov:** "Bu, o deməkdir ki, belə bir problem həqiqətən var..."

**Zahid Oruc:** "Məmurların vətəndaşlara kömək etməsi dövlətin güclənməsi deməkdir"

"Bütün dövlət məmurları - prezidentdən başlayaraq lap aşağı səviyyəli məmura qədər hər kəs bilməlidir ki, bizim əsas vəzifəmiz xalqa xidmət etməkdir", - deyə ölkə başçısı qeyd edib.

Azərbaycanda siyasi hakimiyyətlə xalq arasında təmasların mərkəzində yerli icra hakimiyyəti orqanlarının dayandığı məlumdur. Bu baxımdan, ölkə rəhbərinin icra başçılarına yönəlik fikirləri maraq doğurur.

**"Azərbaycan" qəzetinin baş redaktoru, deputat Bəxtiyar Sadıqov "Yeni Müsavat"a bildirdi ki, Azərbaycanda şəhər rayonları da nəzərə alınmaqla, ümumilikdə 87 yerli icra strukturu və onun başçısı var:** "Bunların rəhbərlərinin hamısı eyni təcrübəyə malik, eyni səviyyəli məmur və insanlarla ünsiyyət qurmaq bacarığına malik deyil. Elə icra başçıları var ki, insanlarla ünsiyyətə meyllidirlər, öz rayonlarında kəndlərə gedib əhalini qəbul edir, problemlərini dinləyirlər, eyni zamanda, həftənin müəyyən günlərində vətəndaşlar onlarla görüşə bilirlər. Demək olmaz ki, icra strukturlarına müraciət edənlərin hamısı haqlıdır və onların istəkləri qəbul və icra edilməlidir. İndi biz deputatlara da çoxsaylı müraciətlər olur, biz də onların reallaşması üçün müxtəlif qurumlara müraciət edirik. Lakin bütün bunlar o demək deyil ki, icra başçıları vətəndaşlarla ünsiyyətdən qaçmalı, onları qəbul etməməlidirlər. Elə icra başçıları var ki, əhali ilə təmaslara meylli deyil, qəbul olmayan günlərdə icra hakimiyyəti binasının qapısına polis qoyur, heç kim ora buraxılmır".

**Deputat hesab edir ki, dövlət başçısının çıxışında səsləndirdiyi fikirlər icra başçıları ilə bağlı problemlərin olmasından xəbər verir:** "Əgər dövlət başçısı belə müraciət səsləndirirsə, bu, o deməkdir ki, belə bir problem həqiqətən var və müəyyən siqnallar da çatıb. İstəyir məmur olsun, istəyir deputat, vətəndaşı qəbul etmək, dinləmək çox yaxşı haldır. Olur ki, vətəndaş gəlir, onu dinləyirsən, axırda da deyirsən ki, filan-filan səbəbdən mənim gücüm çatmır sənin problemini həll etməyə. O adam durub sənə alqış edə-edə gedir, çünki onu dinləyirsən, probleminə biganəlik göstərmirsən. Bu baxımdan, prezidentimiz çox gözəl ənənə yaradıb. Ali icra orqanlarının rəhbərləri - nazirlər, komitə sədrləri rayonlara gedib vətəndaşlarla görüşürlər. Görüşlərlə bağlı qabaqcadan elanlar verilir, kim istəyir gedib görüşdə iştirak edir. Bu, çox yaxşı ənənədir. İnsanların öz problemini məmura çatdırmaq üçün rayondan Bakıya gəlməsinə ehtiyac qalmır. Yəni nazir, komitə sədri vətəndaşın ayağına gedir. Bütün bunlar idarəetməni asanlaşdırır, vətəndaş məmnunluğunu artırır. İndi prezident belə bir mesaj veribsə, hamı nəticə çıxarmalıdır. Xüsusilə vətəndaşı qəbul etməyə meylli olmayan icra başçıları bu müraciəti nəzərə alaraq öz fəaliyyətlərində dönüş etməlidirlər".

**Milli Məclisin digər üzvü Zahid Oruc deyir ki, regionlarla paytaxt arasında qeyri-bərabərliyin aradan qaldırılması istiqamətində ciddi işlər görülüb:** "Dəyişikliklər böyükdür, reallıqdır. İndi qarşıda duran əsas məsələlərdən biri regionların sosial-iqtisadi cəhətdən mərkəzi büdcədən asılılığının minimuma endirilməsidir. İnkişaf etmiş ölkələrin hamısında buna nail olunub, regionlar öz infrastruktur layihələrini özləri maliyyələşdirirlər, üstəlik, mərkəzi büdcəyə də böyük miqdarda vergi ödəyirlər. Bir çox postsovet ölkələrində də belə inkişafa nail olunub, Azərbaycanda da buna nail olunmalıdır".

Z.Orucun sözlərinə görə, indiyədək bölgələrə rəhbərlər təyin olunarkən daha çox fiziki gücü, müxtəlif xaotik məqamlarda dayanıqlığı olan şəxslərə önəm verilirdisə, artıq kriteriyalar dəyişib: "İndi təyinatlar zamanı fərqli meyarlar əsas götürülür, getdikcə biz bunun nəticəsini daha çox hiss edəcəyik. Ölkə rəhbərinin 2019-cu ildən başlayan geniş islahatlar proqramı məmur-vətəndaş münasibətlərinin yeni bir mərhələsinin başlandığını göstərir. Biz güclü Qərb dövlətlərinin rəhbərlərinin timsalında görmürük ki, onlar gedib regionlarda iqtisadi həyatın ən müxtəlif sahələri ilə əlaqədar toplantılar keçirsinlər, ağırlıqları öz üzərlərinə götürsünlər. Bunu nə Angela Merkelin, nə Makronun, nə Donald Trampın fəaliyyətində görmək mümkün deyil. Bu baxımdan, bu gün dövlət başçısı regionların mühüm sosial-iqtisadi problemlərinin həllini də öz üzərinə götürürsə, yerli icra məmurlarının da borcudur ki, regionlara investisiya cəlbinə, sahibkarlığın inkişafına öz töhfələrini versinlər. Ən azı, buna hansısa maneçiliklər törədilməsin. Son 5-6 icra başçısının vəzifədən azad olma səbəbi göstərir ki, bir sahibkarın belə haqqının pozulmasına dözüm göstərilməyəcək".

**Deputatın fikrincə, bu gün əhalinin regionlardan paytaxta axışması, regionlarla Abşeron yarımadası arasında qeyri-bərabərliyin artmasında yerli icra başçılarının fəaliyyətinin də ciddi rolu var:** "Biz regionlarda iqtisadiyyatı, sahibkarlığı inkişaf etdirməliyik ki, paytaxtla regionlar arasındakı qeyri-bərabərlik aradan qalxsın. Bu baxımdan, dövlət başçısının qaldırdığı məsələ mühüm əhəmiyyətə malikdir, məmurların vətəndaşlara mane olmaması, onlara kömək etməsi dövlətin güclənməsi deməkdir".

**❑ Dünya SAKİT, "Yeni Müsavat"**

# Sabitliyi pozmaq istəyənlərin qarşısında ən böyük sədd

## Deputat Fəzail Ağamalı Azərbaycanın sabitlik məkanına çevrilməsinin səbəblərindən danışdı

**Azərbaycanın da daxil olduğu regiondakı bir sıra ölkələrdə və dünyanın müxtəlif yerlərində çox çətin proseslərin getdiyi, həmin ölkələrin ən böyük problem kimi qeyri-sabitlikdən əziyyət çəkdiyi məlumdur. Bu cür ölkələri siyasi, iqtisadi, sosial böhran, iqtisadi çətinliklər, sosial narazılıqlar, qanlı toqquşmalar sarsıdır. Prosesləri izlədikdə belə mənzərə yaranır ki, sabitliyin pozulduğu dövlətlərin sayı getdikcə artır.**



Azərbaycan isə bir sabitlik adasıdır. Azərbaycan bölgədə də sabitləşdirici rol oynayır. Yəni, bizim sabitliyimiz bölgəyə də müsbət təsir göstərir. Azərbaycan bütün bu böhranlı illərə baxmayaraq, sabitliyini, təhlükəsizliyini qoruyub saxlaya bilib.

Artıq dünyanın bir sıra nüfuzlu təşkilatları, siyasi ekspertləri dünyadakı bu qədər mürəkkəb proseslərin getdiyi illərdə Azərbaycanın sabitliyi, təhlükəsizliyi necə qoruyub saxlaya bildiyi, bunun səbəbləri barədə araşdırmalar belə aparırlar.

**Bu barədə "Yeni Müsavat"a açıqlamasında deputat Fəzail Ağamalı bildirdi ki, bunun səbəbi çox aydındır. Bunun səbəbi düşünülmüş, xalqın rifah halının yaxşılaşdırılmasına yönəlmiş siyasət və xalqla Azərbaycan prezidenti İlham Əliyev arasında olan birlikdir:** "Budur, bizim uğurlarımızın əsas səbəbləri. Azərbaycan dövlətinin gücü hər bir vətəndaşa xidmət göstərməsidir. Eyni zamanda hər bir vətəndaşın öz doğma Vətəninə olan sevgisi, onun əməyi dövlət gücümüzü artırır. Bütün bu işlər bir-biri ilə sıx bağlıdır. Ölkəmizdə davamlı və əsaslı sabitliyin, təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayan amil Azərbaycan xalqı ilə prezidentinin sıx birliyi, ittifaqıdır. Azərbaycan prezidentinin Azərbaycan xalqının milli maraqlarına bütün varlığı ilə xidmət etməsi bu birliyi yaradıb, bu birliyi sarsılmaz edib".

**Deputat qeyd etdi ki, 1988-ci ildən başlayaraq müstəqilliyimizin əldə olunmasına və ondan sonrakı 1993-cü il 4 iyun qiyamına qədərki dövrdə xalq son dərəcə fəlakətli bir duruma düşüb:** "Xalqın tələbi ilə Heydər Əliyev hakimiyyətə gəldikdən sonra o, müasir Azərbaycan dövlətinin əsasını qoydu. Yəni bugünkü sabitliyimizin, yüksək səviyyədə inkişafımızın və təhlükəsizliyimizin əsası Heydər Əliyev siyasi hakimiyyətə gəldiyi gündən qoyuldu. Heydər Əliyev 2003-cü ilə qədər ciddi xarakter daşıyan, bütün tələbləri özündə ehtiva edən və edəcək dövlət yarada bildi. Bu, həm ölkə daxilində aparılan siyasətlə, eyni zamanda balanslaşmış xarici siyasətlə bağlı idi. Azərbaycan prezidenti İlham Əliyevin bu yaxınlarda Davos Forumunda bir çox dəqiq ifadəsi oldu. Prezident söylədi ki, bizim xarici siyasətimiz Azərbaycanda daxili siyasətimizin, sabitliyimizin təminatçısı kimi çıxış edir. Bütün bunların əsası dünyamiqyaslı siyasətçi Heydər Əliyev tərəfindən qoyulub. Ondan sonra 2003-cü ildə prezident seçilən İlham Əliyev keçən zaman kəsiyində həmin fundamental prinsiplərə söykənərək Azərbaycan dövlətini daha da möhkəmləndirdi, gücləndirdi, ulu öndər Heydər Əliyevin cızmış olduğu yol xəritəsinə uyğun olaraq öz siyasətini yüksək səviyyədə qura bildi. Bu siyasətin mahiyyətində Azərbaycan xalqının, dövlətinin maraqları dayanır. Ölkə prezidenti hər zaman çıxışlarında bəyan edir ki, prezidentdən başlamış aşağı vəzifəli məmurlara qədər hər kəs xalqın xidmətində dayanmalıdır. İki gün öncə prezident bu fikriləri bir daha bəyan edərək söylədi ki, bu xidmətdən şəxsən o, şərəf duyur. Bax, budur ölkə prezidentinin uğurlarının, Azərbaycanın sabitlik, təhlükəsizlik məkanına çevrilməsinin vacib şərtlərindən biri".

**F.Ağamalı onu da dedi ki, anti-Azərbaycan qüvvələri dövlətimizi zəiflətməyə çalışır:** "Azərbaycanda sabitliyi pozmaq istəyən qüvvələrin içərisində həm xaricdə, həm daxildə antimilli qüvvələr yer alır. Onlar Azərbaycanı zəiflətməyə, xaosa çevirməyə çalışırlar. Lakin buna nail ola bilmirlər. Çünki bunun başlıca səbəbi ölkə prezidenti ilə xalqın sarsılmaz birliyidir. Bütün uğurlarımızın başlıca amili bununla bağlıdır-xalqın prezidentə yüksək səviyyədə inamı, etimadı və prezidentin də bu etimadın birmənalı şəkildə doğrultması. Bu var olduqca Azərbaycanda sabitlik sarsılmaz olacaq. Bu amil Azərbaycanı dünyanın inkişaf etmiş ölkələri səviyyəsinə qaldıracaq. Şübhə etmirəm ki, bu amil Azərbaycanın işğal olunmuş torpaqlarının azad olunmasını təmin edəcək. Bu amil ölkəmizi dünya miqyasında xüsusi söz sahibi edəcək. Sabitlik olan yerdə inkişaf, tərəqqi var".

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 23 (7193) 31 yanvar 2019



# Nəsiminin nadir fotosu

Zamin HACI
zaminhaci@gmail.com

"Surətü qaşü alnına verdi Nəsimi könlünü,
Mən bu səbəbdən, ey günəş, bədrü hilal içindəyəm"

*(şairdən sitat)*

**Azərbaycan mediasında savad o qədər şiddətlə artıb ki, 3-4 gündür bir gülünc başlığı müxtəlif saytlarda görürəm: "Nəsiminin dərisi necə soyulub: 300 illik nadir foto". Açığı, ilk görəndə gözümə inanmadım, dedim, yəqin səhvdir gedib. Jurnalistikada belə mexaniki səhvlərdən kimsə sığortalanmayıb. Lakin xəbərin içini oxuyanda gördüm elə ağıl ora qədər imiş.**

Üstəlik, tutalım, bunun birində idiotlar çalışır. Bəs o biri saytlara nə düşüb ki, eyni şeyi təkrar edirlər? Axı elementar bilgiyə malik orta məktəb uşağı da yaxşı bilir ki, 300 illik fotonun tapılması imkansızdır. Çünki bu, hesablayanda gedir çıxır 1718-ci ilə. Fotoqrafiyanın tarixi isə ən gec halda 1823-cü ildən başlanır. Hələ lap bunu qoyaq qırağa, Nəsimi axı 1417-ci ildə öldürülüb. O vaxt foto nə gəzirdi? Əflatun müəllim niyə belə savadsız yazılara göz yumur?

Bir dəfə hansısa "alimimiz" Vaşinqtonda tədbirdə iştirak edərkən Azərbaycandakı dini tolerantlıqdan dəm vurarkən belə deyibmiş: "Bizdə xristianlıq miladdan öncə geniş yayılmışdı".

İnsaf naminə, bu cür zarafatcıl adamlardan hər yerdə olur. Təzəlikcə bir şotlanddan yazmışdılar, bu adam fermasının ərazisində daşları dairəvi düzərək bunun guya Stounhedc kimi qədim abidə olduğunu arxeoloqlara sırıyıbmış. Haradasa 15-20 il bu məzələnmə davam etmişdir. Ancaq bizim tarixçilər və media qəhrəmanlarını şotland kəndlidən fərqləndirən detal odur ki, bizimkilər öz qara yumorlarını heç zaman ifşa eləmirlər.

Sözgəlişi, Nəsimi də içində olmaqla, bizim klassik şairlərimizin uydurma rəsmləri, obrazları düzəldilib, fikrimcə, bu, çox axmaq hərəkətdir. Füzulinin, Nizaminin, Nəsiminin və başqalarının təsviri əlimizdə deyilsə, bu yalançı rəsmlərlə niyə uşaq başı aldadır, məktəblərdə asırıq, dərsliklərə, heykəllərə həkk edirik? Özü də çox vaxt bu rəsmlərin fantaziya məhsulu olması şagirdlərə deyilmir. Elmdə yalançılıq ən mənfur hərəkətlərdən biridir. Adamın rəsmi qalmayıbsa, nə məcburdur rəsm uydurmaq? Bəlkə həmin uydurma rəsmlər olmasa uşaqlar Füzulini, Nizamini və başqalarını daha sevərək oxuyardılar, müəllifi hərə bir cür, özünə doğma obrazda təsəvvür edərdi. Qəzənfər Xalıqov adlı sovet rəssamının 1939-cu ildə Ağcabədi rayonundan bir axunda baxıb Nizamini "çəkməsi", ümumiyyətlə, ədəbiyyat tariximizin məzəsi sayıla bilər.

Əlbəttə, 2019 dövlət tərəfindən "Nəsimi ili" elan olunduğu üçün güman edə bilərik bizi qarşıda hələ daha nadir fotolar gözləyir. Bu mənada, bəlkə də 19-cu polis bölməsinin Nəsimi rayonuna düşməsi tarixi uzaqgörənlik örnəyi sayılmalıdır. O cümlədən dünən bir elmi araşdırma da çıxmışdı, deyir, əslində Nəsiminin diri-diri dərisinin soyulub öldürülməsi düzgün məlumat sayılmamalıdır. Əslində şairi öldürüb, dərisini sonra soyublar. Bah, bah. Nə qədər humanist davranış. Ümid edirəm bütün ili bunun araşdırılmasına sərf etmərik, arada şeirdən-zaddan oxuyarıq. Həmçinin Bakının mərkəzində Nəsiminin heykəlinin tamamilə göydələnlərə təslim edilməsi məqsədəuyğundur. Qoy onun üstündə qaraj tiksinlər.

Ümumən bizdə humanizmin təntənəsi hər sahədə özünü göstərir. Bir oğru tutublar, adamın cibinə girib, lakin bütün pulları mənimsəməyibdir. 10 manat da pulun yiyəsinə verib, deyir, fikirləşdim cavan oğlandır, evə pulsuz getməsin. Bəlkə də bunu dövlət işinə qoymaq lazımdır, ancaq indi 5-10 il yamayacaqlar, o cür istedad, üzəyi xalqa xidmət hissi ilə döyünən şəxs zindanda çürüyüb gedəcəkdir. Təzəlikcə mən də evdə bir oğru tutmuşdum, dedim, utanmırsanmı, başqasının əmlakına qəsd edirsən. Cavabında dedi, özün utan, bizim Qarabağ dərdimiz var, sən isə çarpayıda yatırsan, yazını kompüterdə yazırsan, soyuducuda toyuq budu saxlayırsan. Qızardım, ancaq bu başqa temadır.

---




# ABŞ-dan Bakıya kritik zəng - "Bolton planı" işə düşüb?

## Trampın milli təhlükəsizlik məsələləri üzrə köməkçisi İlham Əliyevə telefon açdı; ABŞ Milli Kəşfiyyatının rəhbəri isə Qarabağda böyük toqquşma riskini anons verdi; Ağ Ev müharibə xəbərdarlığı fonunda sülh təşəbbüskarlığını artırır - nonsens, yoxsa...

**Təzə il başlar-başlamaz, Dağlıq Qarabağ məsələsində Qərbin, xüsusən də ABŞ-ın siyasi-diplomatik fəallığı diqqət çəkir. Artıq yanvar ayında Qərbin təşəbbüsü ilə Azərbaycan və Ermənistan arasında iki mühüm görüş keçirilib. Öncə Parisdə iki ölkənin xarici işlər nazirləri 4 saat müzakirə aparıb və xalqları sülhə hazırlamağın zəruriliyi barədə anlaşıblar. Üstündən bir həftə keçməmiş prezident İlham Əliyev və baş nazir Nikol Paşinyan Davosda qeyri-formal atmosferdə bir araya gələrək, saat yarım ərzində Qarabağ məsələsini müzakirə ediblər.**

Srağagün - yanvarın 29-da axşam isə ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton İlham Əliyevə telefon açıb. Bu barədə prezidentin mətbuat xidməti məlumat yayıb. Məlumata görə, söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər, o sırada enerji təhlükəsizliyi, təhlükəsizlik sahəsində əməkdaşlıq, Qarabağ münaqişəsi ilə bağlı danışıqlar prosesi müzakirə edilib.

**"Yeni Müsavat" xəbər verir ki, Bolton bu barədə özünün twitter hesabında belə yazıb:** "Bu gün (srağagün - red.) mən Azərbaycan prezidenti İlham Əliyevlə danışdım. Biz enerji təhlükəsizliyi, təhlükəsizlik sahəsində əməkdaşlıq, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllində ABŞ-ın dəstəyi də daxil, bir sıra ortaq maraq kəsb edən məsələləri müzakirə elədik".

*****

Xatırladaq ki, az öncə N.Paşinyan Davosda olarkən Con Bolton ona da telefon açmışdı. Rəsmi məlumatlarda bildirilirdi ki, söhbət zamanı ikitərəfli münasibətlərin perspektivi və Qarabağ mövzusu diqqətdə saxlanılıb.

Bu yerdə onu da yada salaq ki, ötən ilin oktyabrında Azərbaycan və Ermənistanda səfərdə olan Con Bolton İrəvanda çıxışı zamanı Paşinyanı açıq şəkildə seçkilərdən sonra, yəni təzə ildə Qarabağ məsələsində real addımlar atmağa, ölkəsini ağır blokada rejimindən və Rusiya asılılığından qurtarmaq üçün Türkiyə və Azərbaycanla daha tez anlaşmağa çağırmışdı. Hətta şirnikləndirici təklif kimi, İrəvana "Rusiya silahlarından daha keyfiyyətli olan ABŞ silahları" təklif eləmişdi. Bu kimi bəyanatlar isə dərhal rəsmi Moskvanı qəzəbləndirmiş, hətta Rusiya XİN başçısının müavini Qriqori Karasin qərbyönlü Ermənistan iqtidarını sərt şəkildə hədələmişdi...

*****

Göründüyü kimi, Vaşinqtonun Qarabağ məsələsində diplomatik fəallığı ortadadır. O da maraqlıdır ki, belə bir fəallıq fonunda ABŞ milli kəşfiyyatının rəhbəri Deniel Kouts Qarabağ ətrafında münaqişənin gərginləşə biləcəyini bəyan edib. "Yeni Müsavat" xəbər verir ki, bu barədə o, Konqresdə çıxışı zamanı bildirib. **Sitat:** "Ermənistan və Azərbaycan arasında gərginlik genişmiqyaslı hərbi toqquşma üçün potensial təhlükə olaraq qalır və hətta Rusiyanın da cəlb olunduğu genişmiqyaslı hərbi münaqişəyə gətirə bilər".

Vaşinqtonun bir yandan sülh təşəbbüslərini artırması, o biri yandan isə müharibə xəbərdarlığı eləməsi diqqət çəkməyə bilməz. İlk baxışda ziddiyyətli görünsə də, bir şeyə şübhə yox ki, ABŞ hazırda gərgin münasibətlərdə olduğu Rusiyanın Güney Qafqazda Qarabağ problemi hesabına daha da möhkəmlənməsini istəmir, əksinə, onu bölgədən sıxışdırıb çıxarmağa çalışır.

Üstəlik, Rusiya ABŞ-ın hədəf götürdüyü "şər üçbucağı"nın digər ölkəsi ilə - İranla yaxşı münasibətlərə malikdir və Tehranla Moskvanın ABŞ-la bağlı maraqları xeyli üst-üstə düşür. Hər iki qonşumuz təbii ki, Amerikanın bölgədə aparıcı oyunçu olmasına qarşıdır. Qarabağ məsələsinin həllində ciddi dönüş isə regionda Rusiya-İran təmaslarını və əməkdaşlığını minimuma endirərdi.

Buradaca əlavə edək ki, Bakı ilə eyni gündə Bolton Ankaraya da telefona açıb və Türkiyə prezidentinin mətbuat katibi İbrahim Kalınla danışıb. Türkiyə KİV-nin məlumatına görə, tərəflər regional problemləri müzakirə edib. Onların arasında İran mövzusunun da olduğu istisna deyil.

Azərbaycana gəlincə, qeyd edildiyi kimi, İran məsələsinə Qarabağ mövzusunun da bağlılığı var.

*****

**"Qərblə Rusiya arasında Qarabağ münaqişəsinin həlli ilə bağlı rəqabət mühiti yaranıb. Bu mühitin yarandığı Rusiya mətbuatında Qarabağ problemi ilə bağlı şərhlərin və təfərrüatların daha geniş şəkildə verilməsində də görmək olar". Bu sözləri axar.az-a açıqlamasında sabiq dövlət müşaviri Qabil Hüseynli deyib. O xatırladıb ki, artıq ATƏT-in vasitəçilik missiyası olmadan tərəflər bir neçə dəfə görüşüb.**

"Görüşlərin bir qismi ayaqüstü söhbət olsa da, Davos görüşü bunlardan fərqləndi. Sonuncu görüş sözsüz ki, Davos toplantılarını hazırlayan qurumun sədri tərəfindən təşkil olunmuşdu. Bu da Qərb tərəfinə aid olan bir missiyadır. Bu prosesdə, zənnimcə, Qərb ölkələrinin bir çoxunun, xüsusilə də ABŞ-ın ön plana çıxdığını müşahidə edirik. Ona görə də son zamanlar "Lavrov planı, yoxsa Bolton planı" ifadələrinə yol verilir. Amma hər halda, bu məsələlər daha çox ekspertlərin və jurnalistlərin yaradıcılıq məhsulu hesab olunur", - deyə politoloq qeyd edib.

**Bununla belə, onun sözlərinə görə, dondurulmuş proseslərə hərəkət verən, onu intensivləşdirməyə çalışan tərəf məhz Qərbdir:** "Bir müddət əvvəl Boltonun bölgəyə səfəri bu məsələlərdə sürətləndirici amil rolunu oynadı. Amma Rusiya da heç zaman sakit durmur və bu bölgəyə özünün "arxa bağçası" kimi baxdığından, prosesləri daim diqqət mərkəzində saxlamağa çalışır. Con Boltonun təşəbbüsündən sonra Rusiya da hərəkətə gəldi. Kolerov, Tarasov, Duqin və başqaları Qarabağ problemi ilə bağlı həllin sürətlənməsi, hətta bununla bağlı hansısa müddətləri göstərməklə ictimai fikirdə təlatüm yaratmağa çalışırlar və müəyyən qədər də buna nail olurlar".

**Politoloqa görə, prosesləri ayıq başla və soyuqqanlı qiymətləndirən ekspertlərin bir çoxu "startı" ABŞ başda olmaqla Qərb ölkələrinin verdiyini düşünür:** "Bunun nəticəsində də Rusiya bir növ siyasi həyəcana düşərək proseslərə adekvat cavab verməyə və təşəbbüsü öz nəzarəti altında saxlamağa cəhd etdi. Zənnimcə, bunun Azərbaycan üçün heç bir ziyanı yoxdur. Sadəcə olaraq, tərəflər arasında problemin həlli ilə bağlı rəqabət mühitinin yaranması status-kvonun dəyişəcəyinə olan ümidləri artırır. Hazırda proseslərdə öndə Qərb dünyası görünsə də, Rusiyanın da təşəbbüsü ələ almaq üçün işlər gördüyünü söyləmək lazımdır. Qərb hələ ki bu problemi Rusiyanın tam nəzarətindən çıxara bilməyib".

**Q.Hüseynli hesab edir ki, bu prosesdə Qərb daha pozitiv rol oynaya bilər:** "Çünki Rusiya bu bölgədə "Qarabağ kartı"ndan özünün strateji maraqlarını reallaşdırmaq üçün istifadə edir. Ona görə də artıq Rusiyanın prosesdə pozitiv rol oynaya biləcəyi barədə fikirlər aktuallığını itirməyə başlayıb. Ciddi düşünən adamların əksəriyyəti diqqətini Qərbə doğru yönəltməyə çalışır. Çünki Qərb doğrudan da bölgədə problemin aradan qalxmasını istəyir. Bu, onun strateji maraqlarına cavab verir. Hələ ki Rusiya bu məsələdə Bakını qane edə biləcək, eyni zamanda beynəlxalq hüquq normalarına söykənən mövqe ortaya qoya bilməyib. Amma Qərbin mövqeyi beynəlxalq hüququn tələblərinə getdikcə yaxınlaşmaqdadır".

Qalır, yeni prosesin Azərbaycanın nə dərəcədə maraqları çərçivəsində inkişaf edəcəyini izləmək və ona dəstək vermək...

❑ Siyasət şöbəsi, "Yeni Müsavat"

**Yanvarın 29-da axşam ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton Azərbaycan prezidenti İlham Əliyevə telefon zəngi edib. Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər, o cümlədən enerji təhlükəsizliyi, təhlükəsizlik sahəsində əməkdaşlıq və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar prosesi müzakirə edilib.**

Elşad MƏMMƏDLİ



# ABŞ-ın "iqtidarla işləməkdə davam edəcəyik" mesajı - Boltonun zəngindən çıxan nəticə

## Azərbaycanın təhlükəsizlik və enerji məsələlərində sədaqətli tərəfdaş olması Amerikanın maraqlarını da dəyişməz edir; ermənilər və ölkəmizin bədxahları üçün "əcəl zəngi"...

Öncə onu qeyd edək ki, Con Bolton ABŞ-ın faktiki olaraq əsas sözçüsü kimi xarakterizə edilir. Onun istər Azərbaycan, istərsə də dünyanın hansısa bölgəsi ilə bağlı açıqlamaları, birmənalı olaraq Ağ Evin mövqeyi kimi başa düşülür. Son ayların təcrübəsi bunu deməyə kifayət qədər əsaslar verir.

Azərbaycanda, regionda və dünyada gedən siyasi, geosiyası proseslərin kifayət qədər həssas olduğu bir dönəmdə Boltonun Azərbaycan prezidenti ilə yuxarıda qeyd edilən məsələləri müzakirə etməsi kifayət qədər diqqətçəkən məsələdir. Məsələyə politoloji və geosiyasi maraqlar prizmasından yanaşdıqda, bu, ilk növbədə Azərbaycanın dünyada və regiondakı yerinin nə dərəcədə mühüm olduğunu təsəvvür etməyə imkan verir.

Əvvəla, onu qeyd edək ki, C.Boltonun zəngi ABŞ-ın Azərbaycanla ciddi əməkdaşlığı davam etdirmək və daha da gücləndirmək əzminin əyani göstəricisi kimi xarakterizə olunur.

Biz dəfələrlə yüksək vəzifəli ABŞ rəsmilərinin dilindən eşitmişik ki, Amerika Azərbaycanı özünün regiondakı əvəzsiz tərəfdaşı kimi qiymətləndirir. ABŞ Azərbaycanın enerji təhlükəsizliyi sahəsində gördüyü işləri yüksək qiymətləndirir, əvvəlki enerji layihələri kimi, Cənub Qaz Dəhlizi layihəsinin həyata keçirilməsinə hərtərəfli dəstək verir.

Sirr deyil ki, bütövlükdə təhlükəsizlik, o cümlədən terrorizmlə mübarizə məsələləri böyük güclərin son illərdəki əsas prioritetlərindən biridir. Bu xüsusda ABŞ Azərbaycanın regionda və dünyada təhlükəsizliyin möhkəmləndirilməsinə töhfələrinə mühüm əhəmiyyət verir. Burada Azərbaycanın dünyanın müxtəlif qaynar nöqtələrində sülhyaratma missiyalarında iştirakı, rəsmi Bakının təhlükəsizlik məsələsində xüsusi rolu və digər məsələlər xüsusi qeyd edilməlidir. Çünki bunlar müasir dünyada əməkdaşlığın, tərəfdaşlığın əsas elementləridir. Azərbaycan bu kontekstdə sədaqətli və davamlı tərəfdaş olduğunu bu illər ərzində atdığı addımlarla, sərgilədiyi birmənalı mövqelərlə sübuta yetirib...

Hələ 2018-ci ilin sonlarından başlayaraq, Qarabağ məsələsi ilə bağlı ciddi gəlişmələr müşahidə olunur. Sirr deyil ki, Qarabağ münaqişəsi ilə əlaqədar tam yeni bir situasiya yaranıb. ABŞ Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində hazırda müşahidə olunan müsbət dinamikanı müsbət qiymətləndirir, problemin aradan qaldırılması ilə bağlı səylərini davam etdirəcəyi barədə mesajlar, bəyanatlar verir. Burada son zamanlar Azərbaycan prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən görüşlər, XİN rəhbərləri arasında təmaslar, Azərbaycanın mövqeyinin güclənməsi və bunun nəticəsi olaraq münaqişənin ədalətli həllinə zəminin yaranması faktoru xüsusi qeyd edilməlidir.

Yayılan məlumatlardan anlaşıldığına görə, prezident İlham Əliyevlə Boltonun telefon danışığı zamanı Qarabağ məsələsinin həlli ilə bağlı da söhbət olub. Bunun yalnız Azərbaycanın haqlı mövqeyi kontekstində olduğu da şübhəsizdir.

Və nəhayət, Boltonun zənginin Azərbaycanın xaricdəki bədxahlarının, erməni lobbisinin, ölkəmizdə kor-təbii proseslər getməsini istəyən qüvvələrin və iqtidarın siyasi rəqiblərinin də əhvalını korladığı şəksizdir.

Son aylarda bir sıra qüvvələr iqtidara Qərb və beynəlxalq təşkilatlar tərəfindən təzyiqlərin artacağına dair fikirlər səsləndiridilər. Lakin prosesləri soyuq başla təhlil edəndə ortaya çıxan mənzərə budur: C.Boltonun zəngi həm də Azərbaycanın daxilində Qərbin ölkəmizə təzyiq göstərəcəyi və ya hər hansısa güzəştə məcbur edəcəyi ilə bağlı ümidlərini puça çıxartdı. Aydın görünür ki, ABŞ Azərbaycan iqtidarı ilə əməkdaşlıqda maraqlıdır, Azərbaycandan Qərbə ümid yeri kimi baxanlara - onların arasında küyə gedənlərlə yanaşı, missioner antimilli qruplar da mövcuddur - dəstək vermək niyyətində deyil. Boltonun zəngi faktiki olaraq Azərbaycanın bədxahları üçün "əcəl zəngi" kimi dəyərləndirilir.

Proseslərin, baş verənlərin, ABŞ-dan gələn mesajların ortaya çıxardığı nəticə budur ki, rəsmi Vaşinqton Azərbaycan iqtidarı ilə əməkdaşlığı yüksək qiymətləndirir, onunla işləməkdə davam edəcəyi mesajını verir; nəinki ona təzyiq etmək, əksinə, münasibətləri daha da möhkəmləndirmək əzmində, niyyətindədir.

Bu əməkdaşlıq ölkəmiz üçün təbii ki, yalnız müsbət nəticələr vəd edir. Azərbaycana indiki həssas dönəmdə kortəbii proseslər deyil, ənənəvi tərəfdaşlarla məhz nizamlı, oturuşmuş əlaqələrin inkişafı lazımdır. Çünki bütün diqqətlər Qarabağa yönəlib, hər kəs bunun fərqində olmalıdır.



# "ABŞ Cənubi Qafqazla bağlı yeni strategiya hazırlayıb"

## Ekspertlər Con Boltonun Bakıya zəngini zəruri edən hədəflərdən danışdılar

**Yanvarın 29-da ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton Azərbaycan prezidenti İlham Əliyevə telefonla zəng edib. Bu barədə prezidentin mətbuat xidməti məlumat yayıb. Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər, o cümlədən enerji təhlükəsizliyi, təhlükəsizlik sahəsində əməkdaşlıq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar prosesi müzakirə edilib.**

**Politoloq Nəzakət Məmmədova** "Yeni Müsavat"a şərhində bildirdi ki, ABŞ-ın xarici siyasət strategiyasında xüsusi yer ayırdığı Yaxın Şərq, İran, Rusiya, Türkiyə, habelə Çinin Avrasiya inteqrasiyasına yönəlmiş meqalayihəsi Cənubi Qafqazla, xüsusən Azərbaycanla bilavasitə əlaqədardır: "Məhz təhlükəli rəqiblər İran, Rusiya, Çin, Türkiyə amilləri ABŞ-dan Cənubi Qafqaza diqqəti artırmağı zəruri edir. Boltonun Əliyevlə telefon söhbətində enerji, təhlükəsizlik, Qarabağ məsələlərini müzakirə etməsi də bu baxımdan diqqətəlayiqdir ki, bu məsələlərin kompleks həlli ABŞ-ın maraqlarına cavab verər, onun bölgədə nüfuzunu və təsirini xeyli dərəcədə artırardı. ABŞ Avropanın Rusiyadan enerji asılılığının azalmasını istəyir, bunun üçün Cənub Qaz dəhlizinə ehtiyac duyur, Çinin "Bir qurşaq, bir yol" layihəsi üzərindəki ölkələri nəzarətə almaq, İran ətrafında şimaldan həlqəni daraltmaq, Qara dəniz hövzəsi ölkəsi olaraq Ukrayna və Gürcüstanı gələcəkdə NATO-ya daxil etmək, Ermənistanda Paşinyan hakimiyyətinin möhkəmlənməsini, Rusiyaya qarşı tədbirlərin səmərəliliyini təmin etmək üçün Azərbaycana böyük ehtiyac duyur. Azərbaycan hakimiyyətinin və xalqının rəğbətini qazanmağın ən əsas yolu Qarabağ məsələsinin real həllidir. Mövcud situasiyanın ABŞ-ın Qarabağ siyasətinə təsirinə gəlincə, Vaşinqton burada bir neçə məqsəd güdür. Hazırda ABŞ üçün ən önəmli vəzifələrdən biri hakimiyyətə gətirdiyi Paşinyan iqtidarını möhkəmlətmək, onun hakimiyyətinə təhdid ola biləcək istənilən maneəni dəf etməkdir. Paşinyana ən böyük təhlükələrdən biri Qarabağ məsələsidir. Qarabağ Ermənistanın "Axilles dabanı", ən zəif yeridir. Burada Rusiyanın təhriki ilə hərbi əməliyyatların başlaması, atəşkəsin pozulması ehtimalı var. Rusiya istənilən zaman nəzarətindəki separatçı Bako Saakyan rejimi vasitəsilə təmas xəttində təxribat məqsədilə atəşkəsi poza, Ermənistan və Azərbaycan arasında 2016-cı il aprel hadisələri kimi döyüş əməliyyatları başlaya bilər. Paşinyanı hakimiyyətdən silib atmağın əsas yolu budur. Belə olarsa, münaqişə lokal səviyyədə qalmayacaq və ABŞ, Avropa Birliyindən mövqe ortaya qoymaq tələb olunacaq. Vəziyyətin o həddə çatmaması, eyni zamanda Paşinyan iqtidarının möhkəmlənməsinə şərait yaratmaq, Rusiyanı Qarabağ məsələsindən istifadə edib regionu təsir altında saxlamaq imkanından məhrum etmək üçün ABŞ münaqişədə təşəbbüsü ələ almağa çalışa bilər".

**Politoloq Elxan Şahinoğlu isə bildirdi ki, Con Boltonun Azərbaycan prezidentinə telefon zəngi təsadüfi deyil:** "Onu da təsadüfi saymıram ki, Con Bolton bir həftə əvvəl Ermənistanın baş naziri Nikol Paşinyana zəng etmişdi. Doğrudur, Paşinyan telefon danışığından sonra rəqiblərini sakitləşdirmək üçün and-aman etdi ki, Bolton onu yalnız baş nazir seçilməsi münasibətilə təbrik edib, başqa söhbət olmayıb, yəni Qarabağdan danışmayıblar. Ancaq Azərbaycan prezidentinin mətbuat xidmətinin yaydığı məlumata görə Con Bolton İlham Əliyevlə bir sıra mövzularla yanaşı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar prosesini müzakirə edib. Demək, bu mövzu Paşinyanla da müzakirə edilib, sadəcə, Ermənistanın baş naziri "Qarabağ klanından" ehtiyat etdiyi üçün bu haqda açıqlama verməyib. Bunların üzərinə ABŞ milli kəşfiyyatının rəhbəri Deniel Koutsun bir neçə gün əvvəl Rusiyanın müdaxiləsi nəticəsində Dağlıq Qarabağ münaqişəsinin yenidən alovlana biləcəyi açıqlamasını da əlavə etsək, ABŞ-ın bölgə ilə bağlı hərəkətə gəldiyini söyləmək olar.

Mümkündür ki, Dövlət Departamenti, Pentaqon və Mərkəzi Kəşfiyyat İdarəsi birlikdə Cənubi Qafqazla bağlı yeni strategiya hazırlayıblar və bu strategiyanın ana xətlərindən biri Rusiyanın bölgədəki təsirlərinin azaldılmasına yönəlib. Ona görə də Vaşinqtondan Bakıya və İrəvana zənglərin sayı artıb. İkincisi, mümkündür ki, ABŞ Rusiyanın Avrasiya bölgəsindəki mövqelərinin sıxışdırılması üçün regional münaqişələrin həllindəki fəallığını artıracaq. Üçüncüsü, ABŞ 2000-ci ildən bu yana Dağlıq Qarabağ münaqişəsinin həllində xüsusi fəallıq nümayiş etdirməyib. Amerika ərazisində Azərbaycan və Ermənistan prezidentlərinin sonuncu görüşü 19 il əvvəl olub. Görünür, Vaşinqtonda yenidən bu mövzuya qayıtmağı lazım bilirlər. Prezident Donald Trampdan olsaydı, bizim bölgə ilə maraqlanmazdı. Ancaq Trampın güclü komandası var və Bolton kimi təcrübəli diplomat anlayır ki, heç bir bölgəni Rusiyaya bəxşiş vermək olmaz, bunun nəticəsi yaxşı olmur. Gürcüstan və Ukrayna buna misaldır. İndi Vaşinqtondan tələb olunan Moskva və Paris görüşlərindən sonra Azərbaycan prezidenti ilə Ermənistanın baş nazirinin görüşünü Amerika ərazisində təşkil etməkdir. Ancaq görüşün məzmunlu olması və tərəflərin mövqeyini bir-birinə yaxınlaşdırmaq üçün alt səviyyədə fəaliyyət başlamalıdır".

❑ **Etìbar SEYİDAĞA, "Yenì Müsavat"**

# "Hər bir iqtisadi region üzrə ayrıca proqram işlənməlidir"

## Ekspertlər regionların inkişafı ilə bağlı yeni proqramdan gözləntilərini dilə gətirdilər; regionlarda dirçəliş bu amillərdən asılıdır

**Azərbaycanda regionların sosial-iqtisadi inkişafına dair üçüncü proqrama yekun vurulub. Bu münasibətlə keçirilən konfransdan sonra ölkə prezidentinin fərmanı ilə dördüncü proqram təsdiqlənib.**

**Prezident İlham Əliyev**in konfransda verdiyi məlumata görə, regionların sosial-iqtisadi inkişafına dair dördüncü dövlət proqramının tərkibi əsasən yerlərdən gələn xahişlər nəticəsində formalaşıb: "Mənim bölgələrə çoxsaylı səfərlərim və vətəndaşlarla söhbətlərim bu sahədə çox gözəl bir ünsiyyət yaradıb. Çünki vətəndaşların təklifləri mütləq nəzərə alınır və bölgələrdə bir çox layihələr məhz vətəndaşların təklifləri əsasında reallaşıb".

**Yeni proqramın əsas istiqamətləri barədə məlumat verən dövlət başçısı bildirib ki, sahibkarlıqla bağlı siyasət davam etdiriləcək:** "Sahibkarlara dövlət tərəfindən böyük dəstək verilir - həm mənəvi dəstək, siyasi dəstək, maddi dəstək. Fermerlərə kreditlər, subsidiyalar verilir. Bu sahədə də təkmilləşmə gedəcək, texnika, gübrələr, yanacaq güzəştli şərtlərlə verilir. Kənd təsərrüfatı və sənaye istehsalı dördüncü proqramda xüsusi yer tutur. Əlbəttə, infrastruktur layihələri də diqqətdədir. Ancaq qeyd etdiyim kimi, onların böyük hissəsi başa çatıb, yaxud da ki, başa çatacaq. Ona görə iqtisadiyyatın real sektoru, kənd təsərrüfatı, sənaye potensialının gücləndirilməsi əsas məsələlərdən biridir. Müxtəlif mexanizmlər işə salınıb, müxtəlif təşəbbüslər irəli sürülüb".

**Dövlət başçısı bildirib ki, sənaye potensialının inkişafı üçün sənaye zonalarının, sənaye parklarının çox böyük rolu var:** "Azərbaycan indi müasir sənaye mərkəzinə çevrilibdir. Bu sahədə görüləcək işlər əminəm ki, ölkəmizin qeyri-neft sektorunun inkişafını təmin edəcək, qeyri-neft ixracının həcmini böyük dərəcədə artıracaq".

**Prezident qeyd edib ki, ölkədə xalçaçılığın inkişafı istiqamətində işlər davam etdiriləcək. Bundan əlavə, ölkədə iplik və hazır tekstil fabriklərinin tikilməsinə də ehtiyac var:** "Bizdə iplik fabrikləri var. Verilən məlumata görə, tədarük edilən pambığın təxminən 50 faizi artıq Azərbaycanda emal olunur və bu, əlavə dəyər yaradır. Bu, çox yaxşı haldır. Ancaq sahibkarlar bilməlidirlər ki, potensial daha böyükdür. Azərbaycanda pambıq istehsalı artır. Ona görə hesab edirəm ki, sahibkarlar iplik fabriklərinin tikilməsinə çox ciddi baxmalıdırlar. Bu, çox gəlirli və ölkəmiz üçün çox faydalı bir işdir. Eyni zamanda, ipəkçiliyin inkişafı ilə bağlı çox ciddi addımlar atılır. Artıq Qax rayonunda Damazlıq Baramaçılıq Mərkəzi yaradılır. Bu da imkan verəcək ki, biz idxaldan asılılığı azaldaq və gözəl bir zəncir yaradaq, tingdən hazır ipək parçasına qədər. Yenə də dövlət əsas işi öz üzərinə götürüb. Ancaq sahibkarlar da mütləq bu sahəyə maraq göstərməlidirlər. Hesab edirəm ki, bu, onlar üçün faydalı ola bilər".


Pərviz Heydərov

**Azərbaycanda yeni meyvə-tərəvəz emalı müəssisələrinin yaradılmasına ehtiyac var:** "Çünki meyvə və tərəvəz istehsalı artır. Biz bunu daha çox meyvə-tərəvəz kimi ixrac edirik. Ancaq xarici bazarlarda emal olunmuş məhsullara da böyük tələbat var. Biz kənd təsərrüfatında islahatları dərinləşdirməliyik. Kənd təsərrüfatı elmi əsaslarla inkişaf etməlidir. Müasir texnologiyalar, yanaşmalar tətbiq olunmalıdır. Biz ərzaq təhlükəsizliyi ilə bağlı bundan sonra da mütləq ciddi iş aparmalıyıq, bu, prioritet məsələdir. Məhsuldarlığın artırılması istiqamətində işlər görülür. Hesab edirəm ki, bu, yaxın gələcəkdə özünü göstərəcək. Biz kənd təsərrüfatı məhsullarının ixracını artırmalıyıq. Düzdür, son 15 il ərzində kənd təsərrüfatı məhsullarının ixracı təxminən 6 dəfə artıb. Ancaq potensial da böyükdür və biz yeni bazarlara çıxmalıyıq. Ticarət evləri açılır, ixrac missiyaları göndərilir, dövlət tərəfindən sahibkarlara çox böyük dəstək verilir ki, onlar öz məhsullarını xaricdə sata bilsinlər. Əlbəttə ki, aqroparkların da çox böyük əhəmiyyəti var. Artıq 250 min hektarda 51 aqropark yerləşir".

**Qarşıya qoyulan hədəfləri açıqlayan prezident taxıl istehsalı sahəsində məhsuldarlığın yüksəldilərək Avropa İttifaqı səviyyəsinə çatdırılması, növbəti 5 il ərzində mal əti istehsalının 15 faiz, süd istehsalının 15-20 faiz artırılmasının nəzərdə tutulduğunu bildirib. Prezident pambıqçılıqda da məhsuldarlığın artırılmasının vacib olduğunu deyib:** "Pambıqçılıq üçün yararlı torpaqlar seçilməlidir və harada məhsuldarlıq aşağıdır, orada başqa məhsullar yetişdirilməlidir".

**Dövlət başçısının verdiyi məlumata görə, bütövlükdə ilkin hesablamalara görə, regionların sosial-iqtisadi inkişafına dair dördüncü dövlət proqramının icrası üçün ən azı 17 milyard manatdan çox vəsait nəzərdə tutulur:** "Hesablanıb ki, bunun 4,6 milyard manatı özəl sektor tərəfindən indi icra edilən və hazırlığı gedən layihələrə investisiya şəklində qoyulacaq. Dövlət tərəfindən təxminən 13 milyard manata yaxın kapital qoyuluşu gözlənilir. Ancaq əlbəttə ki, bu, ilkin rəqəmdir. Mən tam əminəm ki, bu rəqəm daha böyük olacaq".

**İqtisadçı-ekspert Pərviz Heydərovun "Yeni Müsavat"a dediyinə görə, regionların sosial-iqtisadi inkişafına dair indiyədək həyata keçirilmiş 3 dövlət proqramının ən mühüm nəticəsi regionlarda mükəmməl infrastrukturun formalaşdırılmasıdır:** "Bildiyiniz kimi, regionların sosial-iqtisadi inkişafı prezidentin hələ seçkilərdən öncə verdiyi əsas vədlərdən biridir. İqtisadiyyatın istənilən sahəsində inkişafa nail olunması, emal və istehsal müəssisələrinin yaradılması üçün müvafiq infrastrukturun olması ən vacib şərtlərdən biridir. Bu baxımdan, indiyədək regionların qaz, elektrik enerjisi, avtomobil yolları və s. təminatı sahəsində böyük işlər görülüb, turizmin inkişafı üçün zəruri infrastruktur yaradılıb. İndi isə əsas diqqət regionlarda emal və istehsal sahələrinin inkişaf etdirilməsidir. Ölkə prezidentinin verdiyi məlumatdan da aydın olur ki, regionların sosial-iqtisadi inkişafına dair dördüncü proqramın qarşısına qoyulan əsas hədəflər kənd təsərrüfatı və sənayenin inkişaf etdirilməsidir".

**İqtisadçının fikrincə, regionların inkişafı üçün əsas diqqət yetirilməli olan məsələlərdən biri yerli xammal əsasında istehsal müəssisələrinin yaradılmasıdır:** "Düzdür, regionlarda bir sıra emal müəssisələri, istehsal sahələri yaradılıb. Lakin bu müəssisələrin yerli aqrar istehsalçılarla əlaqəsi çox zəifdir. Əgər bir rayonda emal müəssisəsi ola-ola yerli istehsalçı məhsulunu satmağa yer tapmırsa, deməli, o müəssisə ilə istehsalçılar arasında koordinasiya yoxdur. Bu baxımdan, Azərbaycanda proses çox ləng gedir. Düşünürəm ki, dördüncü proqram çərçivəsində istehsal və emal müəssisələri yaradılarkən yerli istehsalçılarla əlaqələndirməyə xüsusi diqqət yetirilməlidir".

**İqtisadçı-ekspert Rövşən Ağayev isə hesab edir ki, yeni proqram tamamilə fərqli formatda olmalıdır:** "İlk növbədə, hər bir iqtisadi region üzrə ayrıca proqram işlənməli və həmin proqramlarda aşağıdakılar əks olunmalıdır:1) Proqramda hər bir regionun spesifikası nəzərə alınmaqla fürsətlər, təhdidlər, zəif və güclü tərəflər (SWOT analiz); 2) Siyasi, hüquqi, iqtisadi, sosial, texnoloji və institusional mühit amillər (PESTLE analiz); 3) Hədəflər, hədəflərə yönəlik fəaliyyətlər, hədəflərə çatmanı ölçmək üçün yekun göstəricilər; 4) Hər bir fəaliyyət üzrə tələb olunan resurslar".

Ekspertin fikrincə, məhz bu standartlara uyğun hazırlanan regional inkişaf proqramları yeni dövrün tələblərinə uyğun proqramlar sayıla bilər: "Əlavə olaraq, bu proqramlar bütün maraqlı tərəflərin - vətəndaş cəmiyyəti və media, ixtisaslaşmış ekspertlər, biznes icmasının geniş və ortaq müzakirəsinin yekunu kimi ortaya çıxmalıdır".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

# Polietilen torbaların pullu olması məsələsi yenidən gündəmdə

## "Bu torbaların ətraf mühitə, flora və faunaya mənfi təsirləri hesaba gəlməyəcək dərəcədə böyükdür"

**Azərbaycanda bir müddətdir ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) plastik qablar və polietilen torbalardan tədricən imtina edilməsi istiqamətində işlər aparır. Bütün bu işlərin fonunda mağazalarda müştərilərə pulsuz verilən sellofan torbaların da bu ildən etibarən pullu olacağı söylənilir.**

Məhz bu məqamda insanlarda məsələ ilə bağlı narazılıq yaradır. Lakin onu da qeyd edək ki, Avropanın bir çox ölkələrində, eləcə də Türkiyədə polietilen torbalardan Azərbaycanda olduğu kimi istifadə edilmir. Bir çox ölkələrdə isə bu torbalar pulludur. Müştəri bu cür torbaları almaq üçün əlavə ödəniş edir.

Məqsəd sellofan torbalardan istifadəni minimuma endirməkdir.

Məlumatlarda qeyd olunur ki, sellofanların tərkibində xərçəng əmələ gətirən və hüceyrələri dağıdan maddələr var. Bu torbaların istifadəsi sağlamlıq üçün təhlükə olmaqla bərabər, ətraf mühitə də ziyan vurur, ekologiyanı zədələyir. Bu tullantılar yandırarkən havaya ayrılan zəhərli qazlar insanların sağlamlığına, heyvanların isə məhvinə gətirib çıxarır. Bütün bu kimi səbəblərə görə dünyada da bu təhlükənin qarşısını almaq üçün müxtəlif tədbirlər görülür.

**ETSN-in mətbuat xidmətinin rəhbəri İradə İbrahimova "Yeni Müsavat"a bildirib ki, polietilen torbalar ətraf mühiti çirkləndirən əsas faktorlardan biridir:**

"Bu torbalar təbii yolla çürüyüb parçalanmır, torpağa qarışmır və uzun müddət tullantı kimi qalaraq, ətraf mühiti çirkləndirir. Marketlərdə polietilen torbaların pulla satılmasının tərəfdarıyıq, lakin qiymət məsələsini biz müəyyən etmirik. Bir daha qeyd edirəm ki, polietilen torbaların pullu olmasını dəstəkləyirik".



**İ.İbrahimova bildirib ki, marketlərdə sellofan torbaların pulsuz verilməsi ilk baxışdan yaxşı bir təşəbbüs kimi görünür:** "Alıcılar da pulsuzdur deyə, bundan məmnuniyyətlə istifadə edirlər. Ancaq bilmirlər ki, bu torbaların ətraf mühitə, flora və faunaya mənfi təsirləri hesaba gəlməyəcək dərəcədə böyükdür. Ona görə də sellofan torbalardan istifadə tədricən məhdudlaşdırılmalıdır. Mənimlə yəqin razılaşarsınız ki, bu torbalar qısa müddət ərzində istifadə edildikdən sonra atılır və yol kənarında, ətraf ərazilərdə xoşagəlməz mənzərə yaradır".

**İ. İbrahimova qeyd edib ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi bir müddət əvvəl polietilen torbaların tədricən azaldılması və məhdudlaşdırılması təşəbbüsünü irəli sürüb və bununla bağlı KİV nümayəndələrinin iştirakı ilə aksiyalar keçirilib, ictimaiyyət arasında sorğular aparılıb:** "Plastik və polietilen tullantılarının ətraf mühitə mənfi təsirlərinin azaldılması məqsədilə nazirlik tərəfindən kompleks tədbirlər planı hazırlanıb və qərar verilməsi üçün aidiyyəti qurumlara təqdim edilib. Hazırda polietilen torbaların pullu olması, plastik qablaşdırma materiallarından istifadənin məhdudlaşdırılması, alternativ qablaşdırma materiallarından istifadə üçün şəraitin yaradılması və bu kimi digər məsələlərlə bağlı təkliflər paketi razılaşdırma mərhələsindədir.

ETSN vətəndaşlarımızı təmiz ətraf mühit üçün polietilen torbalardan imtina etməyə, alış-verişlərdə parça torbalardan və həsir zənbillərdən istifadə edərək ətraf mühitin qorunmasına töhfə verməyə çağırır".

**Onu da qeyd edək ki, nazirliyin sektor müdiri Mehman Nəbiyev jurnalistlərə açıqlamasında bildirib ki, plastik tullantıların ətraf mühitə mənfi təsirlərinin azaldılması məqsədilə ETSN beynəlxalq ekspertlərin iştirakı ilə maraqlı tərəflərin görüşünü təşkil edib:**

"Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirlərinin azaldılması üzrə "Tədbirlər Planı" qəbul olunduqdan sonra bütün maraqlı tərəflərin iştirakı ilə mərhələli şəkildə tədbirlərin icrasına başlanılacaq. "Tədbirlər Planı"nda ətraf mühitin çirklənməsində daha çox paya malik yüngül çəkili polietilen torbalardan istifadənin məhdudlaşdırılması, marketlərdə ödənişli sistemin tətbiqi və çox yüngül çəkili növlərinin isə tam qadağan edilməsi ilə bağlı təkliflər yer alıb. Beynəlxalq təcrübə göstərir ki, bu torbalar ödənişli olduqdan sonra onlara olan tələbat 95 faizədək azalır. Lakin polietilen torbalardan istifadəni azaltmaq üçün onların marketlərdə ödənişli olması yeganə həll üsulu deyil. Həmin materialların alternativləri, yəni kağız, parça, kətan torbaların istehsalının genişləndirilməsi ilə bağlı tədbirlər də nəzərdə tutulub və nazirlik beynəlxalq ekspertlərin iştirakı ilə maraqlı tərəflərin görüşünü təşkil edib. Görüşdə müvafiq qurumların, qeyri-hökumət təşkilatlarının və istehsalçı şirkətlərin nümayəndələri də iştirak edib".

❑ **Əli RAİS, "Yeni Müsavat"**

**Yanvarın 20-də Gürcüstanın Axalkalaki rayonunun Buqaşen kəndində Dağlıq Qarabağ müharibəsində Azərbaycan xalqına qarşı hərbi cinayətlərdə iştirak etmiş Mixeil Avagyanın abidəsi ucaldılıb.**

# Azərbaycanın Gürcüstana etdiyi jestlər və abidə nankorluğu...

## Pənah Hüseyn: "Bu, əxlaqa və mənəviyyata ziddir"

## Vüqar Bayramov: "İqtisadi jestlər baxımdan Gürcüstan Azərbaycandan gələn təklifləri və səsləri dinləyəcək"

## Natiq Cəfərli: "Azərbaycanlılar Gürcüstanda siyasi aktivlik göstərsəydilər...

Bu hadisə bir neçə gündür Azərbaycanda ciddi etirazlara səbəb olub. Qonşu Gürcüstanla iqtisadi və siyasi münasibətlərin yüksək səviyyədə olması səbəbindən sonuncu tərəfindən bizim milli maraqlarımıza vurulan zərbə anlaşılan deyil. Bu günə qədər Azərbaycan Gürcüstan iqtisadiyyatına yetərincə böyük faydalar verib.

**İqtisadçı, Real Partiyası İdarə Heyətinin üzvü Natiq Cəfərli** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ümumiyyətlə, Gürcüstanın idarətetmə strukturu ilə Azərbaycan arasında ciddi fərqlər var. Müsahibimizin sözlərinə görə, orada yerli özünü idarəetmə güclü inkişaf edib və ermənilərin kompakt yaşadığı bölgə olan Axalkalakidə daha ciddi siyasətlə maraqlanırlar: "Ermənilərin bələdiyyə institutlarında təmsil olunması da heykəllər, parklarla bağlı bələdiyyələrin verdiyi qərarlarda təsir gücünə malikdir. Yerli bələdiyyələrin verdiyi qərar ona əsaslanmışdı ki, Azərbaycanda bu, ciddi etiraz doğuracaq. Cəmiyyət də çox hallarda Gürcüstanın idarəetmə quruluşunu bilmədiyi üçün Gürcüstan hökumətini və prezidentini suçlayırlar. Halbuki azərbaycanlılar orada daha ciddi siyasətlə məşğul olsaydılar, bələdiyyələrdə üstünlük qazansaydılar - say etibarilə azərbaycanlılar Gürcüstanda əzici üstünlüyə malikdirlər - azərbaycanlılar da orada bələdiyyə qərarı ilə məşhur azərbaycanlıların heykəllərini ucalda bilərdilər".

**N.Cəfərli həmçinin bildirdi ki, Gürcüstan bu mənada Azərbaycanın təbii iqtisadi uzantısıdır:** "Gürcüstan bizi Avropaya bağlayan körpüdür. Bakı-Tiflis-Ceyhan xəttinə, TANAP, TAP layihələri, Bakı-Tiflis-Qars dəmir yolu xəttində Gürcüstana məcburiyyətdən sərmayə qoyulubdir. Gürcüstanda əhalinin qazla təmin olunmasında SOCAR mühüm rol oynayır. Bir var əhaliyə qazı satasan, bir də var daha yüksək qiymətə satasan. Azərbaycan Gürcüstana pul bağışlamır, öz iqtisadi maraqları çərçivəsində hərəkət edir".







**AXP sədri Pənah Hüseyn "Yeni Müsavat"a açıqlamasında istənilən halda Gürcüstan və Azərbaycan xalqları arasında xoş münasibətlərin qorunub saxlanmasının tərəfdarı olduğunu dedi. Onun sözlərinə görə, münasibətlərin müsbət məcrası rəqib və düşmənləri narahat edir:** "Qarabağda dinc insanlara qarşı vəhşilik törətmiş bir şəxsə abidə ucaldılması açıq-aşkar fitnəkarlıqdır. Xocalı faciəsi beynəlxalq sənədlərdə də dinc əhaliyə qarşı qırğın kimi qeydə alınıb. Bu baxımdan həmin şəxsə Gürcüstanda abidə ucaldılması əxlaqa və mənəviyyata ziddir".

**İqtisadçı Vüqar Bayramov isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Azərbaycanla Gürcüstan arasında əvvəlki dövrdə strateji-iqtisadi müttəfiqlik olub və bu, hazırda davam edir. Onun sözlərinə görə, xüsusən Azərbaycan tərəfi problemi həll etməyə çalışır:** "Bu əməkdaşlıq yalnız enerji layihələrinin, eləcə də nəqliyyat layihələrinin Gürcüstan üzərindən keçməsidir. Habelə Azərbaycanın investisiyasının Gürcüstan iqtisadiyyatına töhfələri olub. 2018-ci ilin yekunları hazırlanır. Amma 2017-ci ilin yekunlarına görə, Azərbaycan Gürcüstana yönəldilən xarici investisiyaların həcminə görə birinci olub, Niderland isə ikinci. 1.8 milyard dollarlıq illik investisiya cəlb olunub Gürcüstan iqtisadiyyatına. Onun da 24.6 faizi, yəni, 1/4-i məhz Azərbaycanın payına düşür. Azərbaycan 465 milyon dollarlıq xarici investisiya ilə Gürcüstan iqtisadiyyatında birincidir. Niderland 356 milyon dollarlıq investisiyaya malikdir illik olaraq. Türkiyə 286 milyon dollarlıq investisiya qoyuluşu həyata keçirib. Eyni zamanda 2018-ci illə bağlı ilk məlumat onu göstərir ki, Azərbaycan birmənalı olaraq Gürcüstanda aparıcı xarici investor statusunu qoruyub saxlayıb. Bu da Azərbaycanın Gürcüstan iqtisadiyyatına bir töhfəsi kimi qiymətləndirilməlidir. Azərbaycanla Gürcüstan arasında iqtisadiyyatın dövriyyəsi 545 milyon 479 min dollar olub. Xüsusən nəzərə alsaq ki, yarım milyard dollardan artıq iki ölkə arasında investisiya dövriyyəsi var. Bu da xüsusən Gürcüstan nisbətən kiçik ölkə olduğu üçün yarım milyarda yaxın bu vəsait böyük rəqəm kimi xarakterizə olunmalıdır. Azərbaycanın iqtisadi jestləri çox olub. Azərbaycan xüsusən də enerji kəmərlərini Gürcüstan ərazisində reallaşdırmaqla Gürcüstanın strateji əhəmiyyətinin artmasına yardım göstərir. Yalnız Gürcüstanla Rusiya arasında münaqişə zamanı Gürcüstan tərəfə mavi qazın verilişi dayandırılanda Azərbaycan qısa zamanda Gürcüstana mavi qaz verdi. Baxmayaraq ki, o dönəmdə Azərbaycanın daxildə mavi qaza tələbatı var idi".

**V.Bayramov dedi ki, bu mənada Azərbaycan hər zaman Gürcüstana jestlər edib və Gürcüstan da bundan daimi olaraq faydalanıb:** "Bu gün Gürcüstan iqtisadiyyatının inkişafında Azərbaycan investisiyasının reallaşdırdığı regional layihələrin payı heç də az deyil. O baxımdan, hər halda, iki ölkə arasında münasibətlərin korlanması arzuolunan deyil. Ümid edək ki, iqtisadi jestlər baxımdan Gürcüstan Azərbaycandan gələn təklifləri və səsləri dinləyəcək. Bu problemi qısa zamanda həll etməyə çalışacaq".

❑ **Sevinc TELMANQIZI, Musavat.com**

# "Vaşinqton Post"da Azərbaycan həqiqətlərinin dərc olunmamasının səbəbi...

**Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması mövzusunda zaman-zaman təkliflər səslənir, ictimai müzakirələr keçirilir. Bu mübahisələrin mərkəzində hər zaman nüfuzlu nəşrlərdə Azərbaycanla bağlı məqalələrin dərc edilməsi tələbi dayanır. Ölkəmizin xaricdəki səfirlikləri, Xarici İşlər Nazirliyinin nümayəndələri, diaspor təmsilçiləri niyə bu missiyanı çiyinlərindən atırlar? Problem bu kateqoriyadakı şəxslərin səriştəsizliyindən, istəksizliyindən irəli gəlir, yoxsa digər səbəblər var?**

Azərbaycana qarşı ən sərt tənqidlər əsasən Amerikanın "Vaşinqton Post" qəzetində nəşr olunur. Nəşrin ənənəvi prinsiplərinə görə, qəzetin missiyası yalnız həqiqəti söyləməkdir: Qəzet ABŞ haqqında ancaq həqiqəti əks etdirən xəbərləri yaymalı, heç bir siyasi marağın daşıyıcısı olmamalı, həm yaşlı, həm də gənc nəslin maraqlarını əhatə etməlidir, əsas məqsədi şəxsi maraq sahiblərinə deyil, oxucularına və geniş kütləyə xidmətdir. Qəzet həqiqət naminə öz gəlirlərindən imtina etməli, ədalətli və azad yol tutmalıdır...

"Vaşinqton Post" Amerika iqtidarına ciddi təsir edir, seçicilər, federal xidmət əməkdaşları, məmurlar tərəfindən çox oxunur. Vəzifəyə təyin edilmə, vəzifədən çıxarılma, qanunvericilik, daxili-xarici siyasətlə bağlı qərarların verilməsində qəzetin yazdıqları böyük rol oynayır.

Statistik göstəricilərə görə, "Vaşinqton Post"un təkcə 2012-ci ildə illik gəliri 110.6 milyon dollar olub. Bu, əsasən saytdakı reklamın hesabına olub.

Belə bir nüfuzlu media orqanında Azərbaycanın haqq səsinin ucaldılmaması ciddi boşluq sayılmalıdır.

Mətbuat Şurasının İdarə Heyətinin üzvü Azər Həsrət "Yeni **Müsavat"a açıqlamasında bildirdi ki, bu məsələ onun yaralı yeridir. Onun fikrincə, Azərbaycanın millət vəkilləri, ayrı-ayrı diplomatları xarici media ilə işləməkdə çox passivdilər və ümumiyyətlə, işləmirlər:** "Düzdür, Amerikadakı səfirimiz Elin Süleymanv haqqında bunu deyə bilmərik. Çünki o və ümumiyyətlə, bizim oradakı heyət bu məsələdə çalışqandır. Amma belə götürəndə əksər dövlətlərdəki Azərbaycan səfirlərinin həmin ölkədəki mediadan xəbərləri belə olmur. Hətta orada baş verən hadisələr, Azərbaycana aidiyyəti olan heç bir reaksiyaları heç vaxt müşahidə etmirlər. Üstəlik, sosial media ilə çox zəif işləyirlər. Belə məqamları görürük. Facebook, twitterdən geniş istifadə etmirlər. Millət vəkillərimizə gələndə kiçik bir qrup deputatları çıxmaq şərtilə yerdə qalanların, ümumiyyətlə, sosial media ilə əlaqələri yoxdur. Bəlkə də var. Amma başqa məqsədlər üçün özləri və ya yaxınları istifadə edir. Amma bunun siyasi məqsədlər üçün istifadə edildiyini görmürük".



**Azər Həsrət:** "Əksər dövlətlərdəki Azərbaycan səfirlərinin həmin ölkədəki mediadan xəbərləri belə olmur"



**Bəxtiyar Hacıyev:** "Diaspor və diplomatların müxtəlif ölkə siyasətçiləri ilə əlaqələri yaxşı səviyyədə deyil"

**Müsahibimiz Azərbaycanı beynəlxalq mediada təmsil etməyənlərin mövqeyinə gəlincə, bildirdi ki, əksəriyyətinin buna qabiliyyəti, təcrübəsi çatmır. Müsahibimiz bəzi deputatların hətta elementar rus dilində danışa bilmədiyini vurğuladı:** "İngilis dilini qoyuram kənara. Dünyada gedən prosesləri izləyə bilmirlər. Elə deputatlar var ki, hələ də onların adı Azərbaycan mediasına bəlli deyil. Parlamentdə kürsü zəbt etməklə deyil ki. Təbii ki, o cür adamlardan hansısa addım gözləmək sadəlövhlük olardı. O baxımdan da hesab edirəm ki, çıxış yolu bir sonrakı parlamentin tərkibinin formalaşdırılması zamanı bu amilin nəzərə alınmasıdır. Yəni Azərbaycana edilən hücumlara ediləcək operativ hücumlara cavab verəcək tərkib formalaşdırılmalıdır. Eləcə də diplomatlar kiminsə qohumu, tanışı, kiminsə yaxını, kiminsə tapşırdığı adamlar arasından seçilməməlidir. Həqiqətən də Azərbaycan dövlətinə sadiq, eyni zamanda da işləmək üçün ürəyi olan şəxslər arasından diplomatlar seçilib səfirliyə göndərilməlidir ki, baş verənlərə operativ reaksiya versinlər".

**Azərbaycanın üzərinə hər tərəfdən hücumlar edildiyini xatırladan müsahibimiz dedi ki, bu yaxınlarda Avropa Parlamentinin Azərbaycanla bağlı qətnamə qəbul etməsindən sonra azərbaycanlı deputatların kiçik bir qrupu Azərbaycan mediasında bununla bağlı mövqe bildirdilər:** "Amma siz onlan tapın və sual verin ki, onların neçəsi bu çıxışlarını ingilis dilinə tərcümə edib, Avropa parlamentinə göndəriblər? Şəxsən mənə məlum deyil. Sadəcə, bu günlərdə Milli QHT Forumu adından ingilis dilində açıqlama yayımlandı. Amma deputatlarımızdan kiminsə bunu etməsi barədə mənim məlumatım yoxdur. Edilibsə belə, bir neçə nəfər edib. 125 nəfərlik parlamentdən ən azı 100 nəfər bu hadisələrə reaksiya verməyib".

**İctimai fəal, Harvard Universiteti məzunu Bəxtiyar Hacıyev isə bildirdi ki, "Vaşinqton Post" kimi qəzetlərin hətta ödənişsiz yazı yayımlamaq imkanları var. Onun sözlərinə görə, vətəndaşı olduğu ölkə ilə bağlı sözügedən qəzetdə hansısa məsələ işıqlandırılıbsa, səfirlik və nüfuzlu bir şəxsin buna cavab vermək haqqı var:** "Son illər beynəlxalq mətbuatda Azərbaycanla bağlı neqativ, balanslandırılmamış məlumatların getməsi halları geniş yayılıb. Bu da onun nəticəsidir ki, diaspora və diplomatların müxtəlif ölkə siyasətçiləri ilə əlaqələri yaxşı səviyyədə deyil. Bunun da kökündə o dayanır ki, Xarici İşlər Nazirliyi və müxtəlif səfirliklərə təyinatlar istedad və bacarıq əsasında yox, başqa bacarıqlar əsasında olurdu. Kimsə kiminsə qohumudur deyə diplomat kimi göndərilirdi. Bu da ümumi nəticəyə təsir edir".

**B.Hacıyev bildirdi ki, bu məsələdə seçkilərin də böyük rolu var. Onun fikrincə, seçkilər normal keçirilsəydi, həmin ölkələrdə təhsil almış, yaşamış insanlar həmin ölkələrlə olan parlamentlərarası qruplarla əməkdaşlıq edə bilərdilər:** "Elə insanlar var ki, parlamentdə, dostluq qruplarında bəzi şablon nitqləri oxuyub qayıdırlar. Sonra da şikayətlənirlər ki, bizə dəstək vermədi. Hətta bu nitqləri dinləməyə mən Azərbaycan vətəndaşı olaraq əziyyət çəkirəm. O ki qaldı xarici ölkə insanları".

**Müsahibimiz həmçinin vurğuladı ki, lobbiçilik sahəsində də ciddi problemlər var. B.Hacıyevin sözlərinə görə, keçmişdə bu görəvlər müxtəlif ölkələrdə müxtəlif məmur övladlarına vermişdilər:** "O sahəyə olduqca böyük pullar ayrılmışdı. Tutaq ki, adam Ağ Evlə Konqres binasını səhv salırdı, amma lobbiçilik etməyə iddialı idi. "Vaşinqton Post", "Nyu York Tayms" kimi nəşrlərdə Azərbaycanla bağlı məqalələrin yazılmamasının səbəbi düzgün kadr siyasətinin, normal lobbiçilik, diaspora fəaliyyətinin olmamasıdır".

❑ **Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 23(7193) 31 yanvar 2019



# Gözəl icadın zibilini çıxaranlar...

Samir Sarı

**Son min ilin ən önəmli icadlarından biri də, heç şübhəsiz ki, sosial şəbəkələrdir. Kimsə etiraz edib deyə bilər ki, yox, atomun kəşfi, mobil rabitənin icadı daha önəmli kəşflərdir. Olsun ki, elədir. Amma sosial şəbəkələrin icadı da inqilabi səciyyə daşıyır. Dünyanı məhvərindən oynatmaqdadır.**

Bax, bu üzdəndir ki, bəzi ölkələr öz daxillərində sosial şəbəkələri ya qadağan ediblər, ya məhdudlaşdırıblar, ya da bunu etməyi düşünürlər.

Bəzi padşahlar ona görə bu fikrə dolublar ki, Tunisin sabiq prezidenti Zeynəlabdin bin Əlinin, eləcə də Misirin diktatoru Hüsnü Mübarəkin devrilməsinin səbəbi kimi sosial şəbəkələrdən quşqulanırlar. Kimsə deyib ki, onları sosial şəbəkədə təşkilatlanan fəallar bir-biri ilə xəbərləşərək devirdilər, bəziləri də inanıb.

Amma məncə bu, havayı söhbətdir. Diribaş adamlar sosial şəbəkələr olsa da, təşkilatlana bilirlər, olmasa da. Eyni zamanda ölüvay adamlara yüz dənə sosial şəbəkə qayır ver, nə edəcəklər? Heç nə. "Qız tutmaq" üçün istifadə edəcəklər, "ərindən boşanmış gəlin" ovuna çıxacaqlar, "pul buraxan xala" axtaracaqlar, öz sektalarını təbliğ edəcək, yad sektaya nifrət püskürəcəklər, səy-səy özünüreklam mətnləri yazacaqlar, arada hissə qapılıb kədərli şeir paylaşacaqlar, uzaq bir ölkədəki iqtidar-müxalifət davasında tərəf tutub söyüşəcəklər, "Qalatasaray"-"Fənərbağça", "Real"-"Barselona", "Mançester Yunayted" - "Çelsi", "Milan"-"Yuventus" davası aparacaqlar, kiminsə şəxsi həyatına aid videonu paylaşaraq hırıltı-irişmə kampaniyası başladacaqlar, birinin bir cümləsini kontekstdən çıxarıb yeddi arxa dönənini söydürəcəklər və sair və ilaxır.

Söz yox, bizdə də sosial şəbəkədən ictimai-siyasi planda toparlanmaq, təşkilatlanmaq üçün istifadə etməyi düşünənlər var. Amma görün onlar nə edir: götürüb yazırlar ki, filan gün "mitinqə gəlməyən peysərdir", "ana-bacısının qədrini bilən etiraz aksiyasına çıxsın", "orda bir gənc bizdən ötrü aclıq edir, bu tərəfdə oğraşlar yeyib-içməkdədir, kişi olun, ə" və sair və ilaxır.

Belə söhbətlər isə qədirbilən xalqımızı dəruni şəkildə mütəəssir edir.

Ona görə də artıq əvvəlki kimi deyil, sosial şəbəkələrdən iyrənənlər günbəgün çoxalır. Hətta dünyanın ən demokratik, inkişaf etmiş ölkələrində belə hökumət adamları fikirləşirlər ki, nə etsinlər, necə eləsinlər ki, sosial şəbəkələr sosial probləmə çevrilməsin.

Məsələn, İngiltərənin səhiyyə naziri məsələ qaldırıb ki, sosial şəbəkələrdə intihar olaylarına aid xəbər və şəkillərinin yayılması qadağan olunsun, bu qadağaya riayət etməyən şəbəkələrin fəaliyyəti isə dayandırılsın.

Elə olsa, bu qadağa İngiltərədə uğurla tətbiq edilsə, bizdə də ondan yararlanmaq olar. Çünki çox vaxt burda da istifadəçilər sosial şəbəkələrədə kiminsə intihar videosunu sevə-sevə paylaşırlar. Ümumiyyətlə, bu, çoxlarının sevimli mövzusudur. Bir də görürsən, şair qəlbli gənclərdən biri ikibaşlı anons verir: "Haqqınızı halal edin, getdim". Duyarlı, həssas insanlar dərhal həyəcanlanırlar, elə bilirlər, adam intihara gedir, çoxlu şərhlər yazırlar, adamı yolundan döndərməyə çalışırlar. Beş-altı saatlıq intensiv yazışmalardan, zəngləşmələrdən sonra məlum olur ki, şair ya Bakıdan çıxıb doğma kəndinə gedib, ya da sosial şəbəkədən gedib (1 aydan sonra yenidən qayıdıb qızıl xırdalamaq üçün).

Belələrinə görə hərdən adam istəyir ki, bütün sosial şəbəkələr bağlansın ki, üzümüz onların üzünü görməsin, gözümüz onların sərsəmləmələrini oxumasın.

Rəhmətliyin uşağı, hər gün səfeh-səfeh status yazmaq, şəkil paylaşmaq zorundasınızmı? Bir gün də elə şey etməyin. Hər mövzuya, türkün sözü, maydonoz (cəfəri) olmayın, bir mövzuya da bitərəf olun, rəy bildirməyin, özünüzü elə aparın ki, başınız qarışıq olub, görməmisiniz. Buna görə Mark Zukerberq sizi işdən çıxarmayacaq, səhifənizi bağlamayacaq, haqqınızda araşdırma başlatmayacaq.

Bir dəfə yazmışdım, yenə təkrar edirəm: elə edəcəyik ki, bu boyda ixtiranın nemətini tutub əlimizdən alacaqlar. Hazır, gül kimi şəbəkədir, dost-tanışla yazışırıq, xəbərləşirik, ortaq sevinc və kədərlərimizi bölüşürük, yeri gələndə müzakirə aparırıq. Fərağat durun də. İngilisdən çox bilirsiniz?

---

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sabiq sədri, hazırda baş nazirin müavini olan Əli Həsənovun "Qaçqınkom"a məxsus maşını özününküləşdirməsi geniş müzakirələrə səbəb olub. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi məsələ ilə bağlı açıqlama da yayıb. Açıqlamadan belə aydın olur ki, sabiq sədr Əli Həsənov vəzifədən gedərkən xidməti maşını da özü ilə aparıb. Buna görə də Rövşən Rzayev xidməti maşın almaq məcburiyyəti ilə üzləşib.**



# Əli Həsənov minib getdiyi "BMW"yə görə cəza ala bilər

## Hüquqşünas: "Onun hərəkəti vəzifədən sui-istifadədir"

Müzakirələrdə Əli Həsənovun məsuliyyət məsələsi də əsas məqamlardan biri kimi keçir. Əli Həsənov bu hərəkətinə görə cəzalandırıla bilərmi?




**Hüquqşünas Əkrəm Həsənov deyir ki, Əli Həsənovun hərəkəti vəzifədən sui-istifadədir:** "Cinayət Məcəlləsində 308-ci maddə var. Həmin maddə vəzifə səlahiyyətlərindən sui-istifadə adlanır. Yəni vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar özü və ya 3-cü şəxslər üçün qanunsuz üstünlük əldə etmə məqsədi ilə belə hərəkətlərə yol verilib. Məsələn, həmin maşından ailə üzvlərinin daşınması üçün istifadə edilməsi qulluq mənafeyinə qəsdən zidd hərəkətlərə yol vermədir. Və ya qulluq mənafeyi tələb etdiyi halda istifadə etməmə fiziki və hüquqi şəxslərin qanuni mənafelərinə, cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurmaqla törədilərsə, 3 min manatdan 4 min manata kimi cərimələnə bilər. Və ya 3 il müddətinə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum oluna bilər. 2 ilədək müddətə islah işləri ilə, 3 ilədək azadlıqdan məhrumetmə ilə cəzalandırıla bilər. Yəni belə aydın olur ki, Əli Həsənov vəzifədən getdiyi 5-6 ay ərzində maşından istifadə edib və onu məsuliyyət məsələsi də bu hala uyğun müəyyən edilməlidir. Əgər müəyyən olunsa ki, onun bu özbaşınalığı ağır nəticələrə səbəb olub, bu halda sabiq sədri hətta 7 ilədək cəza gözləyir".

**Hüquqşünas güman edir ki, Əli Həsənovun əməlində ağır nəticələr yoxdur:** "İstənilən halda Əli Həsənov cavabdehlik daşıyır, dövlətin əmlakını öz məqsədləri üçün istifadə edib. 308-ci maddə Cinayət Məcəlləsinin 33-cü fəslindədir. Həmin fəslin adı korrupsiya cinayətləridir. Qulluq mənafeyi əleyhinə olan digər cinayətlərdir. Bu əməllərə görə digər maddələr üzrə də ittiham oluna bilər. 308.1 maddəsi ilə də ittiham verilə bilər. Həmin maddə dövlət büdcəsinin, məqsədli dövlət büdcə fondlarının və ya büdcədən kənar büdcə fondlarının vəsaitindən təyinatı üzrə istifadə etməmədir. Həmin maddə üzrə ittiham olunarsa, maksimum 3 ilədək azadlıqdan məhrum oluna bilər. 309-cu maddə ilə də ittiham oluna bilər. Vəzifə səlahiyyətlərini aşma cinayətinə görə məsuliyyət müəyyən edən maddə ilə ittiham olunsa, 3 ilədək azadlıqdan məhrum oluna bilər".

**Əkrəm Həsənov deyir ki, əksər dövlət məmurları xidməti avtomobildən öz məqsədləri, mənafeləri üçün istifadə edirlər:** "Təsadüfi deyil ki, bu yaxınlarda dövlət başçısı xüsusi qərar verdi. Həmin qərara görə xidməti maşınların veriləcəyi vəzifə sahiblərinin siyahısı tərtib olunmalıdır. Hazırda elə məmurlar var ki, uşağına, həyat yoldaşına, qulluqçusuna belə ayrıca bir maşın işləyir. Həmin maşınların bir çoxu da dövlət büdcəsi hesabına alınıb, təmir olunur, gündəlik yanacaq xərcləri də həmin hesabdan qarşılanır. Əslində bu çox böyük korrupsiya cinayətidir və bunun qarşısı alınmalıdır. Kim istəyir ki, qulluqçusu maşında gəzsin, zəhmət çəkib maşını şəxsi hesabından alsın, maşının təmir, yanacaq və digər xərclərini cibindən versin. Korrupsiyaya Qarşı Mübarizə İdarəsi belə məmurları müəyyən edib onların dövlət büdcəsinə illərlə vurduqları ziyanı hesablamalı və ödətdirməli, özlərinin isə cəzaya çatdırılmasına nail olmalıdır. Əks təqdirdə, büdcənin çıxarları gəlirlərini belə qanunsuzluqlara görə hər il üstələyəcək".

Yada salaq ki, prezidentin struktur dəyişiklikləri ilə bağlı son fərmanı ilə Nazirlər Kabinetinə 3 ay müddətində mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, dövlət adından yaradılan publik hüquqi şəxslərdə və səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə xidməti nəqliyyat vasitələri ilə təmin edilməli vəzifələrin siyahısını prezidentlə razılaşdırmaqla müəyyən etmək tapşırılır. Sənədə əsasən müəyyən olunacaq siyahıdan kənarda qalan vəzifələrdə işləyən şəxslərə xidmət edən xidməti nəqliyyat vasitələrinin mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, dövlət adından yaradılan publik hüquqi şəxslərin və səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin balanslarından çıxarılaraq özəlləşdirilməsi üçün Əmlak Məsələləri Dövlət Komitəsinə təqdim ediləcək və nəticə barədə prezidentə məlumat veriləcək.

Maraqlıdır ki, qərarda Nazirlər Kabinetinin özünün olduğu xidməti avtomobillərə dair məlumat əksini tapmayıb. Bu baxımdan, baş nazirin müavini Əli Həsənova qurumdan xidməti avtomobil verilib-verilmədiyini müəyyənləşdirmək mümkün deyil.

**E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 23 (7193) 31 yanvar 2019

# "Venesuela maraqlı olmalıdır ki, neftini ABŞ bazarına satsın"

## İlham Şaban: "Amerika heç bir ölkənin neftindən asılı deyil"

**İndi hər kəs bu sualı ünvanlayır ki, Venesuela niyə qarışdı və bu prosesdə ABŞ-ın rolu nə qədərdir? Bir çoxları Latın Amerikasının neftlə zəngin ölkəsində qan su yerinə axmasını məhz qara qızıla görə olması ilə izah edirlər.**

Yeri gəlmişkən, ABŞ yanvarın 30-da Venesuelanın PDVSA (Petroleos de Venezuela Sociedad Anonima) dövlət neft-qaz şirkətinə sanksiya tətbiq edib. Nəticədə şirkətin ABŞ-dakı 7 milyard dollarlıq aktivi və daha 11 milyard dollarlıq hələ daxil olmamış gəliri bloklanıb.

"ABŞ tərəfindən Venesuelanın PDVSA dövlət neft şirkətinə qarşı sanksiya tətbiq olunması bütün çevriliş cəhdlərinin arxasında neft amilinin durduğuna dəlalət edir".

Bunu Venesuelanın xarici işlər naziri Xorge Arreas bildirib. "Vaşinqton nümayəndələri Venesuelada dövlət çevrilişi cəhdinin yeganə və həqiqi məqsədinin neft olduğuna dair konkret və təkzibolunmaz dəlilləri... həyasızlıqla bütün dünyaya nümayiş etdirdilər", - nazir vurğulayıb.

Bu arada isə ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Con Boltonun dəftərçəsindəki gizli qeyd dünya mediasını qarışdırıb. Jurnalistlər dəftərçədə yazılmış "5 min əsgər Kolumbiyaya» qeydi ilə bağlı qızğın müzakirələrə başlayıblar.

Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova bildirib ki, Boltonun bloknotundakı yazı Venesueladakı vəziyyətin müzakirəsinə həsr olunmuş mətbuat konfransından sonra peyda olub.



Onun sözlərinə görə, Venesuelada vəziyyətin destabilizasiyası Kolumbiya ərazisindən həyata keçirilir. Venesuela prezidenti Nikolas Maduro isə yanvarın 30-da deyib ki, ölkə müxalifəti ilə danışıqlara və üçüncü ölkələrin vasitəçiliyinə hazırdır.

**Bu halda ABŞ üçün Venesuelanı əhəmiyyətli edən nədir? Gerçəkdənmi Venesuelanı ABŞ qarışdırır? Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban "Yeni Müsavat"a açıqlamasında dedi ki, söhbət heç də Amerikanın Venesuela neftini ələ keçirməsindən getmir:** "Venesuela dünyada ən çox neft ehtiyatına malik dövlətdir. Amma Amerika heç bir ölkənin neftindən asılı deyil. ABŞ şirkətləri aldığı neftin pulunu yerindəcə ödəyir.

İstəyir İndoneziyada, istəyir Çində bu neft çıxsın, hamı Amerikaya neftini satmaq üçün növbədədir. Təkcə nefti ni yox, digər məhsullarını da ABŞ-a satmaq üçün ölkələr sıraya düzülüblər. Çünki böyük bazardır, pullu bazardır. Ona görə Venesuelaya maraqlı olmalıdır ki, ölkənin 70 faiz neftini Amerika bazarına satsın".

**İ.Şabanın sözlərinə görə, Amerika üçün Venesuelanın əhəmiyyəti daha çox siyasi faktorlarla bağlıdır:**

"Venesuela böyük resursa malik ölkədir. Orada 90-cı illərdə solçular hakimiyyətə gəldi və kapitalizmi rədd etdilər, naliyyətlər havaya sovruldu.

Bir milyondan artıq insan sığınacaq üçün qonşu ölkələrə üz tutub, inflyasiya gedib, orta aylıq əmək haqqı 12 dollardır. Bu da siyasi menecmentin idarəçiliyinin yarıtmazlığıdır ki, neft ixracı ən aşağı səviyyəyə düşüb. Halbuki o boyda ölkə dünyaya töhfəsini verə bilərdi".

**Ekspert bildirir ki, Venesueladakı iqtidar tutduğu ideoloji xəttə görə Amerikanı düşmən gözündə görür:** "Özünü Rusiyanın hərbi platsdarmına çevirib. Belə bir yanaşma var ki, nə olursa "Amerikanın bu işdə əli var" deyə, ona təhlükə mənbəyi kimi baxırlar. Atatürkün gözəl sözü var - "Cahan barış, dünyada barış, məmləkətdə barış". Dünyada iqtisadi vəziyyət yaxşı olmasa, sənin özündə yaxşı ola bilməz.

Çaves iqtisadiyyatda milliləşdirmə siyasəti apardı, Qərbin neft şirkətlərini çıxardı, kompensasiyalarını ödədi, Çin və Rusiyanı saxladı. Artıq həmsərhəd ölkələr Venesueladan qaçqın qəbul etmirlər və müharibə vəziyyəti ola bilər. Çünki neft gəlirləri güc strukturlarına xərclənib. Ona görə də Amerika bu ölkədə tamamilə ictimai-siyasi quruluşu dəyişmək istəyir".

**İ.Şaban qeyd etdi ki, Venesuela nefti ən çətin çıxarıla bilən və qatılaşan neftdir:** "Dünya bazarında neftin qiyməti 60 dollardır, Venesuelanın 4-5 növ nefti var, ortalama dünya bazarında qiyməti 30-40 dollar arasındadır. Çünki onların neftini hasil etmək üçün daha çox enerji sərf olunur, qiyməti aşağı verilir".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# ABŞ rəsmiləri Çini özlərinin əsas rəqibi elan ediblər

## Böyüyən Çin getdikcə Amerika üçün daha çox təhlükə yaradır

**Çin və Rusiya ABŞ üçün ən böyük casusluq və kiber təhlükəsi təşkil edir. "Amerikanın Səsi"nin məlumatına görə, bu barədə ABŞ-ın kəşfiyyat direktoru Dan Kots çərşənbə axşamı günü Senatda dinləmələr zamanı açıqlama verib. Senatın qlobal təhlükələrlə bağlı hər il keçirdiyi dinləmələrdə Mərkəzi Kəşfiyyat İdarəsi, Federal Təhqiqat Bürosu və kəşfiyyat orqanlarının digər rəhbərləri iştirak edib.**

ABŞ kəşfiyyatının rəhbəri bildirib ki, bu iki ölkə qlobal səviyyədə fəaliyyətlərini genişləndirdiyi halda, Amerikanın bəzi müttəfiqləri ABŞ-ın təhlükəsizlik və ticarət sahələrində siyasətini dəyişməsi ilə Vaşinqtondan özlərini uzaqlaşdırır.

**Sitat:** "Çin, Rusiya, İran və Şimali Koreya həm düşüncəyə, həm də maşınlara təhlükə yaratmaq üçün kiber əməliyyatlarını daha da genişləndirir. Buraya informasiyanın oğurlanması, bizim vətəndaşlarımıza təsir göstərmək, mühüm infrastrukturun işində fasilələr yaratmaq kimi cəhdlər daxildir".

Dan Kots deyib ki, indi Moskva ilə Pekin arasında münasibətlər son bir neçə on il ərzində olduğundan daha yaxındır. O, həmçinin bildirib ki, ABŞ-ın rəqibləri qabiliyyətlərini artırıb, yeni taktikalar əlavə edərək, artıq 2020-ci il seçkilərinə müdaxilə etmək üçün yollar axtarır.

Dan Kotsun sözlərinə görə, Rusiyanın sosial mediada səyləri sosial və irqi zəmində gərginliklərin artırılması, rəsmilərə etibarın azaldılması və siyasətçilərin anti-Rusiya əhval-ruhiyyələrini bölüşdüyünə görə tənqid edilməsinə yönəlib.

Qeyd edək ki, Amerika rəsmiləri artıq neçə ildir ki, "Çin təhlükəsi" barədə danışırlar. Hətta ötən il ABŞ-ın Milli Müdafiə Strategiyası Komissiyasının yayımladığı hesabatda Çin və Rusiyanın gücləndiyi, hətta baş verə biləcək müharibədə ABŞ-ın məğlub ola biləcəyi haqda xəbərdarlıq edilirdi.



Sözügedən sənəddə Rusiya və Çinin "Soyuq müharibə"nin başa çatmasından sonrakı dövr üçün bu gün hər zaman olduğundan daha böyük təhlükə meydana gətirdiyi, xüsusilə informasiya alətlərinin qarışığından istifadə etdiyi qeyd olunur. Hesabatda Birləşmiş Ştatların hərbi üstünlüyünün bir çox sahələr üzrə zəiflədiyi və eroziyaya uğradığı vurğulanıb.

Son bir neçə ildə isə ABŞ rəsmiləri internet üzərindən müdaxilədən daha çox bəhs edirlər. Hazırkı prezident Donald Trampın qalib gəldiyi seçkilərə Rusiya kəşfiyyatının müdaxiləsi iddiaları hələ də ABŞ siyasətində müzakirə mövzularından biridir. Üstəlik, ötən ilin sonlarında keçirilən Konqresə aralıq seçkilərə xarici müdaxilə iddiaları mövcuddur. Milli Kəşfiyyat İdarəsinin direktoru Dan Kots ötən il dekabrın 21-də bəyan edib ki, Rusiya, Çin, İran və başqa ölkələr ABŞ-da keçirilmiş 2018-ci il aralıq seçkisində seçicilərə təsir göstərməyə çalışıblar. Lakin o əlavə edib ki, bu cəhdlərin seçkinin nəticələrini təsirləndirdiyini göstərən əlamətlər yoxdur.

İndi isə ABŞ kəşfiyyatının bir saylı adamı qarşıdan gələn seçkilərə yeni müdaxilədən bəhs edir. Gələn il, yəni 2020-ci ildə ABŞ-da prezident seçkiləri keçiriləcək. ABŞ prezidenti Donald Tramp ötən ilin oktyabrında bildirib ki, Çin Birləşmiş Ştatlara Rusiyadan da təhlükəlidir. CBS telekanalına müsahibəsində Tramp deyib ki, Çin Xalq Respublikası ABŞ-a bu ölkədəki seçkilərə müdaxilə nöqteyi-nəzərindən ciddi təhlükə törədir.

Dünyanın ikinci böyük iqtisadi gücü olan Çin son illərdə paralel olaraq hərbi gücünü sürətlə artırır. İlk dəfə 2012-ci ildə Çin hökuməti hərbi büdcəni 11.2% artaraq ilk dəfə olaraq $100 milyard dolları keçib. Ümumilikdə Çinin hərbi büdcəsi son 20 il ərzində ardıcıl olaraq hər il artıb. Hazırda Çin hərbi büdcəsi 175 milyard dollarla ABŞ-dan sonra dünyada ikinci yerə çıxıb. Doğrudur, hazırda ABŞ hərbi büdcəsi Çin hərbi xərclərini azı 4 dəfə üstələyir. Lakin buna baxmayaraq, Pekinin sürətli inkişafı, üstəlik, ABŞ-la müqayisədə xərclərinin daha ucuz başa gəlməsi bu fərqi ört-basdır edir.

Pentaqon isə uzaq dövrdə Çinin ABŞ ordusuna qarşı savaşa hazırlaşmasından narahatdır. ABŞ Müdafiə Nazirliyinin 2018-ci il Çin silahlı qüvvələri ilə bağlı hazırladığı məruzədə deyilir ki, "Çinin silahlı qüvvələri strateji əhəmiyyətli dəniz rayonlarında belə əməliyyatlar təcrübəsini əldə edərək son üç il ərzində suüstü hərbi əməliyyatlar zonasını genişləndirir və ehtimal ki, öz hərbçilərinə ABŞ və müttəfiqlərinə qarşı zərbələr vurmağı öyrədir".

Son illərdə ilk dəfə olaraq Çin ölkə sərhədlərindən kənarda - Afrikada öz hərbi bazasını yaradıb. 2017-ci ilin yayında Çin ordusunun Cibutidə hərbi bazası qurulub. 2015-ci ildə isə Çin Cənubi Sudana sülhyaratma missiyası göndərib. Ümumiyyətlə, son illərdə Çin Afrika və Yaxın Şərqin bir sıra ölkələri ilə fəal şəkildə iş aparmağa başlayıb, yatırımlarını artırıb. Hətta bir neçə dəfə xarici media orqanlarında Çin hərbçilərinin Suriyaya göndərilməsi haqda məlumatlar yayılmağa başlayıb. İqtisadi gücü sürətlə böyüyən Çin proqnozlara görə, 2030-cu ildə daha da böyüyəcək. Təbii ki, ildən-ilə böyüyən ölkəyə həm də xaricdə böyük bazarlar, xammal ehtiyatları lazımdır. Böyük dövlətin isə heç şübhəsiz böyük hərbi gücə ehtiyacı var. Və təbii ki, böyüyən Çin getdikcə daha çox ABŞ-la qarşı-qarşıya gəlir. Son illərdə verilən bəyanatlar və hesabatlar göstərir ki, Pekin və Vaşinqton bir-birini əsas rəqibi olaraq görür. Bu isə o deməkdir ki, qarşıdurma getdikcə daha da dərinləşəcək.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 23 (7193) 31 yanvar 2019

# Narkotacir "Bibi"yə hökm oxundu - 6 il



**Narkotik satışı ilə məşğul olan qadın hakim qarşısına çıxarılıb.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində narkotiklərin qanunsuz dövriyyəsində təqsirləndirilən Sənubər Lütfəliyevanın cinayət işi üzrə məhkəmə iclası başa çatıb.

Hakim Cavid Hüseynovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

Hökmə əsas S.Lütfəliyeva 6 il müddətinə azadlıqdan məhrum edilib.

İttihamda göstərilir ki, polis əməkdaşlarının keçirdiyi əməliyyat tədbirləri nəticəsində üzərində narkotik olan İmran İsgəndərov saxlanılıb. O, ifadəsində narkotiki "Kubinka"da yaşayan "Bibi"dən aldığını deyib. Növbəti əməliyyatda "Bibi"də saxlanılaraq həbs olunub. Onun isə narkotiki kimdən aldığı istintaqa bəlli olmayıb.

Sənibər Lütfəliyeva özünü təqsirli bildiyini deyib. Lakin "Bibi" ifadə verməkdən imtina edib. O, istintaqa verdiyi ifadəsini təsdiq etdiyini bildirib.

Bildirək ki, Daxili İşlər Nazirliyi Sənubər Lütfəliyevanın həbsi ilə bağlı məlumat yayıb.

Həmin məlumata əsasən, daxil olan məlumat əsasında keçirilən əməliyyat nəticəsində paytaxt sakini əvvəllər məhkum olunmuş İmran İsgəndərov saxlanılıb. Onun üzərinə baxış keçirilən zaman iki büküm heroin və psixotrop maddə olan "midraks-tropikamin" aşkar olunaraq götürülüb. Saxlanılan şəxs heroini Nəsimi rayonu, "Kubinka" adlanan ərazidə narkotik vasitələrin satışı ilə məşğul olan "bibi" ləqəbli şəxsdən aldığını bildirib.

Əməliyyat tədbirlərinin davamı olaraq polis əməkdaşları tərəfindən İ.İsgəndərova narkotik vasitələri satmaqda şübhəli bilinən Nəsimi rayon sakini S.Lütfəliyeva da saxlanılıb. Onun üzərinə baxış keçirilən zaman ümumi çəkisi 14,275 qram olan 43 büküm heroin aşkar edilərək götürülüb. S.Lütfəliyeva ifadəsində bir müddətdir ki, narkotik vasitələrin satışı ilə məşğul olduğunu etiraf edib.

❑ **İlkin MURADOV,**
**Musavat.com**



## Bakcell "Milli KSM Mükafatı 2018" müsabiqəsinin qalibi olub

**Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi "Bakcell" şirkəti Azərbaycanda ilk dəfə təşkil olunan "Milli KSM Mükafatı 2018" mükafatına layiq görülüb.**

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikası Ailə, Qadın, Uşaq problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Asan Xidmət və Milli Məclis üzvləri, bir sıra qeyri-hökumət və özəl təşkilatların təmsil olunduğu Münsiflər Heyəti "Bakcell" şirkətini "Gənc sahibkarlara dəstək üzrə ilin layihəsi" nominasiyasında mükafatlandırıb.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Milli Konfederasiyası, Azərbaycan Gənclər Fondu və Proaktiv şirkətinin Bakı Konqres Mərkəzində təşkil etdiyi mükafatlandırma mərasimində 2018-ci il ərzində həyata keçirilmiş uğurlu KSM layihələrinin seçilməsi üçün baş tutmuş müsabiqə, uğurlu KSM layihələri və Azərbaycanda bu sahənin inkişafı haqqında danışılıb.

""Gənc sahibkarlara dəstək üzrə ilin layihəsi" nominasiyası üzrə mükafata layiq görülmüş "Öz biznesinə başla və təkmilləşdir" layihəsi "Bakcell"in əz uzunmüddətli tərəfdaşlarından biri olan "SOS Uşaq Kəndləri-Azərbaycan" Assosiasiyasının himayəsində böyümüş və digər internat müəssisələrindən məzun olmuş gənclərin biznes ideyalarını reallaşdırmaq məqsədilə icra olunur. Layihədə iştirak edən gənclər "Bakcell"in maliyyə dəstəyilə öz kiçik bizneslərini qurublar. Biz 2019-cu ildə də növbəti eyniadlı layihəni həyata keçirəcək və daha çox gəncə dəstək olacağıq", deyə "Bakcell" şirkətinin İctimaiyyətlə Əlaqələr və Korporativ Kommunikasiyalar Departamentinin rəhbəri Süheylə Cəfərova bildirib.

"Bu il 10 yaşını qeyd edəcəyimiz "Bakcell Stars" KSM proqramı ölkənin ən geniş-miqyaslı korporativ sosial məsuliyyət proqramlarından biridir. Proqramın əsas məqsədi xüsusi qayğıya ehtiyacı olan uşaqlar və gənclər üçün bərabər hüquq və imkanların yaradılması və onların cəmiyyətə inteqrasiyasının dəstəklənməsi ilə yanaşı ölkəmizdə xüsusi qayğıya ehtiyacı olan uşaqların və valideyn himayəsindən məhrum olmuş və aztəminatlı ailələrdən olan uşaq və gənclərin təhsili, bacarıqlarının artırılması, gələcəkdə iş qura bilmə qabiliyyətlərinin təmin edilməsi və sosial rifahının yaxşılaşdırılmasıdır. Bakcell şirkətinin bu istiqamətdə uğurlu fəaliyyəti davamlı xarakter daşıyır və biz çox şadıq ki, uşaq və gənclərə göstərdiyimiz dəstək öz bəhrəsini verir", deyə Süheylə Cəfərova əlavə edib.

Xatırladaq ki, "Bakcell" 2009-cu ildən etibarən "SOS Uşaq Kəndləri-Azərbaycan" Assosiasiyası İB ilə əməkdaşlıq çərçivəsində valideyn himayəsindən məhrum olmuş və aztəminatlı ailələrdən olan uşaq və gənclərə öz dəstəyini göstərir. Həmçinin 2010-cu ildən bəri "Azərbaycana Birgə Yardım" (UAFA) təşkilatı ilə birgə həyata keçirilən "İncəsənət vasitəsilə ünsiyyət" layihəsi və digər iri sosial layihələr vasitəsilə "Bakcell" şirkəti xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün bərabər hüquq və imkanların təmin edilməsi, asudə vaxtlarının səmərəli təşkili və cəmiyyətə tam inteqrasiya olunmaları üçün əlindən gələni edir.

## Nardaranda silah-sursat gizlədən şəxs saxlanılıb

**Sabunçu Rayon Polis İdarəsi 42-ci Polis Bölməsi əməkdaşları tərəfindən əllərdə qanunsuz saxlanılan odlu silah-sursatın aşkar edilməsi məqsədilə növbəti uğurlu əməliyyat tədbiri həyata keçirilib.**



Bu barədə müsavat.com-a DİN-in mətbuat xidmətindən məlumat verilib.

Belə ki, bölməyə Nardaran qəsəbə sakini İntiqam Vəliyevdə odlu silah olması barədə əməliyyat məlumatı daxil olub. Həmin şəxs polislər tərəfindən saxlanılıb və onunla aparılan profilaktik söhbətlər zamanı o, qəsəbə ərazisində gizlətdiyi sursatın yeri barədə məlumat verib. Qeyd edilən əraziyə baxış zamanı İ.Vəliyev tərəfindən torpağa basdırılan 27 ədəd avtomat gülləsi, 1 ədəd F1 qumbarası alışqanı ilə birlikdə, 2 ədəd bıçaq, 1 ədəd 12 kalibrli ov tüfənginə məxsus güllə aşkar olunaraq maddi sübut kimi götürülüb.

Faktla bağlı 42-ci polis bölməsində toplanan materiallar Sabunçu RPİ-nin İstintaq şöbəsinə göndərilib.

Daxili İşlər Nazirliyi vətəndaşlara müraciət edərək bildirir ki, əllərdə saxlanılan qanunsuz odlu silah-sursat və partlayıcı maddələr könüllü olaraq hüquqü-mühafizə orqanlarına təhvil verilməlidir.

❑ **Musavat.com**

## Bakıda 7 yaşlı uşağı öldürməyə cəhd edən şəxsə ağır cəza - 14 il

**Bakı Ağır Cinayətlər Məhkəməsində yeddi yaşlı uşağı öldürməyə cəhddə təqsirləndirilən Mövsüm Bağırovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

"Trend"in məlumatına görə, hakim Azər Paşayevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxsə hökm oxunub.

Məhkəmənin hökmü ilə M.Bağırov 14 il azadlıqdan məhrum edilib.

İttihama görə, ötən il Bakının Xəzər rayonunda 1998-ci il təvəllüdlü M.Bağırov qonşuluqda yaşayan 7 yaşlı Alı Vəliyevin başına daş çırparaq öldürməyə cəhd edib.

Xəstəxanaya çatdırılan yaralının həyatını xilas etmək mümkün olub.

Hadisəyə azyaşlının M.Bağırovun üzərinə pirotexniki maddə atması səbəb olub.

Polis tərəfindən saxlanan M.Bağırovun barəsində Cinayət Məcəlləsinin 29.120-ci (adam öldürməyə cəhd) maddəsi ilə ittiham irəli sürülüb.

## Prokuror "Damdayatan Nizam"ın qızına cəza istədi

### Külli miqdarda narkotik satışında ittiham edilən qadın 2 il əvvəl azadlığa çıxıbmış

**Külli miqdarda narkotik satışında ittiham edilən qadın növbəti dəfə hakim qarşısına çıxarılıb.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində narkotik vasitələrin dövriyyəsində ittiham edilən 35 yaşlı Şəms Səmədovanın cinayət işi üzrə növbəti məhkəmə iclası keçirilib. Hakim Ramella Allahverdiyevanın sədrliyi ilə keçirilən məhkəmə iclasında prokuror çıxış edib. Prokuror Şəms Səmədovanın 8 il 6 ay müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

4 uşaq anası olan Şəms Səmədova daha əvvəl də məhkumluq həyatı yaşayıb. 2016-cı ildə o, narkotik ittihamı ilə həbs edilib. Lakin hamilə olduğu və himayəsində daha 3 azyaşlı uşaq olduğu üçün 2017-ci ildə şərti olaraq azadlığa buraxılıb. O da məlum olub ki, Səmədovanın uşaqlarından ikisi əqli və fiziki qüsurludur.

Prokuror Şəms Səmədovanın daha əvvəlki cəzasının da indiki cəzasına birləşdirilməsini və qəti olaraq 9 il 6 ay müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Məhkəmə iclası fevralın 6-da davam etdiriləcək.

Bildirək ki, Şəms Səmədovadan sonra bacısı 32 yaşlı Lamiyə Quliyeva da tutulub. Şəms özünü təqsirli bilmir. Ş.Səmədovanın atası "Damdayatan Nizam" ləqəbi ilə tanınan Nizam Quliyev və nənəsi Məsmə Quliyeva da "Kubinka" adlanan ərazidə vaxtilə narkotik ticarəti ilə məşğul olublar.

Xatırladaq ki, Şəms Səmədova bir qrup şəxslə əlbir olmaqda ittiham edilir. Digər şəxslər həbs edilən zaman narkotiki Səmədovadan aldıqlarını bildiriblər.

Daxili İşlər Nazirliyinin məlumatına görə, ötən il mayın 18-də keçirilən tədbirlər nəticəsində külli miqdarda narkotik vasitə, həmçinin xeyli sayda güclü təsiredici psixotrop tərkibli həblər aşkar edilərək qanunsuz dövriyyədən çıxarılıb.

Baş Narkotiklərlə Mübarizə İdarəsinin Qərb bölgəsində regional şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat nəticəsində Gəncə şəhər sakini Rövşən Zeynalov narkotik vasitə olan heroini şəhər ərazisində 100 manata satarkən cinayət başında yaxalanıb.

Qaradağ Rayon Polis İdarəsi əməkdaşları tərəfindən saxlanılan Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş Cavad Qədimovdan 420 qram marixuana, Mingəçevir Şəhər Polis Şöbəsinin əməkdaşları tərəfindən saxlanılan şəhər sakini, əvvəllər məhkum olunmuş Pərviz Müslümidən heroin və 295 qramdan artıq marixuana aşkar edilib.

Bərdə Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri ilə ötən il mayın 18-nə keçən gecə Şorəlli kəndindəki evlərin birindən 750 manat dəyərində televizor oğurlamaqda şübhəli bilinən kənd sakini, əvvəllər məhkum olunmuş Elçin Səmədov saxlanılıb. Şəxsi axtarış zamanı ondan heroin aşkar edilib. Davam etdirilən tədbirlər nəticəsində onun yaşadığı evdən əlavə olaraq 345 qram marixuana aşkar edilərək götürülüb.

Nəsimi Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən saxlanılan Ağcabədi rayon sakini Tural Qasımovdan, Hacıqabul rayon sakini, əvvəllər məhkum olunmuş Taleh Babayevdən, Bakı şəhər sakinləri, əvvəllər məhkum olunmuş Əli Əliyevdən və Nizami Mürsəlovdan narkotik vasitə olan heroin və "Metamfetamin" aşkar edilib.

Araşdırmalarla onların narkotiki əldə etdikləri mənbə də müəyyən edilib və narkotik vasitəni onlara satmaqda şübhəli bilinən paytaxt sakini, əvvəllər məhkum olunmuş Şəms Səmədova da saxlanılıb. Ondan 44 qramdan artıq heroin, "Metamfetamin" və 70 ədəd "Tramadol" həbləri aşkar edilib. Ş.Səmədovanın bacısının evində keçirilən əməliyyat-axtarış tədbirləri ilə oradan əlavə olaraq 44 qram heroin, "Metafetamin" və "AMB-Fubinaca" adlı narkotik vasitə aşkar edilərək götürülüb.

❑ **İlkin MURADOV,**
**Musavat.com**

## Gürcüstanda 20 nəfərin "donuz qripi"ndən ölməsi təsdiqlənib

**Gürcüstanda "donuz qripi" adlandırılan A (H1N1) virusundan 20 nəfərin ölməsi laboratoriya şəraitində təsdiq olunub.**

"Report"un yerli bürosu xəbər verir ki, bu barədə Gürcüstanın Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin rəhbəri Amiran Qamkrelidze bildirib.

Onun sözlərinə görə, son dörd həftə ərzində A (H1N1) virusunun yayılmasında azalma qeydə alınır: "Azalma yalnız yayılma baxımından deyil, xəstəxanaya yerləşdirilmə baxımından da müşahidə olunur. Azalma kəskin olmasa da, istənilən halda artım tempi yoxdur. Təcili tibbi yardım və 24 saat fəaliyyət göstərən tibb müəssisələrinə müraciətlərin sayı da azalır".

A.Qamkrelidze deyib ki, "donuz qripi" ilə bağlı dəqiqləşdirilmiş məlumatlar qrip mövsümünün sonunda açıqlanacaq.

YENİ MÜSAVAT
N 23 (7193) 31 yanvar 2019

**Azərbaycanda döyüş itlərinin sahibləri böyük bəhsə hazırlaşırlar. İlkin razılığa görə, bəhs bu ilin martında keçiriləcək. Hələlik döyüşün keçiriləcəyi yer konkretləşdirilməyib. Bilinən odur ki, döyüşdən qalib çıxmış it sahibinə 100 min manat qazandıra biləcək. Mümkündür ki, bu məbləğ 100 min manatı aşsın. Qarşıdakı 2 aya yaxın müddətdə döyüşün keçiriləcəyi yer və mükafat fondu dəqiqləşdirilməlidir.**

# Azərbaycanda 100 min manatlıq iti boğuşdurma yarışı başlayır

## Xızıda ötən ay it öz sahibinə 50 min manat qazandırıb; “Dizel” adlı köpək rəqibini darmadağın edib



**Dəvə döyüşlərindən it boğuşdurmağa qədər...**

“Yeni Müsavat”a daxil olan məlumatda deyilir ki, it döyüşünün keçiriləcəyi rayonun adının açıqlanmaması rəsmi qurumların tədbirə mane ola biləcəkləri ehtimalına görə gizli saxlanılır. Azərbaycanda heyvanlar arasında döyüşlərin təşkili qədim ənənələrdəndir. Xoruz, hind quşu, dəvə, it döyüşləri əsrlərdir ki, keçirilir. Zaman ötdükcə dəvə döyüşləri sıradan çıxsa da, hind quşlarının döyüşü seyrəlsə də, it və xoruz döyüşlərinə maraq səngiməyib. Qədimlərdə Bakı kəndlərində, xüsusən İpək yolunun keçdiyi məkanlarda Novruz bayramı ərəfəsində dəvə döyüşləri populyar olub. Həmin zamanlarda da döyüşdən qalib çıxan dəvə sahibinə ənam qazandırıb, uduzan dəvə isə kəsilərək tamaşaya toplaşan imkansızlara bitəmənna pay verilib.

**80 kiloqramlıq Alabayın sahibi nələri anlatdı?**

İt döyüşləri əsrlərdir ki, xüsusi maraqla izlənən ənənələrdəndir. Həmsöhbətimiz də döyüş itinin sahibidir. Deyir, Alabay cinsindən olan itin hazırda 2 yaşı var. Çəkisi 80 kiloqrama çatır.

“Alabay Mərkəzi Asiya çoban itidir. Bu itlər güclü və atletik bədən quruluşludurlar. İri sümükləri, əzələləri var. Alabayın başı böyükdür, ancaq bədəni ilə mütənasibdir. Qulaqları çox qısadır. Başın iki yanında deməkolar ki, görünmür. Bu, döyüş iti üçün olduqca vacib xüsusiyyətdir. Çünki istənilən itin ən zəif yeri qulağıdır. Alabay cinsindən olmayan əksər döyüş itlərinin qulağını doğulandan sonra məhz buna görə kəsirlər. Alabayın qulağı anadangəlmə olmur. Quyruğu da çox qısadır. Soyuq qış günlərində sayıqlığını itirməmək, burnunu quyruğu ilə bağlayıb dərin yuxuya getməməsi üçün vacibdir. Alabayın 2 təbəqəli olan tükləri qısa və sıxdır. Geniş şəkildə ağ, qara, boz, açıq qəhvə, qırmızı qəhvə rənglərdə xallı olur. Alabay döyüşçü olmaqla yanaşı, yaxşı bir gözətçi və sürü itidir. Pis xüsusiyyəti də var, torpağı qazmağı sevər. Alabay saxladınsa, ərazinin bombalar partlamış kimi yerə çevriləcəyinə də hazır olmalısan. Gah oranı, gah buranı qazıyıb tökəcək. Bu, itə caynaqlarını bərkitmək, itiləmək üçün vacibdir. Alabay cinsindən olan itin sərt yerdə saxlanılması bu üzdən məsləhət deyil” - deyə adının çəkilməməsi şərti ilə bizə danışan həmsöhbətimiz olduqca maraqlı məlumatlar verir.

**İt döyüşləri leqallaşsın!**

Deyir ki, Bakı kəndlərində və rayonlarda qış aylarında, xüsusilə Novruz bayramı ərəfəsində belə yarışlar keçirilir. Yayda isə belə yarışlar demək olar ki, baş tutmur. Çünki döyüşlər zamanı itlər ağır yaralar alır. Yayda qızmar günəş yaraların tez bir zamanda sağalmasına mane olur. Odur ki, əsl itbazlar yayda it döyüşdürmür. Qış ayları isə it döyüşləri üçün ideal zaman hesab olunur: “Azərbaycanda hər il belə döyüşlər keçirilir. Hüquq-mühafizə orqanlarının yarışlara müdaxilə edə biləcəyi ehtimalı böyük olduğundan yarış təşkilatçıları döyüşlərin keçirilmə gününü və yerini gizli saxlayır. Biz istəyirik ki, it döyüşləri leqallaşsın. Yer ayırsınlar.

**Əgər it döyüşü vəhşilikdirsə, insanla öküzün döyüşünün adı nədir?**

Bütün dünya İspaniyada öküzlə insanın döyüşünə tamaşa edir, çox vaxt da öküz insanı tapdayıb öldürür və ya öküz öldürülür. Bu cür döyüşləri birbaşa efirə verirlər, milyonlarla insan da tamaşa edir. Əgər it döyüşü vəhşilikdirsə, insanla öküzün döyüşünün adı nədir? Həm də it döyüşü təkcə Azərbaycanda deyil axı. Türkiyədə, Əfqanıstanda, İranda da it döyüşləri tez-tez keçirilir. Ruslar da bizim kimi it döyüşünü bildiyim qədər qeyri-rəsmi qadağan ediblər, amma nə olsun?"

**Yarım milyon dollarlıq mükafat!**

Həmsöhbətimiz bildirir ki, Rusiyada hər il it döyüşləri çempionatı keçirilir. Orada uduş fondu Azərbaycandakından qat-qat böyükdür. Elə vaxt olur ki, 200-300 mindən yarım milyon dollara qədər bəhs pulu olur. Kimin iti uddu, bəxti gətirdi. Təsəvvür elə ki, 1 il itə qulluq eləyirsən, yedizdirib, çimdirib, iynə-dərmanını vurdurursan, qalib olur və yarım milyon dollar səni qabağa salır".

**300 manatdan 3 min manatadək - itin aylıq yemək xərci!**

**Həmsöhbətimizdən döyüş itinin xərcləri haqda da soruşduq. Öyrəndik ki, belə cins itə sahiblənməkdən əvvəl büdcənizi də düşünməlisiz. Aylıq xərclər 300 manatdan 3 min manata qədər ola bilər:** “Adam var ki, Alabayı Türkiyədən gətizdirir, 5 min manat pul verir”.

**Xızıda “Dizel” sahibinə 50 min manat qazandırdı!**

**Ən son it döyüşü bu ilin əvvəlində Gəncədə baş tutub:** “Yanvarın 3-də Gəncədə döyüş oldu. Bundan əvvəl Füzulidə olmuşdu. Xızıda da döyüş olmuşdu ötən ilin axırında. İtin adı "Dizel" idi, digər iti dağıdırdı. Sahibi 10 dəqiqə dözə bildi, gördü ki, it əldən gedir, döyüşü saxlatdı. Uduş fondu 50 min manat idi. “Dizel” sahibinə 50 min manat qazandırdı. 500-1000 manatlıq sıradan döyüşlər də olur. Bakıda da, rayonlarda da itbazların bildiyi yerlər var, vədələşib orada yarış keçirirlər. Kimin iti uddu, bəxti üzünə güldü.

**Varlı tamaşaçılar belə yarışlara xüsusi həvəslə baxırlar**

Əsas döyüş Novruz bayramında olacaq. Mümkündür ki, bu il mükafat fondu 100 min manat olsun. Çünki bayramda döyüşə çoxlu tamaşaçı gəlir, aralarında vəzifə sahibləri, pullu adamlar çox olur. Döyüşə bir-birinə uyğun çəkidə olan itlər buraxılır. Nadir hallarda adam var ki, boyu balaca, cüssəsi rəqibindən balaca itinin daha böyük cüssəli itlə döyüşməsinə israr edir. Baxırsan ki, nisbətən balaca it yekə bir iti altına salıb qışqırdır, diş ağardıb uduzmasını göstərən hərəkətə məcbur edir, özünə tabe etdirir. Varlı tamaşaçılar belə yarışlara xüsusi həvəslə baxırlar. Belə itlərin qələbəsinə böyük pullar qoyurlar. Belədə də azart daha yüksəkdir, döyüşə çıxarılan itlər də elə belə itlər deyil axı. Kənardan baxan elə bilər ayı döyüşür. O yekəlikdə itlərin döyüşü, göyə atılıb bir-birinə sinə vurması, xüsusi fəndlə digərini yıxıb boğması, yerdə çabalayan, hər kəsin uduzduğunu zənn etdiyi itin qalxıb rəqibini məğlub etməsi tamaşaçıları əməlli-başlı coşdurur. Həmin döyüşlərin azartı bir başqadır eee..."

**İtə qulluq - 25 manatdan 10 iynə, hər gün 13 manatlıq yemək!**

**Həmsöhbətimiz itlərə qulluq məsələsinə qayıdır:** “İtin xərcləri sahibinin büdcəsindən asılıdır. Məsələn, it yeməyinin 1 kiloqramı 13 manatdır. İt var, həmin 1 kiloqramı gün ərzində yeyir, it də var 700-800 qram yeməklə yola verməli olur. İmkanı olmayanlar gündə 2 manat xərcləyib sür-sümük alıb verir. Sağlam it saxlamaq istəyən ayda 250-300 manatından keçməlidir. Döyüş üçün saxlanılan itə isə daha çox pul xərclənir. Çünki döyüşdən əvvəl itlər xüsusi hazırlanır. Döyüşə qədərki 1 ay ərzində itə 10-a yaxın iynə vurulur. Həmin iynələrin hər birinin qiyməti 25 manatdır. Bunlar iştah artıran, çəki artıran, enerji verən, stresi götürən və başqa iynələrdir. Bu dərmanlar etapla itə yeridilir ki, döyüşə tam hazır olsun. Belə deyək, idmançılar necə hazırlanırsa, döyüş itlərinə də oxşar hazırlıq dövrü keçir. 6 aydan bir qurd dərmanı, xüsusi şampun, sabun da almalısan ki, itin tükləri tökülməsin, qoturlaşmasın. Adam var, ayda 2-3 min manat itə pul xərcləyir. İtinin həkim tərəfindən qapısında çimizdirilməsinə 200-300 manat verir. İtdən itə fərq var. Yəni çoxlu pul xərcləməklə deyil, amma xərcsiz də keçinmək olmur. Azı 300 manatından keçməlisən ki, gözəgəlimli görünüşü olan iti saxlaya biləsən. Yoxsa baxırsan ki, alabay saxlayır, itin bir yekə başı qalıb, acından gövdəsi əriyib gedib”.

**Həmsöhbətimiz deyir ki, Azərbaycanda it boğuşdurmaq qanunsuz sayılmır:** “Belə bir qanun yoxdur ki, iti döyüşdürməyi qadağan eləsin. Sadəcə, heyvanlara qarşı zorakılıq qadağan olunur. Amma çox vaxt təşkilatçıları incidirlər deyə döyüşləri hər dəfə ayrı-ayrı yerlərdə keçirirlər”.

**İt var ki, 2-3 aylıq balası 5 min manata satılır**

**Öyrənirik ki, belə itləri almaq istəyənlər əsasən “Təzə bazar”ın yaxınlığındakı ev heyvanları və quşlarının satıldığı bazara üz tuturlar:** “Orada yerli irqdən olan itləri - Qafqaz çoban itinin 2-3 aylıq balasını 2-3 min manata almaq olar. Amma xüsusi maklerlər də var ki, dünyanın hər tərəfindən Azərbaycana it gətirirlər. İrqindən asılı olaraq qiymətlər də dəyişir. İt var ki, 2-3 aylıq balası 5 min manata satılır. Yerli sort demək olar ki, çox az qalıb. Vaxtilə daşıyıb aparıblar. İndi Türkiyədən, Qazaxıstandan döyüş itləri Azərbaycana gətirilir. Hazırda Azərbaycandan daha çox atları daşıyıb aparırlar. 10-15 il sonra ölkədə yerli cins atlar çox az olacaq”.

**❑ E.MƏMMƏDƏLİYEV, “Yeni Müsavat”**

YENİ MÜSAVAT

Son səhifə

N 23 (7193) 31 yanvar 2019



## Pizza sevgisi amerikalını varlandırdı

**7 il bundan öncə təqaüdə çıxmış Amerika sakini pizza sevgisinə görə lotereyada böyük məbləğ qazanıb. Bu barədə lenta.ru saytı xəbər verib. Viskonsin ştatındakı De Soto kəndindən olan Stiven Allen sevimli pizza şəbəkəsi olan "Rocky Rococoy"a gedib ki, qarnını doyursun. Yolda ərzaq mağazasına girib və "SuperCash" lotereya bileti alıb. Bilet 17-18-20-26-27-31 nömrələrindən ibarət olub.**

Daha sonra o, uduş rəqəmlərini rəsmi saytda yoxlayıb və 350 min dollar qazandığını öyrənib. "Mən 17, 18 və 20 rəqəmlərini gördüm. Sonra rəqəmlər yavaş-yavaş üst-üstə düşməyə başladı. Öncə dərk edə bilmirdim ki, mən qalib gəlmişəm. Ona görə də rəqəmləri bir-birinin ardınca, növbə ilə yoxladım. İndiyə qədər də buna inana bilmirəm".

Allenin sözlərinə görə, pullar olduqca lazımlı bir vaxtda yetişib. Çünki bundan sonra təqaüdçü kişi yaxın qohumlarından asılı qalmayacaq.

11 yanvarda isə lotereyada böyük məbləğ udan digər amerikalı barədə xəbər yayılmışdı. Amerikalı ailə dostlarına qonaqlığa getmədən öncə mağazaya alış-veriş üçün baş çəkmiş və orada lotereyaya gözü sataşmışdı. O, həmin lotereya nəticəsində 150 min dollar mükafat qazanıb.

# Evdəki əşyalar ölümlərinə səbəb oldu

**İspaniyanın Alikant şəhərində bir ailə içində kilolarla geyim olan şkafın altında qalaraq ölüb. 50 yaşlı kişi, onun 49 yaşlı həyat yoldaşı, eləcə də 12 yaşlı qızları 28 yanvarda dünyasını dəyişib. Bu hadisə isə növbəti gün, evin 18 yaşlı qızı tərəfindən aşkarlanıb. Qız otaqdan çıxmağa cəhd etsə də, qapının bloklanmış olması vəziyyəti qəlizləşdirib. O, çətinliklə də olsa otaqdan çıxanda evin ortasında paltar topası görüb və polisi çağırıb. Ər-arvad Marokkodan gəlmə, ispan mənşəli olub. Onlar əşyalarını saxlamaq üçün evdə tavana qədər uzanan rəflər düzəldiblər. Yığılan paltarları isə onlar periodik olaraq satırdılar. Bundan başqa, ailə həm də Dioqen sindromundan əziyyət çəkirdi. Sözügedən xəstəlik köhnə əşyaları yığma, sosial izolyasiya və apatiyanı özündə ehtiva edir.**



# Özü qaradərilidir, uşağı isə ağdərili və göy göz...



**İngiltərənin Milton Keynes şəhərində yaşayan 35 yaşlı Nigeriya əsilli qaradərili Ketrin Hovart mütəxəssislərin "milyonda bir ehtimal" olaraq təsbit etdiyi bir durum yaşayıb. Belə ki, o, tamamən ağ irqdən olan ikinci körpəsini də dünyaya gətirərək, dünyadakı iki ağdərili uşağa sahib olan ilk qaradərili ana olub. Nigeriyalı qadın üç il əvvəl iyunun 1-də oğlu Cohanı dünyaya gətirəndə mütəxəssislər demişdilər ki, həyat yoldaşı Riçard Hovart ağdərili bir ingilis olsa da, 32 yaşlı qadının "tamamən ağ irqdən olan" bir körpə dünyaya gətirməsinin "milyonda bir ehtimal" daxilində olduğunu demişdi.**

Mütəxəssislər cütlüyün gələcəkdə ağ bir körpəyə sahib olmasının da imkansız olduğunu, çünki belə gen kombinasiyasının bir daha təkrarlanmayacaq qədər nadir olduğunu dedilər. Amma buna baxmayaraq, nigeriyalı qadının mavi gözlü, ağdərili bir qızı da dünyaya gəlib. İlk övladının dünyaya gəlməsindən sonra İngiltərənin "Daily Mirror" qəzetinə açıqlama verən Ketrin Hovart aşağıdakıları deyib: "Doğumdan sonra Cohanı mənə gətirən tibb bacısı bir ona, bir də mənə diqqətlə baxırdı. Gözlərinə inana bilməmişdi. Bəzi körpələrin doğumdan sonra dəri rəngi dəyişə bilir. Amma Conahda belə bir şey baş vermədi. Həkimlər mənə dəyişik bir gen daşıdığımı, uşağımın da bu səbəbdən ağ olduğunu söylədi. Ancaq mənim bütün ailəm Nigeriyada yaşayıb və bildiyim qədər soyumda bir ağdərili belə yoxdur".




**QOÇ** - Kifayət qədər məhsuldar gündür. Kiminsə işlərinizə mane olacağını ağlınıza gətirməyin. Əksinə, nəzərdə tutduğunuz planların böyük əksəriyyəti öz həllinə yaxınlaşacaq.

**BUĞA** - Daxili sabitliyinizi qorumaq istəyirsinizsə, keçmişdə olanları müzakirə etməyin. Onsuz da olmuşları düzəltmək mümkünsüzdür. Özünüzü sevgiyə həsr edin ki, xilas olasınız.

**ƏKİZLƏR** - Günün birinci yarısında müəyyən gərginliklə baş-başa qala bilərsiniz. Odur ki, həmin ərəfədə bütün vacib planlarınızı təxirə salmalısınız. Fəaliyyətdə öz məsuliyyətinizi anlayın.

**XƏRÇƏNG** - Düşərli bir gün yaşayacaqsınız. Özünüzü nikbin səviyyədə kökləyin. Çalışın ki, ətrafda hər şeyin gözəl olduğunu duyasınız. Bu gündən etibarən taleyinizdə dönüş yaranmalıdır.

**ŞİR** - Məhəbbət aləmində romantik məqamlar yaşamaq istəyirsinizsə, bu təqvimdən maksimum yararlanın. Əmin olun ki, cəhdləriniz boşa çıxmayacaq. Riskli sövdələşmələrdən yayının.

**QIZ** - Nəhayət ki, ulduzlar bürcünüzə maliyyə səxavəti göstərməyə yaxın olacaq. Saat 13-16 arası bu istiqamətdə daha əlverişli şanslar qazana bilərsiniz. Qərarlarınızda qəti olun.

**TƏRƏZİ** - Mübahisəli gün olsa da, Göy qübbəsi maliyyə durumunuzda irəliləyiş olacağını bildirir. Bir şərtlə ki, kisənizdən etibarsız insanlara borc verməyəsiniz. Yoxsa müflisləşəcəksiniz.

**ƏQRƏB** - Günün birinci yarısında bütün işlərinizi yekunlaşdırmağa çalışın. Çünki sonrakı müddətdə buna imkan tapmayacaqsınız. Ulduzlar nahardan sonra maraqlı görüşlərdən xəbər verir.

**OXATAN** - Ulduzların düzümü səhhətinizdə problemlər olacağını bəyan edir. Bunun qarşısını almaq üçün ilk növbədə əsəblərinizi qorumalısınız. Nahardan sonra büdcənizdə artım gözlənilir.

**OĞLAQ** - Yaxşı olar ki, fəaliyyətə ara verib daha çox istirahətlə məşğul olasınız. Bunu etməsəniz, ümumi yorğunluğunuz və daxili süstlüyünüz sengiməyəcək. Səfərə çıxmayın.

**SUTÖKƏN** - Planetiniz olan Uran narahat kosmik bucağa düşdüyündən fəaliyyətinizin səmərə verməyəcəyini bəyan edir. Odur ki, daha çox istirahətə yer ayırmalı, xəstəliyə təslim olmamalısınız.

**BALIQLAR** - Görüşə çıxmaq, yeni işlərə başlamaq, sövdələşmələrdə iştirak etmək üçün səmərəli vaxtdır. Çalışın ki, ürəyinizin səsinə qulaq asasınız. Ağır fiziki işlərdən uzaq olmağa cəhd edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Yasa gəlmişdi, məzara düşdü



**Peruda keçirilən dəfn mərasimi zamanı iştirakçılardan biri məzarın içinə yıxılıb. Bu barədə "Metro" nəşri xəbər yayıb. Qəbrin bir kənarında dayanan kişi qəfil şəkildə sürüşüb və qəbrinin içinə yıxılıb. Nəticədə yıxılan kişi tabutun da bir hissəsinin qırılmasına səbəb olub. Bu zaman bir neçə nəfər də qəbrin yerinin içinə düşüb və tabutun sürüşməsinin, eləcə də meyitin oradan çıxmasının qarşısını alıb. Onlar meyiti tabutun içindən çıxarsalar da, yolda tabutun qırılmış qapağını itiriblər.**

Daha öncələr isə xəbər verilmişdi ki, dəfn mərasimi zamanı İordaniya kəndlərindən birində bir nəfəri meteorit vurub. Həmin şəxs dərhal yanıb, alovun hündürlüyü dörd metrə çatıb, yanğının həcmi isə 10 kvadrat metr sahəni əhatə edib.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100